"Mədəniyyət" qəzetinin xüsusi buraxılışı

# CÜMHURİYYƏT

100 1918 2018

İYUL 2018-ci il



## "Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir, sarsılmazdır!"

## 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş vermiş, müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır.



2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam olur. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli 2867 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır. Bu tədbirlərlə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar ölkədə və ölkə xaricində silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilsin.

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 10 yanvar 2018-ci il.*



## "100 illik tariximiz" - bölgələrdən bölgələrə

Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə "100 illik tariximiz" başlığı altında "Bölgələrdən bölgələrə" Yaradıcılıq Festivalı keçirilir. Cümhuriyyətin 100 illiyinə həsr olunmuş layihənin məqsədi zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqının mədəni irsinin təbliği, regionların mədəni potensialının nümayiş etdirilməsi, bölgələrarası mübadilənin gücləndirilməsidir.

# Müstəqillik ən böyük sərvətimizdir

**“Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır”.**



**Prezident İlham Əliyev:**
“Biz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzularını reallığa çevirdik. Mən tam əminəm ki, əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sözləri mayın 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təşkil olunmuş rəsmi qəbulda çıxışı zamanı deyib.

Prezident vurğulayıb ki, Azərbaycan dövləti Cümhuriyyətin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır: “Bir neçə il bundan əvvəl mənim sərəncamımla Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Bu il isə Azərbaycanda “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan olunmuşdur və həm ölkəmizdə, həm də bir çox xarici ölkələrdə bu yubileyi qeyd edərək biz böyük tədbirlər keçirmişik, keçiririk və ilin sonuna qədər bu tədbirlər keçiriləcəkdir”.

Dövlət başçısı daha sonra deyib: “Azərbaycan Xalq Cümhuriyyəti 23 ay ərzində fəaliyyət göstərmişdir. Ancaq bu müddət ərzində böyük işlər görə bilmişdir. Azərbaycanın dövlət bayrağı təsis edilmişdir, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, milli ordumuz yaradılmışdır. Azərbaycanın Milli Ordusu 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusu ilə birlikdə Bakını erməni-bolşevik dəstələrindən, işğaldan azad etmişdir və bizim qədim tarixi şəhərimiz olan Bakını Azərbaycan xalqına qaytarmışdır. Xalq Cümhuriyyəti tərəfindən sərhəd dəstəsi yaradılmışdır. Gəncənin tarixi adı qaytarılmışdır. Qısa müddət ərzində 200-dən çox qanun qəbul edilmişdir. Əlbəttə ki, onların arasında qadınlara səsvermə hüququnun verilməsi qanunu xüsusi yer tutur. Bakı Dövlət Universiteti yaradılmışdır və bu, onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti kadrların yetişdirilməsi işində, təhsilin inkişafında böyük işlər görmək əzmində idi. Azərbaycan dili - ana dili bütün təhsil müəssisələrində qəbul edilmişdir.

Bir sözlə, görülmüş işlər çox idi. Xalq Cümhuriyyətinin niyyəti ondan ibarət idi ki, güclü dövlət yaratsınlar və Azərbaycan xalqı azadlıq, əmin-amanlıq şəraitində yaşaya bilsin. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, 23 aydan sonra respublika süqut etdi. Bu, bizim böyük faciəmizdir. Mən tam əminəm ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi, bu gün Azərbaycan dünyanın ən zəngin və ən inkişaf etmiş ölkələrinin sırasında ola bilərdi”.

Qeyd olunub ki, Cümhuriyyət tarixinin faciəli sonluğu həm də bizim üçün ibrət dərsi olmalıdır: “Əfsuslar olsun ki, biz müstəqilliyi itirdik. Bu, bir daha onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir.

1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi və onu bir də o tarixdən 70 il sonra Naxçıvanda, Naxçıvanın Ali Məclisinin sessiyasında ulu öndər Heydər Əliyev qaldırmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi Naxçıvan Ali Məclisinin sessiyasında qəbul edilmişdir”.

Dövlət başçısı nitqində Azərbaycanın 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra üzləşdiyi çətinliklərdən də bəhs edib: “Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün faciəli, çox ağır illər kimi tarixdə qaldı. Əfsuslar olsun ki, Azərbaycan rəhbərliyində olan qüvvələr 1991-1993-cü illərdə ölkəmizi lazımi səviyyədə idarə edə bilməmişlər”.

Vurğulanıb ki, Azərbaycan xalqı 1993-cü ildə öz liderini - Heydər Əliyevi hakimiyyətə dəvət etməklə nə qədər müdrik xalq olduğunu bir daha sübut edib: “Heydər Əliyevin hakimiyyətə dəvət edilməsinin bir çox səbəbləri var idi. İlk növbədə, onun Azərbaycanın rəhbəri kimi 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər, Azərbaycanın inkişafı, quruculuq və abadlıq işləri xalqın yaddaşında əziz xatirə kimi qalmışdır”.

1993-cü ilin tariximizdə dönüş nöqtəsi olduğunu deyən Prezident bildirib ki, əslində, bizim müstəqil tariximiz o ildən başlayıb. 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan, sözün əsl mənasında, müstəqil həyat yaşayır. Bu dövrdə dövlətçiliyin əsasları qoyulub, müstəqil dövlətin Konstitusiyası qəbul edilib, milli ideologiyamız qəbul olunub, azərbaycançılıq məfkurəsi bu gün bizim ideoloji əsaslarımızı təşkil edir. Siyasi islahatlar, iqtisadi sahədə liberallaşma aparılmağa başlanılıb, bazar iqtisadiyyatına keçid baş verib, demokratik inkişafla bağlı önəmli qərarlar, qanunlar qəbul edilib. Beynəlxalq təcridə son qoyulub, Azərbaycan dünyanın aparıcı ölkələri ilə konstruktiv münasibətlər qura bilib: “Bir sözlə, 1993-cü ildən başlayaraq Azərbaycan inkişaf yolu ilə inamla gedir və bu gün bu inkişaf davam edir. 2003-cü ildən sonra Azərbaycanın dinamik inkişafı təmin edilmişdir. Biz güclü, qüdrətli dövlət qura bilmişik. Bizim siyasətimiz milli maraqlar üzərində qurulub. Azərbaycan xalqının maraqları bizim siyasətimizin mənbəyidir, onun əsasıdır”.

Prezident qeyd edib ki, müstəqil dövlət kimi Azərbaycan humanitar sahədə tarixi nailiyyətlərə imza atıb: “Bu gün Azərbaycan dünyada multikulturalizmin mərkəzlərindən biri kimi tanınır. Bizim nümunəmiz, bizim gördüyümüz işlər dinlərarası, millətlərarası dialoqun güclənməsinə gətirib çıxarır və nəticə etibarilə sabitliyə, təhlükəsizliyə xidmət göstərir”.

Qeyd olunub ki, Azərbaycanın müstəqillik yolunda əldə etdiyi nailiyyətlər görülən işlərin, aparılan düzgün siyasətin, xalqımızın istedadının, xalqla iqtidar arasında birliyin nəticəsidir: “Bu gün hansı sahəyə baxsan inkişaf var, tərəqqi var və gələcək dinamik inkişaf üçün aydın baxışlar var. Bu gün müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzularını reallığa çevirdik. Biz elə bir dövlət qurduq ki, əminəm, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı bu dövlətlə fəxr edir. Mən tam əminəm ki, əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər”.

Dövlət başçısı çıxışının sonunda bir daha vurğulayıb ki, müstəqillik xalqımızın ən böyük sərvətidir. Ona görə ki, bizim taleyimiz indi bizim əlimizdədir. Bizim gələcəyimiz etibarlı əllərdədir: “Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də belədir. Müstəqillik ən böyük sərvətimiz, ən böyük nemətimiz, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir”.

# Cümhuriyyət və tarixi varislik məsuliyyəti

**İstiqlal hər bir millətin ən böyük və taleyüklü amalıdır. Amma gerçək istiqlal, sadəcə, onun elanı, dövlət rəmzlərinin qəbulu və bu faktın dünyaya bəyan edilməsi ilə məhdudlaşmır. İstiqlalı dövlətçilik təməli ilə möhkəmlətmək, həmin dövləti milli vətənpərvərlik yanğısı ilə qorumaq, nəhayət, dövlətçiliyi dönməz və əbədi etmək üçün səriştə, təcrübə, fəhm, uzaqgörən siyasət və iradə zəruridir.**



“Azərbaycanın bugünkü ağır, mürəkkəb vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Azərbaycan bundan sonra müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin əsarəti altına düşməyəcəkdir”.

Ulu öndər Heydər Əliyev 1993-cü ilin 15 iyununda fəlakətlə üzbəüz qalan dövlətin sükanı arxasına bu sözlərlə keçmişdi. Respublika müstəqilliyinin ikinci yayında sələfi Cümhuriyyətin acı taleyini yaşamaq təhlükəsi ilə üz-üzə qalmışdı. Həmin gün Azərbaycanın siyasi həyatında, bütövlükdə isə ölkəmizin müstəqillik tarixində yeni mərhələ açıldı. Qarşıda Azərbaycanın həm istiqlalı, həm də istiqbalı üçün tarixin imtahanı vardı: sabitliyi yaratmaq, müstəqilliyi möhkəmlətmək, ölkəni inkişaf relsinə çıxarmaq. Buna nail olmaq üçün çox çətin manеələr aşılmalı, hər şeydən öncə, milli dövlət əzmi və iradəsi nümayiş olunmalı idi.

“Mən bu yolu sizinlə bir yerdə gedəcəyəm. Bu yolda kim bizə mane olacaqsa, onların qarşısı indiyədək alındığı kimi, bundan sonra da alınacaq. Biz müstəqillik yolu ilə gedirik. İnanın ki, tutduğumuz bu yol bizi Azərbaycanın çox gözəl gələcəyinə aparıb çıxaracaqdır. Gələcək nəsillər bizim etdiyimiz işlərin bəhrəsini görəcəkdir”.

Ulu öndər Heydər Əliyev bu sözləri ölkə rəhbərliyinə qayıdışından iki il sonra - 1995-ci ildə 28 May - Respublika Günü ərəfəsində demişdi. Heydər Əliyev dövlət rəhbəri kimi bütün fəaliyyəti ilə bizə, bizdən sonra gələcək nəsillərə müstəqilliyi necə hifz etməyin gerçək nümunəsini göstərdi. O, Azərbaycanın görkəmli şəxsiyyətlərinin XX əsrin əvvəlində xalqımıza daddırdığı və 70 illik sovet idarəçiliyi zamanı milli yaddaşımızda əskilməyən istiqlal, milli dövlətçilik duyğularını möhkəmlətdi, Azərbaycanın müstəqilliyini dönməz və əbədi etdi.

* * *

Heydər Əliyev Cümhuriyyətin tarixi irsinə, onun qurucularının xatirəsinə böyük ehtiram göstərib, bu irsin öyrənilməsi, yaşadılması və gələcək nəsillərə çatdırılmasını müstəqil dövlətçiliyin vacib ideoloji istiqaməti kimi daim vurğulayıb. O hələ Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə, 1992-ci ilin martında Ankarada səfərdə olarkən Cümhuriyyətin banisi, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin məzarını ziyarət etmişdi. 1993-cü ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti kimi ilk xarici səfərini etdiyi Parisdə Sen-Klu qəbiristanlığına gedərək Cümhuriyyətin qurucularından Əlimərdan bəy Topçubaşovun və Ceyhun Hacıbəylinin, onların ailə üzvlərinin məzarları önünə əklil qoymuşdu.

1994-cü ildə 28 May - Respublika Günü Azərbaycanda təntənəli şəkildə qeyd edildi. Prezident Heydər Əliyev mərasimdəki geniş nitqində bu günü bizə bəxş edənlərin xatirəsinin xalqımızın qəlbində daim yaşayacağını vurğuladı: “Biz bu günü Respublika Günü, Milli İstiqlal bayramı kimi qeyd edirik. Bu bayramı qeyd edərkən biz o zaman Azərbaycanın milli azadlığı, istiqlaliyyəti uğrunda, Azərbaycanda demokratik respublika yaranması uğrunda mübarizə aparanları, onun rəhbərliyində fəaliyyət göstərənləri - Məhəmməd Əmin Rəsulzadəni, Fətəli xan Xoyskini, Əlimərdan bəy Topçubaşovu, Nəsib bəy Yusifbəylini, Həsən bəy Ağayevi və başqalarını böyük minnətdarlıq hissi ilə yad edirik”.



Ulu öndər Tiflisdə Fətəli xan Xoyskinin abidəsinin açılışında

Heydər Əliyevin sonrakı illərdə müxtəlif mərasimlərdə bu əlamətdar gün münasibətilə etdiyi bütün çıxışlar Azərbaycanın keçmişinə, indisinə və gələcəyinə işıq salan proqram xarakterli, dərin konseptual əsaslı nitqlər olub.

* * *

Ulu öndər 30 yanvar 1998-ci il tarixində Cümhuriyyətin 80 illiyinin keçirilməsi haqqında sərəncam imzaladı, yubileylə bağlı Dövlət Komissiyası yaradıldı. Sərəncamda vurğulanırdı ki, Şərqdə ilk demokratik dövlət quruluşu olan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın müstəqillik əzmini nümayiş etdirmişdir. 1920-ci ildə müstəqil dövlətimiz süqut etsə də, respublika quruluşu yaşamış, müstəqillik hisləri xalqımızı heç vaxt tərk etməmişdir. 1991-ci ildə dövlət müstəqilliyini bərpa edən xalqımız Cümhuriyyətin qısamüddətli fəaliyyətinin zəngin ənənələrindən istifadə etmiş və bu tarixi varislik üzərində müstəqil Azərbaycan dövlətini yaratmışdır. Prezident Heydər Əliyevin digər sərəncamı ilə Cümhuriyyətin 80 illiyinə həsr olunmuş əsərlərin nəşr edilməsi üçün vəsait ayrıldı. Sərəncam sonrakı illərdə Cümhuriyyətin tarixinin, onun yaradıcılarının, görkəmli şəxsiyyətlərinin irsinin tədqiq və təbliğ olunmasına, geniş elmi araşdırmaların ortaya çıxmasına mühüm zəmin oldu.

Cümhuriyyətin 80 illiyinə həsr olunmuş mərasimdə ümummilli lider bu məqamı xüsusi vurğulamışdı: “Azərbaycan Xalq Cümhuriyyətinin yaranması bizim vaxtilə itirilmiş dövlətçiliyimizi bərpa etdi. Cümhuriyyətin yaranması, İstiqlal Bəyannaməsinin elan olunması böyük zəka, uzaqgörənlik, cəsarət, iradə, qəhrəmanlıq tələb edirdi. Bizim dəyərli siyasi xadimlərimiz bu tarixi addımı atdılar. Xalq Cümhuriyyəti yaranandan sonra onun fəaliyyəti də böyük çətinliklərlə, maneələrlə rastlaşmışdır. Biz bu gün iftixar hissi ilə deyə bilərik ki, bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti yaşamış, fəaliyyət göstərmiş və iki il müddətində çox böyük işlər görmüş, Azərbaycanın müstəqil gələcəyinin əsasını qoymuşdur.

Biz Azərbaycanın 1918-ci ildə yaranmış ilk müstəqil Xalq Cümhuriyyətinin varisiyik. Onların işinin davamçısıyıq - ancaq yeni şəraitdə, yeni zamanda. Bu müstəqillik Azərbaycan xalqının istiqlal arzusu ilə yaşayan vətənpərvər insanlarına, 1918-ci ildə Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli və bir çox başqalarının yaratdığı Xalq Cümhuriyyətinə bizim tərəfimizdən, bugünkü nəsillər tərəfindən ucaldılmış böyük bir abidədir. Biz Xalq Cümhuriyyətinin tarixini, onun görkəmli şəxsiyyətlərinin fəaliyyətini dərindən öyrənməli, ideyalarını təbliğ etməli, təcrübəsindən bəhrələnməliyik”.

Bu gün müasir Azərbaycan dövləti Heydər Əliyevin bu sözlərinin ziyasında, Cümhuriyyətin irsini yaşadaraq, ulu öndərin tarixi nidası ilə yoluna davam edir: “Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir, sarsılmazdır!”

**Mayın 28-də Bakı Kristal Zalında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilən təntənəli konsert keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri konsertdə olublar.**

# Üçrəngli bayrağınla məsud yaşa!



Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan bədii-musiqili gecənin konsepsiyası 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, ötən 100 il ərzində respublikamızın müxtəlif sahələrdə əldə etdiyi nailiyyətlər, Azərbaycanın hazırda müstəqil, güclü və inkişaf etmiş ölkələr sırasında layiqli yerini tutması ideyası üzərində qurulub.

Xalq artisti Alim Qasımov və Əməkdar artist Fərqanə Qasımovanın ifasında "Qarabağ şikəstəsi", "Natiq" ritm qrupunun "Sarı gəlin" kompozisiyası, dahi bəstəkar Üzeyir Hacıbəylinin "Koroğlu" operasından uvertüra, habelə Qara Qarayevin "Yeddi gözəl", Fikrət Əmirovun "1001 gecə", Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletlərindən rəqslər, xalq artistləri Azərin, Zülfiyyə Xanbabayeva və Samir Cəfərovun ifalarında "Ey Vətən", "Şuşanın dağları" və "Neftçilər" mahnıları böyük maraqla dinlənilib.




Xalq artistləri Aygün Kazımova, Azər Zeynalov, Emin, Elçin Əzizov, əməkdar artistlər Emil Əfrasiyab, Səbinə Babayeva, Tünzalə Ağayeva, Miri Yusif və Röyanın, "Rast" qrupunun, Müdafiə Nazirliyinin Əlahiddə nümunəvi orkestrinin çıxışları izləyicilərə bayram təntənəsi yaşadıb.

Proqramdakı musiqi nömrələri, rəqslər Azərbaycanın zəngin tarixinə bir daha hərtərəfli nəzər salmağa imkan yaradıb.

Tədbirdə ümummilli lider Heydər Əliyevin Xalq şairi Səməd Vurğunun "Azərbaycan" şeirini səsləndirdiyi videoçarx da nümayiş olunub. Həmçinin Bakı Media Mərkəzi tərəfindən Cümhuriyyətin 100 illiyi ilə əlaqədar hazırlanmış videoçarxlar nümayiş etdirilib. Sonda incəsənət ustaları hamılıqla səhnəyə çıxaraq himnimizi oxuyublar.

# "Müsəlman Şərqində və Türk dünyasında birinci..."

## Cümhuriyyətin 100 illiyi və Respublika Günü münasibətilə Azərbaycan Respublikasının Prezidentinə ünvanlanan təbriklərdən sətirlər

"Milli bayramınız - Respublika Günü münasibətilə Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Birləşmiş Millətlər Təşkilatının zənginliyi onun üzvü olan ölkələrin müxtəlifliyindədir. Ölkələr "Biz - xalqlar" şüarı altında bir araya gələrək təşkilatın Nizamnaməsində təsbit olunmuş dəyərləri uca tutduqda bizim missiyamız daha da möhkəmlənir. Həm qlobal çağırışların geniş yayıldığı, həm də onların həlli üçün geniş imkanların mövcud olduğu bir dönəmdə həmin dəyərlər bizi birləşdirən etibarlı vasitədir.

Sizin bu milli bayramı qeyd etdiyiniz bir vaxtda mən daha effektiv Birləşmiş Millətlər Təşkilatının qurulması, eləcə də sülhün, davamlı inkişafın və insan hüquqlarının təmin olunması istiqamətində fəal iştirak etmək əzmində olduğumu bildirirəm".

**Antonio Quterreş**
***BMT-nin baş katibi***

"Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizi və Azərbaycan xalqını səmimi qəlbdən təbrik edirəm.

İslam Əməkdaşlıq Təşkilatı Azərbaycan Respublikası ilə sıx əlaqələri, ölkənizin İƏT-ə dəstəyini, təşkilatın yaradılmasının məqsədi olan İslam həmrəyliyinin təbliğində rolunu yüksək qiymətləndirir. Əmin ola bilərsiniz ki, İslam Əməkdaşlıq Təşkilatı üzv ölkələr arasında birgə dəyərləri təbliğ etmək, qarşılıqlı əməkdaşlığı gücləndirmək üçün səylərini bundan sonra da davam etdirəcək.

Əminəm ki, Zati-aliniz üzv ölkələrin xalqları arasında əməkdaşlığın və İslam həmrəyliyinin möhkəmləndirilməsinə dəstəyini və töhfələrini bundan sonra da əsirgəməyəcəkdir".

**Yusif bin Əhməd əl-Useymin**
***İslam Əməkdaşlıq Təşkilatının baş katibi***

"Azərbaycanın milli bayramı - Respublika Günü və Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə Zati-alinizi və qardaş Azərbaycan xalqını TÜRKSOY-un baş katibliyi, Türkdilli Ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Yüz il əvvəl mayın 28-də Azərbaycan xalqı müsəlman Şərqində və Türk dünyasında birinci olaraq demokratik inkişaf modelini seçmiş və ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətini qurmuşdur.

Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirmiş, Azərbaycanın müstəqillik və dövlətçilik tarixində müstəsna iz buraxmışdır.

Bu il 25 illiyini qeyd etdiyimiz Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı Zati-alinizin TÜRKSOY-a olan daimi dəstəyini və Azərbaycan ilə TÜRKSOY arasında qarşılıqlı mədəni əlaqələrin inkişafına göstərdiyi diqqəti yüksək qiymətləndirir".

**Düsen Kaseinov**
***TÜRKSOY-un baş katibi***

# Cümhuriyyət fəxr etdiyimiz bir çox uğurlara imza atıb

**Əlamətdar tarixlərlə zəngin olan bu il biz Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyini qeyd edirik. Dövlətçiliyimizin qurulmasında, milli kimliyin və milli maraqların formalaşmasında əvəzsiz rolu olan Xalq Cümhuriyyəti bizim bu günədək fəxr etdiyimiz saysız uğurlara imza atmışdır.**



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu sözləri əsrlik yubileyini təntənə ilə qeyd etdiyimiz Cümhuriyyətin tariximizdəki yerini və əhəmiyyətini bir daha diqqətə çatdırır.

Mehriban xanım Cümhuriyyətin ən böyük nailiyyətləri sırasında Azərbaycan dilində tədrisə başlanılması, Azərbaycanda ilk universitetin yaradılması, gənclərin xaricdə təhsilinə dəstək verilməsi kimi mühüm addımları xüsusi qeyd edir. Cümhuriyyətin Azərbaycan və ümumilikdə dünya tarixinə bəxş etdiyi nailiyyət və öz dövrü üçün müstəsna əhəmiyyətli yeniliklərdən biri də vətəndaşların hüquq bərabərliyinin təmin olunması, qadınlara səsvermə hüququnun verilməsi olub. Sitat: “Müsəlman dünyasında ilk parlamentar və dünyəvi respublika olan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay mövcud olmasına baxmayaraq, irqindən, etnik mənsubiyyətindən, dinindən, cinsindən və sosial statusundan asılı olmayaraq bütün vətəndaşlarının hüquqlarının bərabərliyinə hörmət prinsipinə əsaslanan müasir Azərbaycan dövlətçiliyinin demokratik ənənəsinin təməlini qoymuşdur. Hələ 1918-ci ildə Azərbaycan dünyada kişilərlə bərabər qadınlara siyasi hüquqlar verən, o cümlədən səsvermə hüququ verən ilk ölkələrdən biri olmuşdur”.

Həqiqətən də, Birinci Respublikamız tariximizə fəxarət dolu, öyrəniləsi, dünyaya tanıdılası bir çox səhifələr yazıb. Müasir dünyada qabaqcıl yer tutmaq istəyən dövlət özünün iqtisadi imkanları, siyasi gücü, hərbi qüdrəti ilə yanaşı, həm də tarixi-mədəni irsi ilə tanınmalıdır. Məmnunluqla qeyd edə bilərik ki, Azərbaycanın bu sahədə həm zəngin keçmişi, həm də çağdaş zamanla ayaqlaşan uğurları var.

Tanınmış polyak-amerikan tarixçisi, tariximizin tədqiqatçılarından Tadeuş Svetoxovski yazır: “Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının qəbul etdiyi Müəssislər Məclisi haqqında Qanun etnik azlıqların və siyasi qrupların proporsional təmsilçiliyini və ümumi seçki hüququnu nəzərə almaqla, faktiki olaraq Azərbaycanı müsəlman dünyasında qadınlara siyasi hüquqlar verən ilk dövlətə çevirdi”. Azərbaycan qadınları Avropanın bir çox ölkələrindən və Amerika Birləşmiş Ştatlarından daha əvvəl seçki hüququ əldə etdilər. Bir əsr öncə Azərbaycanda xanımlara cəmiyyətdə bərabər hüquqların tanınması tərəqqi simvolu olub və bu ənənə indi də davam edir.

Cümhuriyyətin varisi olan Azərbaycan Respublikasında bu gün xanımlar yüksək dövlət vəzifələri tutur, onlar Milli Məclisin deputatlarıdır, diplomat kimi xaricdə dövlətimizi təmsil edirlər, cəmiyyətdə aktiv mövqeləri ilə seçilirlər. Bu bir anlamda yüz il əvvəl Cümhuriyyətin imza atdığı tarixi yeniliyin - qadınlara azadlıq, seçim və təşəbbüskarlıq imkanının yaradılmasının məntiqi nəticəsidir.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın çoxsahəli fəaliyyəti bunun parlaq nümunəsidir. Mehriban xanım Əliyeva 2004-cü ildə təsis edilmiş Heydər Əliyev Fondunun prezidenti kimi cəmiyyətdə mədəni və iqtisadi inkişafa, xüsusən gənc qadınların rolunun artırılmasına böyük töhfə verir, ölkəmizin tarixi-mədəni irsinin təbliğində müstəsna xidmətlər göstərir.

Mehriban xanımın 2004-cü ildə UNESCO-nun xoşməramlı səfiri adına layiq görülməsi Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələrinin dünyada tanıdılmasına yeni üfüqlər açdı. 2007-ci ildə Qobustan qayaüstü rəsmləri, 2009-cu ildə Azərbaycanın aşıq sənəti və ölkəmizin yaxından iştirakı ilə beynəlxalq nominasiya kimi təqdim olunan Novruz bayramı, 2010-cu ildə xalça sənətimiz, 2012-ci ildə tar ifaçılığı, 2013-cü ildə Qarabağ atları üzərində çövkən milli oyunu, 2014-cü ildə kəlağayı sənəti, 2015-ci ildə Lahıc misgərlik sənəti, 2016-cı ildə ölkəmizin Türkiyə, İran, Qazaxıstan və Qırğızıstanla birgə təqdim etdiyi lavaş - nazik çörəyin hazırlanma və paylaşma mədəniyyəti, 2017-ci ildə milli mətbəximizin nümunəsi olan dolmanın hazırlanma və paylaşma ənənəsi, habelə kamança musiqi alətinin hazırlanması və ifaçılıq sənəti UNESCO-nun müvafiq siyahılarına salındı. Bu irs nümunələri ilə bağlı fayllar Azərbaycanın birinci xanımının dəstəyi, Mədəniyyət Nazirliyinin, digər qurumların birgə əməkdaşlığı ilə hazırlanaraq UNESCO səviyyəsində dəstək qazandı.

Mehriban xanımın rəhbərliyi ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi mühüm fəaliyyət sahələrindən biri də tariximizi, Azərbaycan həqiqətlərini, zəngin mədəni irsimizi, vətənimizin təbii gözəlliklərini, müasir inkişaf səviyyəsini dünyaya tanıdan dəyərli nəşrlərin ərsəyə gətirilməsidir. Azərbaycanın zəngin mədəni irsinin dünya miqyasında layiqincə təqdim olunması, tanıdılması isə nəticə etibarilə ölkəmizin təbliği, onun beynəlxalq nüfuzunun yüksəlməsi deməkdir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Vətənə xidmət fəlsəfəsinin təməlində xalqına böyük sevgi, hər bir vətəndaşa həssas və qayğıkeş münasibət dayanır. “Həyatda hər kəsin yerini və taleyini tarix müəyyən edir, odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir...” - bu sözlərin müəllifi elə bu amal və məramla da özünün ömür kitabını ildən-ilə daha parlaq səhifələrlə zənginləşdirir. Onun təşəbbüsü, dəstəyi ilə reallaşan çoxsaylı layihələr təkcə ölkə daxilində deyil, bütün dünyada böyük rəğbətlə qarşılanır. Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun mədəniyyətimizlə, incəsənətimizlə bağlı layihələri mənəvi, tarixi, mədəni irsimizin qorunması işində müstəsna rola malikdir. Azərbaycanın birinci xanımı ölkəmizdəki qədim tarixi abidə və ziyarətgahların, məscid və ibadətgahların bərpası və yenidən qurulmasına hər zaman xüsusi diqqət ayırır. Müstəqillik tariximizin əlamətdar hadisələrinin - ölkəmizin böyük uğurla ev sahibliyi etdiyi “Eurovision-2012” müsabiqəsinin, I Avropa Oyunlarının, eləcə də IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat komitələrinin sədri kimi fəaliyyəti onun yüksək təşkilatçılıq qabiliyyətini bir daha təsdiqlədi.

Bu gün Azərbaycan paytaxtının 2025-ci ildə keçiriləcək Dünya Sərgisinə ev sahibliyi etməsi üçün genişmiqyaslı və çox fəal iş aparılır. “Bakı 2025” Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva bununla bağlı deyib: “Avropa və Asiyanın qovuşuğunda yerləşən Azərbaycan Şərq ilə Qərb, Şimal ilə Cənub arasında ticari, siyasi və mədəni körpü rolunu oynayır. Bu gün Azərbaycan dünyada mədəniyyətlərarası və dinlərarası dialoq mərkəzlərindən biri hesab olunur.

Azərbaycan yüksələn xətlə inkişaf edən dövlətdir və indi ölkəmizin iddiası 2025-ci ildə Dünya Sərgisinə ev sahibliyi etmək və bütün dünyanı qəbul etmək hüququnu qazanmaqdır. Bu sərgi yeni bölgədə, yeni dövrdə yeni bir tarix yazmaq imkanı yaradacaq. Təklifimiz uğurlu olarsa, Bakı bütün Şərqi Avropa, Qafqaz və Xəzər hövzəsi regionunda Dünya Sərgisinə ev sahibliyi edəcək ilk şəhər olacaq”.

Yüz il əvvəl İslam aləmindən dünyaya Cümhuriyyət bəxş edən Azərbaycan yenə bir tarixi ilkə imza atmaq əzmindədir.

# Cümhuriyyətin diplomatik irsinin öyrənilməsi üçün dəyərli mənbə



**Azərbaycanda cəmiyyət və dövlət quruculuğunun fəlsəfi dərkini sanballı əsərləri ilə əks etdirən görkəmli elm xadimi, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev öz fəlsəfi tədqiqatlarını dərin tarixi araşdırmalarla zənginləşdirir. Akademik Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin tarixi, tariximizin Səfəvilər dövrü, Şah İsmayıl Xətai, Nadir şah haqqında sanballı monoqrafik tədqiqatların müəllifidir.**




Filosof alim "Milli ideyanın formalaşmasında tarixin dərk edilməsinin faydası" adlı kitabında yazır: "Tarix - nümunələrin köməyi ilə öyrədən fəlsəfədir. Nümunə gücünün gündəlik təsirini görmək üçün ətraf aləmə nəzər salmaq kifayətdir. Nümunənin nə üçün belə güclü olmasını aşkar etmək üçün daxilə baxmaq lazımdır".

Akademik Ramiz Mehdiyevin ön söz müəllifi və elmi redaktoru olduğu "ADR-İran diplomatik münasibətləri Qafqaz Fövqəladə Komissiyasının sənədləri işığında (1919-1920-ci illər)" kitabı da məhz fakt və sənədlərin vasitəsilə Cümhuriyyət tarixinin mühüm sahəsinə işıq salır. Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətində keçirilən təqdimatda da xüsusi vurğulandığı kimi, kitab tariximizin milli əsaslar və müstəqil dövlətçilik maraqları baxımından yenidən öyrənilməsi zərurətini meydana qoyan qiymətli əsərdir. Nəşrdə ilk dəfə Cümhuriyyət tarixi yazılı mənbələr əsasında sistemli şəkildə sanballı müqəddimə ilə Azərbaycan cəmiyyətinə, geniş oxucu kütləsinə, akademik auditoriyaya təqdim edilir.

Akademiyanın prezidenti Akif Əlizadə, AMEA-nın vitse-prezidenti İsa Həbibbəyli və digər çıxış edənlər Prezident İlham Əliyevin Cümhuriyyətin 100 illik yubileyi ilə bağlı sərəncamına əsasən nəşr olunmuş kitabı yubileyə dəyərli töhfə və Cümhuriyyətin diplomatik yazışmalarının öyrənilməsi baxımından zəngin mənbə adlandırıblar.

Akademik Ramiz Mehdiyev nəşrin ön sözündə yazır: "Elan edildiyi andan, yeni 1918-ci il mayın 28-dən süquta uğradığı 1920-ci il aprelin 28-dək Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq aləmdə tanınmaq uğrunda çətin diplomatik mübarizəyə qatılıb. Üzləşdiyi bütün ədalətsizlik və yaradılan süni maneələrə baxmayaraq, müstəsna tarixi əhəmiyyətə malik siyasi nailiyyətlər qazanmağı bacarıb. Məhz həmin diplomatik qələbələrin doğurduğu beynəlxalq tanınmanın nəticəsidir ki, Azərbaycan SSRİ tərkibinə vilayət, muxtar qurum kimi deyil, ayrıca müstəqil respublika kimi daxil olub, 70 illik sovet istilası dövründə formal olsa da, öz dövlətçilik atributlarını qoruyub saxlaya bilib".

Kitabda toplanan 98 sənəd Azərbaycan cəmiyyətinə ilk dəfə təqdim edilir. Nəşrdə yer alan sənədlər Cümhuriyyətin irsi prizmasından azərbaycançılıq fəlsəfəsinin yenidən müstəqillik şəraitində öyrənilməsi baxımından çox mühüm məxəzlərdir. Akademik Ramiz Mehdiyev ön sözdə və şərhlərində Cümhuriyyət rəhbərlərinin dövlətin adının Azərbaycan olması uğrunda mübarizəsini faktlar və sitatlarla diqqətə çatdırır, Cümhuriyyətin Azərbaycan dövlətçiliyindəki roluna yenidən qiymət verilir.

Bir məqam xüsusi vurğulanır ki, əgər 1918-ci ildə Cümhuriyyət qalib gəlməsəydi, həmin sənədlər olmasaydı, Azərbaycan SSRİ tərkibində öz sərhədlərini qoruyub saxlamaqla təsbit oluna bilməzdi. Bu, gələcək tədqiqatçılara da dövlətçilik tariximizi möhkəm elmi əsaslarla öyrənməyə kömək edə bilər.

Kitabdakı mühüm məsələlərdən biri də Cümhuriyyətin digər rəhbərlərinin fəaliyyətinin yeni səhifələrinin bu yazışmalar çərçivəsində öyrənilməsi və üzə çıxarılmasıdır. Nəşrdə Məhəmməd Əmin Rəsulzadənin maraqlı məqalələrinin şərhləri, habelə Fətəli xan Xoyskinin, Adil xan Ziyadxanovun, Mehdi bəy Hacınskinin, Həsən bəy Ağayevin tərcümeyi-halı, fəaliyyəti, mübarizəsi ilə bağlı yeni faktlar təqdim olunur.

"Kitab Cümhuriyyət tarixinin elmi əsaslarla yanaşı, müasirlik, dövlətçilik işığında öyrənilməsi üçün bələdçi rolunu oynayacaq", - deyə akademik İ.Həbibbəyli vurğulayıb.



# 98 il öncə Parlamentdən götürülən bayraq

## Uzun "mühacirət həyatı"ndan sonra Vətənə qaytarılıb

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin binasında asılan və milli dövlətin süqut etdiyi 27 aprel 1920-ci il tarixindən sonra oradan götürülən üçrəngli dövlət bayrağımız uzun bir tarixi yolçuluqdan sonra Vətənə qayıdıb. Cümhuriyyətin tanınmış simalarından olan Mirzəbala Məmmədzadə həmin bayrağı qoruyub saxlamış, daha sonra özü ilə mühacirətə aparmışdı. M.Məmmədzadə 1923-cü ilədək Bakıda gizli fəaliyyət göstərib, sonra İrana, oradan Türkiyəyə mühacirət edib, M.Ə.Rəsulzadənin ən yaxın silahdaşı, onun vəfatından sonra isə Azərbaycan milli hərəkatının rəhbəri olub.

Cümhuriyyətin yadigarı olan bayraq mayın 24-də Nazirlər Kabinetində Baş nazir Novruz Məmmədova təqdim olunub. Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Novruz Məmmədov Prezident İlham Əliyevin sərəncamı ilə 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunduğunu diqqətə çatdırıb, dövlət bayrağının belə bir əlamətdar vaxtda Türkiyədən doğma Vətənə - Azərbaycana gətirilməsini mühüm hadisə adlandırıb.

Baş nazir deyib ki, bolşevik işğalı nəticəsində ölkəni tərk etmək məcburiyyətində qalan Cümhuriyyət nümayəndələrinin əksəriyyəti Türkiyəyə mühacirət edib. İctimai xadim Mirzəbala Məmmədzadə də onlardan biri idi. O, mühacir həyatı yaşadığı ölkələrdə - İranda, Türkiyədə, Polşada və Almaniyada bu bayrağı göz bəbəyi kimi qoruyub saxlamışdı. Onun varisi bu bayrağın İstanbul Universitetində təhsil alan və Cümhuriyyətlə bağlı tədqiqat aparan Əfqan Vəliyevə verilməsini və Azərbaycana qaytarılmasını vəsiyyət etmişdi.

"Xalq Cümhuriyyətinin varisi olan bugünkü müstəqil Azərbaycanın Prezidenti o dövrlə bağlı bütün tarixi hadisələrə həssas yanaşır", - deyən Baş nazir Novruz Məmmədov bu barədə Prezident İlham Əliyevə məruzə edildiyini və dövlətimizin başçısının tapşırığı ilə həmin bayrağın ölkəyə gətirildiyini bildirib.

Dövlət bayrağının Azərbaycana gətirilməsində göstərdiyi xidmətlərə görə sosiologiya elmləri doktoru Əfqan Vəliyevə dövlətimizin başçısı adından təşəkkürünü bildirən Novruz Məmmədov qeyd edib ki, yeni arxiv sənədləri bu sahə ilə məşğul olan alimlərə, tədqiqatçılara əlavə imkanlar açacaq.

Yazıçı-tədqiqatçı Əfqan Vəliyev Cümhuriyyət Parlamentində asılan bayraqla bərabər, həmin dövrə aid bir sıra arxiv materialları - əlyazma məktubları, tarixi sənədləri, xəritələri də Baş nazirə təqdim edib.

# Tariximizin fəxarət ünvanı

## İstiqlal Muzeyində "Cümhuriyyət" zalı və Qafqaz İslam Ordusuna həsr olunan sərgi açılıb



**Prezident İlham Əliyevin Cümhuriyyətin 100 illik yubileyinin keçirilməsi haqqında və 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi barədə sərəncamlarının icrası ilə bağlı Mədəniyyət Nazirliyi tərəfindən müvafiq tədbirlər planı həyata keçirilməkdədir. Azərbaycan İstiqlal Muzeyində "Cümhuriyyət" zalının açılışı da bu silsilədəndir.**

Muzeyin direktoru Fəridə Şəmsi çıxış edərək sərginin Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi haqqında və 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi barədə sərəncamlarına əsasən təşkil edildiyini bildirdi. Qeyd olundu ki, muzeydə "Cümhuriyyət" zalının yaradılması ziyarətçilərin Cümhuriyyətin tarixinə daha yaxından bələd olmasına imkan qazandıracaq.

Zalda Cümhuriyyətin fəaliyyətini əks etdirən 70-dən artıq foto, sənədli materiallar və Cümhuriyyət məfkurəsinin banisi, böyük mütəfəkkir Əli bəy Hüseynzadənin muzeyə hədiyyə olunmuş şəxsi əşyaları nümayiş etdirilir. Rəssam Elşən Hacıyevin muzeyə bağışladığı "Həsrət üzərində elegiya" triptixi də ilk dəfə sərgilənir.




Tədbirdə çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev sərgini Azərbaycan və Türkiyə qardaşlığının gözəl nümunəsi kimi dəyərləndirdi. Cümhuriyyətin 100 illiyinin ölkəmizdə çoxsaylı tədbirlərlə qeyd olunduğunu diqqətə çatdıran nazir çox qısa müddət fəaliyyət göstərən ilk respublikamızın bizə böyük miras bəxş etdiyini dedi: "Azərbaycanda ilk dövlət universitetinin, ilk muzeyin yaradılması, həmçinin qadınlara səsvermə hüququnun verilməsi də Cümhuriyyətin xalqımıza dəyərli töhfələridir. Bundan əlavə, teatr, musiqi, ədəbiyyat, yaradıcı mühitin inkişafı - Cümhuriyyətin böyük fədailəri tərəfindən irəli sürülən bütün bu təşəbbüslər müasir Azərbaycanın tarixində də müstəsna rol oynayır".

Nazir üçrəngli bayrağımızın ideya müəllifi, böyük türkçü Əli bəy Hüseynzadənin Türkiyə və Azərbaycan tarixində öz xidmətləri ilə seçilən şəxsiyyətlərdən olduğunu vurğuladı.

Qafqaz İslam Ordusunun tariximizdə oynadığı roldan söz açan Əbülfəs Qarayev qeyd etdi ki, o dövrdə bu ordu Azərbaycana gəlməsəydi, xalqımız daha çox itkilərə məruz qalacaqdı. Qafqaz İslam Ordusunun əks olunduğu 40-dan artıq fotonun burada nümayişi həmin dövrün reallıqlarını bizə bəyan edir.

Nazir çıxışının sonunda sərginin təşkilində əməyi olan hər kəsə təşəkkürünü bildirdi.

Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral bildirdi ki, Osmanlı dövləti 1918-ci ildə ölüm-qalım mücadiləsində olsa da, azərbaycanlı qardaşlarından gələn yardım çağırışını geri çevirmədi: "Qafqaz İslam Ordusu Bakını işğaldan azad etməklə ən böyük zəfərini qazandı. Bu zəfər Azərbaycanın azadlığının, bugünkü sərhədlərinə qovuşmasının yolunu açdı. Bu gün Azərbaycanın bir sıra bölgəsində şəhidliyimiz var".

Sonra qonaqlar sərgi ilə maraqla tanış oldular.

## Cümhuriyyət tarixi haqqında "açıq dərs"

F.Köçərli adına Respublika Uşaq Kitabxanası Bakı şəhəri N.Tusi adına 173 saylı orta məktəblə birgə Cümhuriyyətin yubileyinə həsr olunmuş "Açıq dərs - açıq fikir" adlı tədbir keçirib.

Tədbir məktəbin foyesində şagirdlərin Cümhuriyyət dövrü ədiblərinin obrazlarında onların fikirlərini səsləndirməsi, hazırladıqları "Cümhuriyyətin 100 illik işığında" adlı videoslaydın nümayişi ilə başlayıb. Məktəbin 2-ci sinif şagirdləri "Cümhuriyyət nəğməsi"ni ifa ediblər.

Sonra "açıq dərs" başlayıb. Məktəbin direktoru Sitarə Abbasova bildirib ki, layihə ilk dəfə olaraq yuxarı sinif şagirdləri ilə keçirilir. Tarix müəllimi Vəli Hüseynlinin keçdiyi Cümhuriyyət dövrü tarixinə dair "açıq dərs"i AMEA-nın Tarix İnstitutunun əməkdaşı, tarix elmləri doktoru Tofiq Nəcəfli, Yasamal Rayon İcra Hakimiyyəti başçısının müavini Təravət Muradova, BDU-nun müəllimi, tarix elmləri namizədi Rafiq Qurbanov, Bakı şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov, Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova, direktor müavini Zahirə Dadaşova və başqa qonaqlar izləyiblər.

Münsiflərin-qonaqların qərarı ilə dərsdə fəal iştirak edən 7 şagird diploma layiq görülüb.



**Milli İncəsənət Muzeyində "İrs. Azərbaycan Xalq Cümhuriyyəti - 100" adlı sərgi keçirildi.**

# Cümhuriyyət irsindən bəhs edən sərgi

## "Azərbaycançılıq məfkurəsi rəssamlarımızın yaradıcılığında məxsusi yer tutub"



Tədbirdə çıxış edən mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev Prezident İlham Əliyevin sərəncamı ilə Cümhuriyyətin 100 illiyinin müxtəlif tədbirlərlə qeyd olunduğunu diqqətə çatdırdı. Bildirdi ki, biz bu tarixlə qürur duyuruq: "Müsəlman Şərqində ilk parlamentli respublika olan Xalq Cümhuriyyəti 23 ay yaşasa da, bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də mühüm addımlar atıb. Dövlətçilik ənənələrinin bərpasında Cümhuriyyətin gördüyü işlər əvəzolunmazdır. Bütün təzyiqlərə baxmayaraq, ilk respublikamız çox ağır bir dövrdə yarandı və özünü təsdiq edə bildi".

Vaqif Əliyev qeyd etdi ki, Bakı Dövlət Universitetinin yaradılması, dövlət dili haqqında qanun, qadınlara səsvermə hüququnun verilməsi, beynəlxalq əlaqələrin qurulması kimi vacib məqamlar Cümhuriyyətin tariximizə yazılan qiymətli salnamələridir. Vurğulandı ki, Cümhuriyyətdən sonrakı dövrdə də Azərbaycan xalqının mədəni dəyərləri zənginləşib: "Təsviri sənətimizin görkəmli simaları Əzim Əzimzadə, Mikayıl Abdullayev, Böyükağa Mirzəzadə, Toğrul Nərimanbəyov, Səttar Bəhlulzadə, Maral Rəhmanzadə, Xalidə Səfərova, Cavad Mircavadov, Fuad Əbdürrəhmanov, Cəlal Qaryağdı, Tahir Salahov və başqa rəssamların yaradıcılığı məhz XX yüzillikdə formalaşaraq ölkəmizi dünyaya tanıdıb. Xalq Cümhuriyyətinin müstəqillik, azadlıq ideyalarının, azərbaycançılıq məfkurəsinin təbliği hər zaman rəssamların yaradıcılığında özünəməxsus yer tutub. Bu gün təşkil edilən sərgidə milli ruhun tərənnüm olunduğu əsərləri görürük. Hazırda dövlətimiz mədəniyyətin bütün sahələrinə çox böyük diqqət yetirir, həmçinin mütəmadi olaraq dünyanın nüfuzlu sərgi salonlarında rəssamlarımızın fərdi sərgiləri təşkil edilir".

Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov, "Yeni Gallery" Bakı İncəsənət Mərkəzinin rəhbəri Rafael Gülməmmədov sərginin əhəmiyyəti barədə fikirlərini bölüşdülər. Bildirildi ki, bu gün rəssamlar üçün hər cür şərait yaradılıb. Sovetlər dövründə beynəlxalq sərgilərdə rəssamlarımız sovet rəssamı, böyük ölkənin vətəndaşı kimi tanıdılırdı. Bu gün isə sənətkarlarımız Azərbaycan ünvanı ilə çıxış edirlər.



Daha sonra tədbir iştirakçıları sərgi ilə tanış oldular.

Sərgidə Milli İncəsənət Muzeyinin və Azərbaycan Dövlət Rəsm Qalereyasının fondlarından, rəssamların şəxsi kolleksiyalarından seçilmiş əsərlər, Bakı İncəsənət Mərkəzinin təqdimatında əsas etibarilə Cümhuriyyət tarixini əks etdirən foto və sənədlər, o cümlədən hüquqşünas Rəşid Rzayevin şəxsi kolleksiyasından 1919-1920-ci illərə aid əsginaslar və poçt markaları nümayiş olunur. Eksponatlar arasında Cümhuriyyətin xəritələri xüsusi yer tutur. Onların sırasında Paris Sülh Konfransına təqdim edilmiş, habelə Cümhuriyyətin sərhədlərini əks etdirən siyasi xəritələr də var.

# "Nuri-didə Ceyhun"

## Cümhuriyyətin 100 illiyi şərəfinə



Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə Azərbaycan Dövlət Musiqili Teatrında 108-ci mövsümün möhtəşəm premyerası təqdim olunub.

İdeya müəllifi Musiqili Teatrın direktoru Əliqismət Lalayev və quruluşçu rejissoru Mehriban Ələkbərzadə olan tamaşa yazıçı-dramaturq Əli Əmirlinin "Nuri-didə Ceyhun" pyesi əsasında hazırlanıb.

Azərbaycan səhnəsində ilk dəfə dahi bəstəkar Üzeyir Hacıbəylinin qardaşı, yazıçı-publisist, tərcüməçi, naşir Ceyhun Hacıbəylinin obrazının canlandırıldığı tamaşa onun məşəqqətli mühacirət həyatından, Cümhuriyyətimizin keçdiyi çətin, lakin şərəfli mübarizə yolundan bəhs edir. Pyesdə hadisələr konkret bir tarixi şəxsiyyət ətrafında cərəyan etsə də, qürbət eldə yaşayan bütün mühacir soydaşlarımızın ümumiləşdirilmiş obrazı səhnəyə gətirilir.

Rolları Pərviz Məmmədrzayev, Nəsibə Eldarova, Şövqi Hüseynov, Elçin İmanov, Gülnarə Abdullayeva, Ülviyyə Əliyeva, Nicat Əli, Gülçöhrə Abdullayeva, Nadir Xasıyev, Firuz Məmmədov, Şaban Cəfərov, Mehriban Zalıyeva və 14 yaşlı Hüseyn Nağıyev oynayıb. Tamaşada Üzeyir Hacıbəyli, Soltan Hacıbəyov, Niyazi və başqa bəstəkarların əsərlərindən istifadə olunub. Tamaşanın quruluşçu dirijoru və musiqi tərtibatçısı Fəxrəddin Atayev, quruluşçu rəssamı Vüsal Rəhim, quruluşçu baletmeysterləri Zakir Ağayev və Yelena Ağayeva, xormeysteri Vaqif Məstanovdur.

# İstiqlalımızın yubiley ilində “İslam mədəniyyətinin paytaxtı”

**Azərbaycan Xalq Cümhuriyyətinin qısa tarixi dövlətin ərazi bütövlüyünün təmin olunması uğrunda mübarizədə keçib. Bu mübarizənin ən şanlı səhifələrindən biri əzəli yurd yerimiz, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanla bağlıdır.**

O dövrün mürəkkəb hərbi-siyasi vəziyyətində, gənc dövlətin ordusunun Qarabağda, Zəngəzurda erməni silahlı dəstələri ilə savaşda olduğu bir şəraitdə Cümhuriyyət hökumətinin Naxçıvana kömək əli çatmırdı. Belə bir şəraitdə 1918-ci ilin noyabrında yerli əhali bölgədəki Osmanlı qüvvələrinin də dəstəyi ilə müvəqqəti Araz-Türk Respublikasının yarandığını elan etdi. 1919-cu ilin martınadək mövcud olan dövlət qurumu ermənilərin bölgəyə iddialarının dəf edilməsində, Naxçıvanın daha sonra Azərbaycanın tərkib hissəsi kimi qalmasında mühüm rol oynadı. Cümhuriyyət hökumətinin qərarı ilə 1919-cu ilin yazında Qarabağ general-qubernatorluğu nəzdində Naxçıvan üzrə xüsusi müvəkkillik yaradıldı, bölgəyə 1 milyon manat məbləğində yardım ayrıldı. Ermənilərin Naxçıvana iddiaları Cümhuriyyətin süqutundan sonra davam etsə də, bu dəfə Türkiyənin dəstəyi ilə 1921-ci ilin Moskva və Qars müqavilələrinə uyğun olaraq Naxçıvanın Azərbaycanın tərkib hissəsi olduğu birmənalı şəkildə təsbit edildi.

Cümhuriyyətin 100 illiyini qeyd etdiyimiz bir vaxtda dövlətçilik tariximizin Naxçıvanla bağlı səhifələri də



bir daha vərəqlənir. Xalq Cümhuriyyətinin yubileyi Naxçıvan Muxtar Respublikasında müxtəlif tədbirlərlə qeyd olunur. Bu il Naxçıvan üçün tarixi baxımdan ikiqat əlamətdardır. Azərbaycanın qədim yurd yeri 2018-ci ildə “İslam mədəniyyətinin paytaxtı”dır.

İyunun 20-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında “Naxçıvan İslam mədəniyyətinin paytaxtı 2018” ilinin təntənəli açılış mərasimi keçirilib. Mərasimdə İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESCO) baş direktoru Əbdüləziz Osman əl-Tüveycri, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev, Əlcəzair, Qvineya Respublikası, İndoneziya, Tacikistan və Özbəkistan nazirləri, digər müsəlman ölkələrin nümayəndələri, TÜRKSOY-un baş katibi Düsen Kaseinov və digər qonaqlar iştirak ediblər.

Muxtar respublika Ali Məclisinin sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün “İslam mədəniyyətinin paytaxtı” elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri Vasif Talıbov qonaqları salamlayaraq qeyd edib ki, Naxçıvan tarixən təktanrıçılığın mərkəzlərindən biri olub və İslam tarixinə, mədəni irsinə də öz töhfələrini verib. Naxçıvan şəhərində zəngin tarixi-mədəni irs formalaşıb. Qədim türbələr, məscidlər və digər abidələr bu torpaqda yaradılmış çoxsaylı türk-islam mədəniyyətinin dövrümüzə qədər gəlib çatmış nümunələridir.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının mədəniyyət naziri, “Naxçıvan İslam mədəniyyətinin paytaxtı 2018” Təşkilat Komitəsinin sədr müavini Əbülfəs Qarayev vurğulayıb ki, Naxçıvan mədəniyyəti, tarixi ilə Azərbaycan xalqının qədim sivilizasiyasının beşiklərindən biri olduğunu nümayiş etdirir. Bu torpaqda 1000-dən çox tarixi abidənin mövcudluğu və onlardan 60-a yaxınının dünya əhəmiyyətli olması özlüyündə Naxçıvanın qədim tarixinin göstəricisidir. “Əshabi-Kəhf” ziyarətgahı, Gəmiqaya rəsmləri, Naxçıvanqala, Gülüstan, Qarabağlar, Yusif Küseyiroğlu, Möminə xatın türbələri, Əlincəqala və digər abidələrin xüsusi bir özəlliyi ondadır ki, bu tarixi irs nümunələri həm maddi-mənəvi baxımdan, həm də dini inanc baxımından müqəddəs dəyərlərlə bağlıdır.

Qonaqlar “İslam mədəniyyətinin paytaxtı”nın tarixi irs məkanları, görməli yerləri ilə tanış olublar.

# İki respublikanın 100 illiyinə sənət töhfəsi

## Latviyalı rəssamın Bakıda sərgisi



Muzey Mərkəzində latviyalı rəssam Datse Ştrausanın “Canlı irs” adlı rəngkarlıq sərgisi keçirilib. Mədəniyyət Nazirliyi, Latviyanın ölkəmizdəki səfirliyi və “AGA Group”un təşkilatçılığı ilə ərsəyə gələn sərgi Azərbaycan Xalq Cümhuriyyətinin və Latviya Respublikasının yaranmasının 100 illiyinə həsr olunub. Sərginin digər özəlliyi nümayiş olunan rəsmlərin hamısında Qarabağ atlarının təsvir edilməsidir.

Tədbiri giriş sözü ilə Latviyanın Azərbaycandakı səfiri Yuris Maklakovs açaraq sərginin hər iki ölkənin müstəqilliyinin 100 illiyinə təsadüf etməsinin əlamətdar hadisə olduğunu deyib: “Mən çox şadam ki, bu hadisə iki ölkə arasında münasibətlərin möhkəmləndirilməsi üçün keçirilən mərasimlərin bir hissəsidir”.

Mədəniyyət Nazirliyinin şöbə müdiri Vasif Eyvazzadə tədbirin əhəmiyyətindən bəhs edərək sərginin hər iki ölkə arasında mədəni münasibətlərin inkişafına töhfə olduğunu bildirib.

Xanım Datse Ştrausa da çıxış edərək fikirlərini bölüşüb. O, iki ildir Azərbaycanda yaşadığını və Qarabağ atlarına heyran olduğunu deyib. Rəssamın sözlərinə görə, 29 tablonun təqdim olunduğu sərgi onun atlara olan sevgisindən yaranıb.

Sərgidə nümayiş olunan “Qarabağ əfsanələri”, “Günəşin toxunuşu”, “Küləklər vadisi”, “Gümüşü işığın parıltısı” və digər rəsmlər maraqla qarşılanıb.

## “Azərbaycanım” uşaq rəsm festivalı



Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət Rəsm Qalereyası, Təhsil Nazirliyinin Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi, Rəssamlar İttifaqı və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə gerçəkləşən “Azərbaycanım” uşaq rəsm festivalı Cümhuriyyətin yubileyinə daha bir sənət töhfəsi olub.

Festival çərçivəsində təşkil olunan rəsm müsabiqəsinə 15 yaşa qədər uşaqların 800-ə yaxın əl işi təqdim edilib. Onların içərisindən seçilən 35 uşaq festivalın yekun mərhələsində iştirak imkanı qazanıb. Finalçılar öncə açıq havada sərbəst mövzuda rəsmlər çəkiblər, sonra onların əl işlərinin sərgisi keçirilib. I, II və III yerləri qazananlar diplom və mükafatlarla təltif edilib.

# Cümhuriyyətin tarixi və simaları ekranda

**Xalq Cümhuriyyətinin tarixi və görkəmli simalarının obrazları hələ sovet dövründə istehsal edilən ekran əsərlərimizdə yer alsa da, məlum ideoloji-siyasi tələblərə görə əsasən neqativ çalarlarda təqdim edilib. O dövrün reallıqları və şəxsiyyətləri gerçək bədii təqdimatda yalnız Azərbaycan müstəqilliyini bərpa edəndən sonra ekranlara çıxdı. Bu baxımdan son illərin ekran əsərlərini - Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın prodüseri olduğu “Əli və Nino” tammetrajlı filmi (2015) və Bakı Media Mərkəzinin ərsəyə gətirdiyi “Əbədi ezamiyyət” (2016) və “Son iclas” (2018) sənədli-bədii filmlərini xüsusi qeyd etmək lazımdır.**







Qurban Səidin məşhur romanı əsasında çəkilən “Əli və Nino” filmində məhəbbət hekayəsi fonunda Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizədən bəhs edilir. Filmdə Cümhuriyyətin ilk baş naziri Fətəli xan Xoyskinin obrazı da yer alıb. Bu rolu məşhur türk aktyoru Halit Ərgənc oynayıb.

Heydər Əliyev Fondunun dəstəyi ilə Bakı Media Mərkəzi tərəfindən hazırlanan “Əbədi ezamiyyət” sənədli-bədii filmi 1919-cu ilin yanvarında Cümhuriyyət Parlamentinin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Paris Sülh Konfransına ezam edilən və bir daha vətənə dönə bilməyən nümayəndə heyətinin taleyindən bəhs edir. Filmin baş prodüseri Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyevadır. Ssenari müəllifi Müsəllim Həsənov, rejissorları Vüqar İslamzadə və Fariz Əhmədov, operatorları Rəşad Nuriyev və Camal Atakişiyev, prodüseri Orman Əliyev olan ekran əsərində Məmməd Məhərrəmov, Əkbər ağa Şeyxülislamov, Miryaqub Mirmehdiyev, Abbas bəy Atamalıbəyov və başqa cümhuriyyətçilərin obrazları canlandırılıb.

* * *

Bakı Media Mərkəzi Cümhuriyyətin 100 illiyinə töhfə olaraq “Son iclas” bədii-sənədli filmini ərsəyə gətirib. Film milli hökumətin süqutuna işıq salır və Cümhuriyyət Parlamentinin son iclasında bu acı qərarın hansı çətin şəraitdə verildiyini əks etdirir. Ekran əsəri Heydər Əliyev Fondunun dəstəyi və "BP Azərbaycan" şirkətinin sponsorluğu ilə hazırlanıb.

Heydər Əliyev Mərkəzində keçirilən təqdimat mərasimində çıxış edən Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva bildirib ki, Xalq Cümhuriyyətinin ömrü cəmi iki ilə yaxın olsa da, bu dövr ölkəmizin tarixinin ən şərəfli səhifələrindən biridir: “Bu gün biz müstəqil, güclü, inkişaf edən, dünya arenasında öz sözünü deyən Azərbaycanda yaşayırıq. Mən əminəm ki, Cümhuriyyətin yaradıcıları bugünkü Azərbaycanla qürur duyardılar”.

BP-nin Azərbaycan, Gürcüstan, Türkiyə üzrə regional prezidenti Qəri Counz vurğulayıb ki, şirkət Azərbaycanın tərəfdaşı kimi ölkənin zəngin mədəni irsini və dəyərlərini təbliğ edən təşəbbüsləri həmişə dəstəkləyib və belə bir filmin sponsoru olmaqdan şərəf hissi duyur.

Sonra "Son iclas" filminin təqdimatı olub. Ssenari müəllifi Müsəllim Həsənov, quruluşçu rejissoru Fuad Əlişov, quruluşçu operatoru Rəşad Nuriyev, quruluşçu rəssamı Şahin Həsənli olan filmin çəkilişləri Bakıda, bölgələrdə, tarixi hadisələrin yaşandığı ərazilərdə lentə alınıb. Filmdə 50-dən çox peşəkar aktyor çəkilib, kütləvi səhnələrdə 500-ə yaxın insan iştirak edib.

Ekran əsərində Cümhuriyyət qurucularının müstəqilliyimizin düşmənlərinə qarşı son anadək apardıqları qeyri-bərabər, ümidsiz, lakin qətiyyətli mübarizə əks olunur. Bu mübarizə faciə ilə başa çatsa da, istiqlal tariximizin Azərbaycanın yenidən müstəqilliyə qovuşmasına örnək olduğu ön plana çəkilir.

* * *

Cümhuriyyətin 100 illiyi münasibətilə çəkilən daha iki sənədli film isə 1919-cu ildə təhsil almaq üçün xaricə göndərilən azərbaycanlı tələbələr haqqındadır.

Nizami Kino Mərkəzində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə təqdim edilən “Cümhuriyyət tələbələri” sənədli filmi “Salnamə” studiyasında ərsəyə gəlib. Filmin ssenari müəllifi Dilqəm Əhməd və Tahir Əliyev, rejissoru Tahir Əliyev, operatoru Əminə Həsənli, bəstəkarı Azər Hacıəsgərli, baş məsləhətçisi Ramiz Abutalıbov, prodüseri Nazim Hüseynovdur.

“Birinci dubldan” sənədli filminin baş prodüseri Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, ssenari müəllifi və rejissoru Oleq Şommerdir.



* * *

Sovet dövrü kinosunda hər nə qədər ideoloji çərçivə və klişelər hökmran olsa da, ssenarist və rejissorlarımız bəzən sətiraltı ifadələr və epizodlarla Cümhuriyyətin simalarını müsbət cəhətdən də göstərməyə çalışıblar.

Rejissor Ceyhun Mirzəyevin 1986-cı ildə İsmayıl Şıxlı, Ramiz Rövşən və Firudin Ağayevin ssenarisi əsasında çəkdiyi “İşarəni dənizdən gözləyin” filmi Cümhuriyyətin süquta uğradılması və Azərbaycanda sovet hakimiyyətinin qurulmasından bəhs edir. Baş nazir Nəsib bəy Yusifbəylinin obrazını Xalq artisti Həsənağa Turabov yaradıb.

Rasim Ocaqovun 1974-cü ildə lentə aldığı “Qatır Məmməd” filmində isə Cümhuriyyətin baş naziri Fətəli xan Xoyskinin (İsmayıl Dağıstanlı) və Cümhuriyyətin səhiyyə naziri, daha sonra isə Gəncə qubernatoru (1919-1920) olmuş Xudadat bəy Rəfibəylinin obrazlarını (Gəncə qubernatoru - Məmmədrza Şeyxzamanovun ifasında) görürük.

Rejissor Əjdər İbrahimovun 1971-ci ildə lentə aldığı “Ulduzlar sönmür” filminin baş qəhrəmanı Nəriman Nərimanovdur (Vladimir Samoylov), amma burada da Cümhuriyyət salnaməsindən maraqlı epizodlara rast gəlirik. Nəriman Nərimanov bolşevizmə inansa da, Cümhuriyyətin görkəmli simaları ilə dostluğu var idi.

Filmin ən yaddaqalan səhnələrindən biri isə Cümhuriyyətin hərbi naziri olmuş Səməd bəy Mehmandarov və artilleriya generalı Əliağa Şıxlinskinin ölümdən xilas olma məqamıdır. Azərbaycanda sovet hakimiyyəti qurulub və iki hərbi xadimi güllələməyə aparırlar. Bu zaman N.Nərimanov insanların qarşısını kəsir və Leninin məktubunu komissarlara təqdim edərək onları ölümün əlindən alır.

Bu filmdə həmçinin Cümhuriyyətin baş naziri Nəsib bəy Yusifbəylinin (Adil İsgəndərov) obrazı ilə qarşılaşırıq.



**Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabe müəssisələrində rəngarəng tədbirlərlə qeyd olunub.**

# "Yaşa, mənim Azərbaycanım!"

## Paytaxtın mədəniyyət ocaqlarında "Cümhuriyyət ili"

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Mədəni Tədbirlərin Təşkili və Yaradıcı Gənclərlə İş üzrə Mərkəzin birgə təşkilatçılığı ilə Fəvvarələr meydanında Cümhuriyyətin 100 illiyinə həsr olunmuş konsert təşkil edilib.

Konsertdə müğənnilərin ifaları, "Səma" rəqs ansamblının çıxışı paytaxtımızın sakinlərində və qonaqlarında xoş ovqat yaradıb.

* * *

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin G.Şaroyev adına 35 nömrəli Musiqi məktəbində Cümhuriyyətin 100 illiyinə həsr olunmuş konsert keçirilib.

İdarənin rəisi Vüqar Zeynalov çıxış edərək paytaxtın musiqi və incəsənət məktəblərinin keçirilən tədbirlərdə fəal iştirakından söz açıb. O, 35 nömrəli məktəbin şagirdlərini fəxri fərmanlarla təltif edərək kollektivə uğurlar arzulayıb.

Şagirdlərin ifasında Qara Qarayevin, Tofiq Quliyevin, Pikə Axundovanın, həmçinin F.Şopen, A.Dvorjak və başqa bəstəkarların əsərləri səsləndirilib. Sonda xor kollektivi Arzu Abbasovanın "Bayraq" və Müslüm Maqomayevin "Azərbaycan" mahnılarını ifa edib.

* * *

Baş idarənin dəstəyi ilə Mərdəkan Mədəniyyət sarayında Cümhuriyyətin yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbirin aparıcıları tariximizin bu şanlı səhifəsindən söz açıblar. Cümhuriyyət tarixindən bəhs edən sənədli film nümayiş olunub.

Sonra konsert proqramı təqdim olunub. Müğənnilərin rəngarəng ifaları, "Lalələr" və "Azərbaycan qartalları" rəqs qruplarının təqdim etdiyi rəqslər böyük maraqla qarşılanıb.

* * *

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Sabunçu rayon MKS-nin Mərkəzi kitabxanası və 1, 12 saylı filialı, Ə.Paşayev adına Mədəniyyət evi ilə birgə Cümhuriyyətin 100 illiyinə həsr olunmuş "Azərbaycan - Şərqdə ilk demokratik respublika" adlı tədbir keçirib.

Tədbirdə çıxış edənlər Xalq Cümhuriyyətinin tarixindən, milli dövlət quruculuğundan danışıblar. Tədbirin bədii hissəsində "Badükubə" qrupunun ifasında mahnı, Sabunçu rayon MKS-nin 1, 12 saylı filiallarının fəal oxucularının təqdim etdikləri şeir kompozisiyası, "Yasəmən" uşaq bağçasının körpə fidanları və "Zabrat oğlanları" rəqs ansamblının çıxışları alqışlarla müşayiət olunub.

Həmçinin Ağdam, Laçın və Zəngilan rayon musiqi məktəblərinin şagirdləri, Ə.Paşayev adına Mədəniyyət evinin sintezator kursunun tələbələri rəngarəng musiqi nömrələri ilə çıxış ediblər.

* * *





Baş idarənin İ.Əbilov adına Mədəniyyət mərkəzində də Cümhuriyyətin 100 illiyinə həsr olunmuş bayram tədbiri təşkil olunub. Tədbirdə mərkəzin "Oğuzlar" ansamblının, "Şəlalə" xalq çalğı alətləri və "Ailə" xalq ansamblının iştirakı ilə mahnılar ifa olunub, şeirlər səsləndirilib.

* * *

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Nərimanov rayon MKS-nin Mərkəzi kitabxanası YAP Nərimanov rayon təşkilatının binasında Xalq Cümhuriyyətinin yubileyi münasibətilə tədbir keçirib.

Çıxışlarda müsəlman Şərqində ilk demokratik respublikamızın tarixi haqqında ətraflı məlumat verilib. Bildirilib ki, 100 il əvvəl Cümhuriyyətin elan edilməsi xalqımızın imperiya əsarətindən azad olması, milli dövlətçilik ənənələrinin davamı idi. Çıxışlardan sonra Cümhuriyyətin tarixini əks etdirən videoçarx nümayiş etdirilib, paytaxtın 178, 64, 39, 200 və 47 saylı tam orta məktəblərinin şagirdləri vətənpərvərlik mövzusunda şeirlər söyləyiblər.

* * *

S.Bəhlulzadə adına Mədəniyyət sarayı Suraxanı rayonu 316 saylı tam orta məktəbdə "100 il əvvəl Şərqdə bir günəş doğdu" adlı tədbir keçirib. Çıxışlarda vurğulanıb ki, hər bir xalqın, millətin sahib olduğu ən böyük sərvət onun müstəqil dövlətinin olmasıdır. Lakin müstəqilliyə gedən yol böyük mübarizələrdən keçir...

Sonra məktəblilərin ifasında vətənə, qəhrəmanlığa aid şeir və musiqi nömrələri səslənib.

* * *

V.Mustafazadə adına Mədəniyyət mərkəzində Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə əlaqədar "Yaşa, mənim Azərbaycanım!" adlı tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları mərkəzin foyesində 4 nömrəli Uşaq-gənclər inkişaf mərkəzinin rəsm və Xəzər rayon MKS-nin 2 saylı filialının kitablarından ibarət sərgiyə baxıblar. Sonra nəfəs alətləri orkestri himnimizi səsləndirib.

Paytaxtın 243, 168, 235, 231 saylı tam orta məktəblərinin şagirdləri Cümhuriyyətə həsr olunmuş kompozisiyalar təqdim ediblər.

* * *

Rafiq Babayev adına 25 saylı onbirillik Musiqi məktəbi Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi ilə birgə "Cümhuriyyət dövründə mədəni həyat" adlı tədbir təşkil edib.

Muzeydə keçirilən tədbirdə Cümhuriyyət dövründə mədəniyyət xəzinəmizə verilən töhfələrdən söz açılıb. Qeyd olunub ki, istiqlalın əldə edilməsi ilə mədəni-ədəbi mühitdə də canlanma yaranmışdı. Hüseyn Cavid, Məhəmməd Hadi, Əhməd Cavad, Cəfər Cabbarlı, Yusif Vəzir Çəmənzəminli, Abdulla Şaiq, Əliabbas Müznib və digər yazıçı-şairlər öz əsərləri ilə milli ruhun oyanışına təsir edirdilər.

Tədbirin bədii hissəsində məktəb şagirdlərinin ifasında Q.Qarayevin "Yeddi gözəl" baletindən "Vals", Ü.Hacıbəylinin "Ey səba yeli", T.Quliyevin "Cəmilənin albomu" məcmuəsindən "Marş", F.Əmirovun "12 miniatür" məcmuəsindən "Vals", T.Bakıxanovun "Xəzər balladası" baletindən rəqs və s. əsərlər səsləndirilib.



# Regionlarda mədəniyyətin inkişafına diqqət daha da artırılacaq

## "Bölgələrdən bölgələrə" Yaradıcılıq Festivalı regionların mədəni irsinin təbliğinə, mədəni mübadiləyə mühüm zəmin olacaq

Mədəniyyət Nazirliyində aparılan son struktur islahatlarının məqsədlərindən biri də regionlarda mədəniyyətin inkişafına diqqətin daha da artırılması, mədəni xidmətlərin müasir tələblər səviyyəsində qurulması, bölgələrin mədəni irsinin təbliği, regionlararası mədəni mübadilənin gücləndirilməsidir. Bu istiqamətdə müxtəlif tədbirlər, layihələr həyata keçiriləcək. Eyni zamanda yerlərdəki mədəniyyət ocaqlarının, sahəyə məsul şəxslərin bununla bağlı təşəbbüskarlıq göstərməsi zəruridir.



Bu fikirlər iyulun 6-da və 12-də mədəniyyət nazirinin müavini Rafiq Bayramovun sədrliyi ilə keçirilən və nazirlikdəki struktur islahatlarına, regional mədəniyyət idarələrinin fəaliyyətinə həsr olunmuş müşavirələrdə səslənib. Müşavirələrdə nazirliyin müvafiq struktur bölmələrinin əməkdaşları, 15 regional mədəniyyət idarəsinin rəisləri və idarələrin rayon və şəhərlər üzrə nümayəndələri iştirak edib.

Diqqətə çatdırılıb ki, ölkə Prezidentinin Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı 6 iyun 2018-ci il tarixli fərmanından irəli gələn məsələlərin həlli ilə bağlı mədəniyyət nazirinin müvafiq əmri ilə nazirlik Aparatının strukturu formalaşıb, yeni struktur vahidləri, o cümlədən Regional siyasət şöbəsi təşkil edilib. Vurğulanıb ki, həyata keçirilən dəyişikliklərdən sonra yerlərdə mədəniyyət müəssisələrinin fəaliyyəti daha fəal şəkildə tənzimlənəcək. Bu məqsədlə nazirliyin Regional siyasət şöbəsində iki sektor - Təhsil müəssisələri ilə iş və Regional idarələrin koordinasiyası və tabe qurumlarla iş sektorları yaradılıb.

Nazir müavini regionlarda keçirilən tədbirlərin səviyyəsinin daha da yüksəldilməsi istiqamətində tapşırıq və tövsiyələrini verib. Bu xüsusda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə nazirlik tərəfindən keçirilən "Bölgələrdən bölgələrə" Yaradıcılıq Festivalının əhəmiyyəti diqqətə çatdırılıb. Qeyd olunub ki, festival nazirliyin indiyədək bu qəbildən reallaşdırdığı layihələrin davamı olmaqla bərabər, həm regionların mədəni irsinin təbliği, həm də qarşılıqlı mədəni mübadilə üçün mühüm imkandır.

**Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə "100 illik tariximiz" başlığı altında "Bölgələrdən bölgələrə" Yaradıcılıq Festivalı keçirilir. Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş layihənin əsas məqsədləri zəngin dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqının mədəni irsinin təbliği, regionların mədəni potensialının nümayiş etdirilməsi, bölgələrarası mübadilənin gücləndirilməsidir.**

# "100 illik tariximiz" - bölgələrdən bölgələrə

## Cümhuriyyətin yubileyi münasibətilə regionlarda yaradıcılıq festivalı keçirilir

Ötən illərdə Mədəniyyət Nazirliyinin dəstəyi və təşkilatçılığı ilə bölgələrimizin mədəni irsinin təbliği istiqamətində layihələr icra olunub, festivallar keçirilib. 2010-2014-cü illərdə reallaşdırılan "Xalq yaradıcılığı paytaxtları" proqramı bu qəbildəndir. 2015-ci ildə "Ədəbiyyat paytaxtı" (Şamaxı) və "Milli mətbəx paytaxtı" (Qax) nominasiyaları üzrə layihələr gerçəkləşib. Bundan əlavə, 2015-2016-cı illərdə nazirlik tərəfindən reallaşdırılan "Bölgələrdən paytaxta" layihəsi çərçivəsində şəhər və rayonlarımızın mədəni irsi Bakıda nümayiş olunub.

Cümhuriyyətin 100 illiyi şərəfinə keçirilən "Bölgələrdən bölgələrə" Yaradıcılıq Festivalı da regionların mədəni irsinin təbliğinə, mədəni mübadiləyə mühüm töhfədir.





**Festivalın ilk məkanı - Masallı**

Festivalın ilk tədbiri iyunun 25-də Masallı şəhərindəki Heydər Əliyev parkında təşkil olunub. Park ərazisində Mədəniyyət Nazirliyinin 15 regional idarəsinin hər birinin festival çadırları qurulub, idarələr üzrə şəhər və rayonların mədəni irsini əks etdirən xalq sənətkarlıq nümunələrinin, rəsm və suvenirlərin, digər əl işlərinin sərgisi və satışı keçirilib.

Tədbir iştirakçıları əvvəlcə şəhər və rayonların mədəni irsini əks etdirən xalq sənətkarlıq nümunələri və əl işləri ilə tanış olublar.

Mərasimdə çıxış edən Masallı Rayon İcra Hakimiyyətinin başçısı

*Davamı səh. 13-də*

*Əvvəli səh. 12-də*

Rafil Hüseynov festival iştirakçılarına uğurlar arzulayıb.

Mədəniyyət Nazirliyinin nümayəndəsi Pərviz İsgəndərli Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan layihənin məqsəd və vəzifələrindən danışıb. Bildirib ki, Masallı rayonunun müxtəlif festivalların keçirilməsində zəngin təcrübəsi var. Üç il əvvəl nazirliyin “Bölgələrdən paytaxta” layihəsi də bu rayondan başlanmışdı.

Tədbirdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş videoçarx nümayiş olunub.






Sonra Mədəniyyət Nazirliyinin 15 regional mədəniyyət idarəsinin bədii özfəaliyyət kollektivləri, folklor və rəqs qrupları konsert proqramı ilə çıxış ediblər.

Festival iştirakçılarının çıxışları tamaşaçılar tərəfindən hərarətlə qarşılanıb.

Müxtəlif şəhər və rayonlardan gəlmiş sənətkarlar, rəngarəng əl işlərini həvəslə nümayiş etdirən ustalar da festivalın təşkilindən, belə bir layihədə iştirak etməkdən məmnunluqlarını ifadə ediblər.

Festival ilə bağlı təəssüratlarını bölüşən Masallı Regional Mədəniyyət İdarəsinin rəisi Lətifə Mövsümova layihənin əhəmiyyətini yüksək qiymətləndirib: “Bu, həqiqətən də, böyük layihədir. Respublikamızın bütün bölgələri - regional mədəniyyət idarələrinin əhatə etdiyi şəhər və rayonlarımızın nümayəndələri bu gün bizim qonağımızdır. Mən burada rayon ictimaiyyətinin marağını xüsusi qeyd etmək istəyirəm. Bu olduqca önəmli məqamdır. İnsanlarımız bölgələrimizin təqdimat çadırlarındakı sərgilərə baxır, konsert proqramlarını həvəslə izləyir, ölkəmizin digər bölgələrinin mədəni həyatı ilə daha yaxından tanış olurlar. Festivalın növbəti tədbirlərində biz də o biri regionlara qonaq gedəcəyik”.

Lətifə Mövsümova festivalın Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmasının önəmini də vurğulayıb. Bildirib ki, zəngin tarixə, dövlətçilik ənənələrinə malik xalqımızın mədəni irsinin təbliği hər zaman diqqətdə saxlanılır: “Xalq Cümhuriyyətinin 100 illiyi geniş qeyd olunur. Bu festivalın da yubiley tədbirləri çərçivəsində təşkili çox mühüm hadisədir”.

Regional idarənin rəisi xatırladıb ki, bir neçə il əvvəl nazirliyin “Xalq yaradıcılığı paytaxtları” proqramı çərçivəsində Masallı “Folklor paytaxtı” seçilmiş və geniş tədbirlər keçirilmişdi: “Eyni zamanda rayonumuzda beynəlxalq folklor festivalları təşkil olunub. Bu cür tədbirlər regionlarımızda mədəniyyətin daha da inkişaf etdirilməsinə töhfədir”.

**Lənkəran estafeti qəbul edib**

İyunun 26-da “100 illik tariximiz” devizi altında keçirilən “Bölgələrdən bölgələrə” Yaradıcılıq Festivalının iştirakçıları Lənkərana gəliblər.

Lənkəran şəhərindəki Heydər Əliyev parkında da Mədəniyyət Nazirliyinin regional mədəniyyət idarələrinin festival çadırları qurulub, bölgələrimizin mədəni irsini, xalq sənətkarlığını əks etdirən sərgi nümayiş etdirilib. Regionlarımızın təmsilçiləri bir- birilərinin çadırlarını gəzərək nümayiş olunan əl işlərinə baxıblar. Yerli sakinlər də Azərbaycanın bölgələrinin mədəni zənginliyi ilə maraqla tanış olublar.

Sonra hər bir regional idarə üzrə folklor qrupları, incəsənət kollektivləri öz istedad və bacarıqlarını nümayiş etdiriblər. Konsert proqramı tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Onlar Lənkəranda belə bir tədbirin təşkilindən məmnunluqlarını ifadə ediblər.

Lənkəran Regional Mədəniyyət İdarəsinin rəisi Vüsal Nəsirli “Bölgələrdən bölgələrə” Yaradıcılıq Festivalının Azərbaycanın şəhər və rayonlarının zəngin mədəni irsinin təbliğ olunması baxımından əhəmiyyətli hadisə olduğunu vurğulayıb. Qeyd edib ki, ölkəmizin 15 regionunun mədəni irsinin bir arada nümayiş olunması yerli sakinlərin və qonaqların xüsusi marağına səbəb olub: “Hər bir region yüksək səviyyədə öz mədəni potensialını nümayiş etdirdi. Burada ölkəmizin hər yerindən gəlmiş sənətkarların əl işlərinin, dekorativ-tətbiqi sənət nümunələrinin satış-sərgiləri keçirildi, eyni zamanda kənd təsərrüfatı məhsulları nümayiş olundu”.







Vüsal Nəsirli Cümhuriyyətimizin 100 illiyi şərəfinə gerçəkləşən festivalın bölgələr arasında mədəni mübadilənin daha da dərinləşməsinə təkan verəcəyini bildirib: “Sakinlərimiz gün ərzində bayram əhval-ruhiyyəsində festivalı ziyarət edirdilər. Regional mədəniyyət idarələrinin bədii kollektivləri, folklor və rəqs qruplarının konsert proqramı festivalı daha da yaddaqalan etdi”.

*Davamı səh. 14-də*

# “100 illik tariximiz” - bölgələrdən bölgələrə

## Cümhuriyyətin yubileyi münasibətilə regionlarda yaradıcılıq festivalı

*Əvvəli səh. 13-də*

### Festivalın yolu Salyan və Sabirabaddan keçdi

Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə “100 illik tariximiz” devizi altında keçirilən “Bölgələrdən bölgələrə” Yaradıcılıq Festivalı çərçivəsində növbəti tədbir iyunun 30-da Salyan şəhərindəki Heydər Əliyev adına meydanda təşkil olunub. Meydanda Mədəniyyət Nazirliyinin 15 regional idarəsinin festival çadırları qurulub, idarələr üzrə şəhər və rayonların mədəni irsini əks etdirən xalq sənətkarlıq nümunələrinin, rəsm və suvenirlərin, digər əl işlərinin sərgisi və satışı keçirilib.

Tədbirdə Mədəniyyət Nazirliyinin nümayəndələri, Salyan rayon rəhbərliyi, regional idarələrin rəhbərləri, mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

İştirakçılar əvvəlcə şəhər və rayonların mədəni irsini əks etdirən xalq sənətkarlıq nümunələri və digər əl işləri ilə tanış olublar. Sonra nazirliyin regional idarələrinin bədii özfəaliyyət kollektivləri, folklor və rəqs qrupları konsert proqramı ilə çıxış ediblər.

Festival iştirakçılarının çıxışları tamaşaçılar tərəfindən hərarətlə qarşılanıb.





* * *

"Bölgələrdən bölgələrə" Yaradıcılıq Festivalının dördüncü ev sahibi Sabirabad olub. Heydər Əliyev parkında təşkil olunan festivalda Mədəniyyət Nazirliyinin Sumqayıt, Gəncə, Xaçmaz, İsmayıllı, Şəki, Kürdəmir, Ağstafa, Şəmkir, Bərdə, Ağcabədi, Ağdaş, Sabirabad, Lənkəran, Masallı və Biləsuvar regional mədəniyyət idarələrinin festival çadırları qurulub, bölgələrin sənətkarlıq nümunələri, rəsmlər, suvenirlər və digər əl işlərinin satış-sərgisi keçirilib.

Açılış mərasimində çıxış edən Sabirabad Rayon İcra Hakimiyyəti başçısının müavini Həsən Həsənov festivalın əhəmiyyətini nəzərə çatdırıb. Vurğulanıb ki, layihə ilk dəfə ölkəmizin bütün regionlarını əhatə etməklə şəhər və rayonların bir-birinin mədəni zənginliyi, sənətkarlıq irsi və incəsənəti ilə tanış olmaq imkanı yaradır.



Rayon sakinləri, qonaqlar, festival iştirakçıları pavilyonlara baş çəkərək ayrı-ayrı bölgələrə aid mədəni irs, həmin bölgənin tarixi və müasir inkişafını əks etdirən sənət nümunələri ilə tanış olublar.

İştirakçılar tədbirlə bağlı təəssüratlarını bölüşüblər.

Bərdə Regional Mədəniyyət İdarəsinin məsləhətçisi Validə Nabatova bildirib ki, festivalın yay mövsümündə keçirilməsi xüsusilə önəm kəsb edir. Bu layihə sayəsində həm xarici qonaqlar, həm də yerli sakinlər bölgələrimizin zəngin mədəni həyatı ilə yaxından tanış ola bilirlər: “Bizim bölgənin də çox zəngin tarixi-mədəni irsi var. Bərdə beş əsrə yaxın Azərbaycanın qədim dövləti - Qafqaz Albaniyasının paytaxtı olub. Bölgədə bu tarixi zənginlik yaşadılır. Mədəniyyət Nazirliyi indiyədək bu qəbildən bir çox layihələr təşkil edib. Bu festival hər kəsin ürəyincədir. Bərdə şəhərində də festivalı ruh yüksəkliyi ilə keçirəcəyik”.

Gədəbəy Aşıq Məktəbinin direktoru Etibar Əliyevin də festivalla bağlı zəngin təəssüratı var: “Bu tədbiri yüksək qiymətləndiririk. Bu, ölkəmizin bölgələrinin mədəni zənginliyinin görüntüsü, o cümlədən bir çox nümunələri UNESCO siyahılarına daxil edilmiş irsimizin parlaq təqdimatıdır”.



Yaradıcılıq festivalında hər bir regional idarə üzrə folklor qrupları, yerli incəsənət və bədii özfəaliyyət kollektivləri öz bacarıqlarını nümayiş etdiriblər. Konsert proqramı maraqla qarşılanıb. Festival atəşfəşanlıqla başa çatıb.

*Davamı səh. 15-də*

*Əvvəli səh. 14-də*

### “100 illik tariximiz”lə cəbhə bölgələrində

“100 illik tariximiz” devizi altında festival estafetini iyulun 7-də cəbhə bölgəmiz - Füzuli rayonunun Horadiz şəhəri qəbul edib. Həmin gün burada bayram əhval-ruhiyyəsi yaşanıb. Muğam mərkəzində təşkil olunan tədbirdə yerli sakinlər və qonaqlar Mədəniyyət Nazirliyinin 15 regional idarəsi tərəfindən təşkil edilən sərgilərə maraqla baxıb, bölgələrin mədəni irsini əks etdirən sənətkarlıq nümunələri ilə tanış olublar.

Regional idarələr üzrə folklor qrupları, yerli incəsənət və bədii özfəaliyyət kollektivləri konsert proqramı ilə çıxış ediblər. Rəngarəng musiqi nömrələri, rəqslər alqışlarla qarşılanıb.









Festival iştirakçıları tədbirlə bağlı təəssüratlarını bölüşüblər.

Kürdəmir Regional Mədəniyyət İdarəsini təmsil edən Nazim Əzimov deyib: “Belə bir festivalın keçirilməsi olduqca təqdirəlayiqdir. Çünki respublikamızın ayrı-ayrı bölgələri öz mədəniyyət nümunələrini təqdim edir, iştirakçılar hər bir bölgənin mədəni irsi, incəsənəti ilə tanış olmaq imkanı qazanır”.

Ağcabədi Regional Mədəniyyət İdarəsindən Namiq Həsənov “Bölgələrdən bölgələrə” Yaradıcılıq festivalının Qarabağ torpağında keçirilməsinin əhəmiyyətini vurğulayıb: “Festivalda Qarabağın mədəni irs nümunələrini burada təqdim edirik. Sərgi, həmçinin “Şur” ansamblının çıxışı iştirakçılar tərəfindən böyük maraqla qarşılandı”.

Füzuli rayon Əhmədalılar kənd sakini Xalisə Məmmədova tədbirdən məmnunluğunu ifadə edib: “İnsanlara zövq verən, ruhunu oxşayan, keçmişini və indisini tanıdan və xalqın mənəvi sərvətlərini dəyərləndirən belə gözəl tədbirin təşkilatçılarına minnətdarlığımı bildirirəm”

* * *

İyulun 8-də festival digər cəbhə bölgəmizdə - Ağdam rayonunun Quzanlı qəsəbəsində davam edib.

Qəsəbədəki Heydər Əliyev adına parkda nazirliyin regional idarələrinin festival çadırları qurulub, şəhər və rayonların mədəni irsini əks etdirən sənətkarlıq nümunələrinin, digər əl işlərinin sərgisi keçirilib. Festivala gələnlər bölgələrimizin mədəni zənginliyi, özünəməxsusluğu, incəsənət nümunələri ilə maraqla tanış olublar. Təqdim olunan konsert proqramı da rəngarəngliyi ilə yadda qalıb.

Tədbir iştirakçıları festivaldan razılıqlarını ifadə edib, xalqımızın mədəni irsinin təbliğində layihənin əhəmiyyətini yüksək qiymətləndiriblər.

Bərdə Regional Mədəniyyət İdarəsini təmsil edən Elnur Cəfərov bu cür tədbirlərin bölgələrin mədəni zənginliyinin tanıdılmasına mühüm zəmin yaratdığını deyib: “Biz də sərgidə bölgəmizin tanıtımı ilə bağlı əl işləri, müxtəlif suvenirlər nümayiş etdiririk”.

Sumqayıt Dövlət Rəsm Qalereyasının əməkdaşı Gülü Abdullayeva nümayiş etdirdikləri sənətkarlıq nümunələrinin, həmçinin milli geyimlərimizin iştirakçılar tərəfindən böyük maraqla qarşılandığını bildirib.

Lənkəran Regional Mədəniyyət İdarəsinin nümayəndəsi Nurlana İbrahimova da festivalın böyük maraq doğurduğunu qeyd edib: “İki gündür Qarabağ torpağındayıq. Sakinlər sərgilərə çox maraqla baxırlar. Arzu edirəm ki, belə tədbirləri indi işğal altında olan torpaqlarımızda da keçirək”.

Ağdam rayon sakini Xətai Abdullayev festivaldan razılığını belə ifadə edib: “Azərbaycanın müxtəlif bölgələrinin təmsil olunduğu sərgiyə çox maraqla baxdım, bir daha xalqımızın mədəni irsinin zənginliyinin şahidi oldum”.

* * *

Qeyd edək ki, “Bölgələrdən bölgələrə” Yaradıcılıq Festivalı nazirliyin digər regional idarələrində də davam edəcək. Beləliklə, layihə çərçivəsində ölkəmizin regionlarının mədəni irsi geniş şəkildə təqdim və təbliğ olunacaq. Layihə şəhər və rayonlara bir-birinin mədəni zənginliyi ilə tanış olmağa imkan yaradacaq.





Gəncə Regional Mədəniyyət İdarəsi

# Yurdun dörd bir yanında "Cümhuriyyət ili":
## tarixə ehtiram, gələcəyə inam



**Azərbaycan Respublikası Prezidentinin Cümhuriyyətin 100 illiyi haqqında 17 may 2017-ci il tarixli və "Azərbaycan Xalq Cümhuriyyəti ili"nin elan edilməsi haqqında 10 yanvar 2018-ci il tarixli sərəncamlarının icrası ilə bağlı Mədəniyyət Nazirliyinin müvafiq tədbirlər planına uyğun olaraq nazirliyin bütün tabe müəssisələrində, o cümlədən 15 regional mədəniyyət idarəsinin əhatə etdiyi mədəniyyət ocaqlarında silsilə yubiley mərasimləri keçirilir. Cümhuriyyətin birinci paytaxtı olmuş Gəncədə müsəlman Şərqində ilk parlamentli respublikanın yaranmasının yüz illiyi münasibətilə təşkil olunan tədbirlər də rəngarəngliyi ilə seçilib.**

Gəncə şəhərinin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarətlə başlayan təntənəli tədbir Azərbaycan Xalq






Cümhuriyyəti Muzeyi ilə tanışlıqla davam etdirilib.

Cümhuriyyətin Nazirlər Şurasının fəaliyyət göstərdiyi binada yaradılmış muzey zəngin ekspozisiyaya malikdir. Burada Cümhuriyyətin qurucularının fəaliyyəti haqqında ətraflı məlumat verilir, fotolar, tarixi sənəd və digər arxiv materialları nümayiş olunur.

Sonra mərasim iştirakçıları Azərbaycan Dövlət Aqrar Universitetində tariximizin Cümhuriyyət dövrünə həsr olunmuş guşə və stendlərə baxıb, Gəncə Dövlət Filarmoniyasının yeni binası ilə tanış olub, şəhərin görməli yerlərini gəziblər.

Heydər Əliyev park-kompleksinin amfiteatrında Əməkdar incəsənət xadimi Abdulla Qurbaninin layihəsi, ssenarisi və rejissorluğu ilə hazırlanmış "Xalq Cümhuriyyətinin varisləriyik" adlı teatrlaşdırılmış kütləvi vətənpərvərlik tamaşası təqdim olunub.

Gəncə şəhər Heydər Əliyev Mərkəzində "Gözün aydın, Azərbaycan!" adlı tədbirdə 38 saylı orta məktəbin şagirdlərinin hazırladıqları ədəbi-bədii kompozisiya təqdim olunub.

Şəhər MKS-nin 1 saylı filialında "...İstiqlalım azadlıq günəşidi" başlığı altında ədəbi-bədii gecə təşkil olunub. Çıxışlarda Cümhuriyyətin təməlini qoymuş şəxsiyyətlərdən söz açılıb. 4 saylı orta məktəbin şagirdlərinin hazırladıqları sazlı-sözlü musiqi nömrələri təqdim olunub, şeirlər səsləndirilib.

* * *

Goranboy rayonundakı Heydər Əliyev parkında Mədəniyyət Nazirliyinin dəstəyi və rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Cümhuriyyətin 100 illiyinə həsr olunmuş təntənəli bayram konserti keçirilib. Xalq artisti, dirijor Ağaverdi Paşayevin bədii rəhbərliyi altında Azərbaycan Dövlət Akademik Filarmoniyasının Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı üzvlərinin iştirakı ilə keçirilən konsert tamaşaçıların alqışları ilə qarşılanıb.

Goranboy rayon Mərkəzi kitabxanasında "Bir kərə yüksələn bayraq bir daha enməz" adlı dəyirmi masa təşkil olunub. Çıxışlarda Cümhuriyyətin yaranmasından, tariximizdəki yerindən bəhs edilib. Sonda tədbir iştirakçıları sərgi ilə tanış olublar.

* * *

Regional idarənin tabeliyində fəaliyyət göstərən Kəlbəcər rayon MKS-də Cümhuriyyətin 100 illiyinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Birinci Respublikanın ənənələrinin bu gün davam etdirildiyi vurğulanıb, Cümhuriyyət tarixinə ehtiram ifadə olunub.

* * *

Naftalan şəhər uşaq Musiqi məktəbində "Dur ayağa, məmləkətim, qalx ayağa, millətim" adlı tədbir keçirilib. Tədbirdə çıxış edənlər iştirakçıları 28 May - Respublika Günü ilə bağlı təbrik edib, Cümhuriyyətin yaranması və fəaliyyəti haqqında məlumat veriblər. Məktəbin xor kollektivinin, istedadlı şagirdlərin ifasında Azərbaycanın xalq və bəstəkar mahnıları, milli rəqslər, dünya bəstəkarlarının əsərləri səslənərək tədbirə rəng qatıb.

* * *

Regional idarənin Xocalı rayon Mədəniyyət evində də tədbir keçirilib. Mərasimdə Azərbaycan Xalq Cümhuriyyətinin qısa zamanda əldə etdiyi nailiyyətlərdən geniş söz açılıb. İştirakçılar daha sonra Xocalı rayon MKS-nin hazırladığı kitab sərgisi ilə tanış olublar.

* * *

Samux rayon Mədəniyyət mərkəzində "Müstəqilliyimiz əbədidir" adlı ədəbi-bədii kompozisiya təqdim olunub. Mərasimdə Cümhuriyyətin yaranması və baniləri haqqında geniş məlumat verilib. Mərkəzin bədii qiraət və folklor dərnəklərinin üzvləri mahnılar ifa edib, şeirlər söyləyiblər. Fəal dərnək üzvlərinə fəxri fərmanlar təqdim edilib.



Sumqayıt Regional Mədəniyyət İdarəsinin tabe müəssisələrində Cümhuriyyətin 100 illiyi ilə əlaqədar rəngarəng tədbirlər təşkil olunub.

# Yurdun dörd bir yanında "Cümhuriyyət ili": *tarixə ehtiram, gələcəyə inam*

**Sumqayıt Regional Mədəniyyət İdarəsi**



Regional idarənin təşəbbüsü ilə yaradılan Xalq çalğı alətləri orkestri (dirijor - Əməkdar mədəniyyət işçisi Vaqif Süleymanov) və Xor kollektivi (dirijor - Firəngiz Xəlilova) Abşeron rayon Mədəniyyət mərkəzində konsert proqramı ilə çıxış edib. Konsertdə muğam ustası, Xalq artisti Alim Qasımov, əməkdar artistlər Fərqanə Qasımova, Ehtiram Hüseynov, Təyyar Bayramov və digər müğənnilər orkestr və xorun müşayiəti ilə Azərbaycan bəstəkarlarının əsərlərini ifa ediblər. Xalq Cümhuriyyətinin tarixinə dair film nümayiş olunub.

* * *



Sumqayıt Dövlət Rəsm Qalereyasında təşkil olunan "Art-Festival"da 32 rəsm əsəri, 50 dekorativ-tətbiqi sənət nümunəsi və Xalq Cümhuriyyəti ilə bağlı kitablar sərgilənib. Festivalda rəssam Nəsibə Şükürovanın canlı performansı, şəhər Mədəniyyət evi solistlərinin ifasında mahnılar, "Narbala" kukla teatrının, S.Vurğun adına Mərkəzi kitabxananın Uşaq şöbəsində fəaliyyət göstərən Sabir Sarvan adına Uşaq poeziya klubu üzvlərinin təqdim etdiyi səhnəciklər, C.Cabbarlı adına Mədəniyyət evinin "Turan" rəqs qrupunun ifasında milli rəqslərimiz izləyicilərin marağına səbəb olub.

Tədbirdə AYB Sumqayıt bölməsinin sədri Gülnarə Cəmaləddin və yazarlar çıxış ediblər. Novxanı sənətkarlıq klubu rəssamlıq dərnəyinin üzvləri və "Canlanır hər qarış çöl Sumqayıtda" adlı plenerdə iştirak edən gənc rəssamlar fəxri fərmanla təltif olunub.

* * *

Sumqayıtın Tarixi Muzeyi ilə C.Cabbarlı adına Mədəniyyət evinin birgə tədbirində Cümhuriyyətin tarixindən söz açılıb, videoçarx nümayiş olunub. Mədəniyyət evinin qiraət dərnəyi üzvlərinin ifasında şeirlər, müğənnilərin ifasında mahnılar dinlənilib. "Turan" rəqs qrupu üzvlərinin ifasında "Azərbaycan süitası", "Dilşadi" rəqs nömrələri alqışlarla qarşılanıb. Sonda muzeyin ekspozisiya zalında eksponatlara baxış olub.

* * *

Regional idarənin təşəbbüsü, Sumqayıt şəhər S.Vurğun adına Mərkəzi kitabxananın Uşaq şöbəsi və AYB Sumqayıt bölməsinin birgə təşkilatçılığı ilə Gəncə şəhərinə ekskursiya təşkil olunub. Azərbaycan Xalq Cümhuriyyəti muzeyində ziyarətçilərə o dövrlə bağlı eksponatlar, tarixi sənədlər haqqında geniş məlumat verilib. Ekskursiyaçılar Nizami Gəncəvi məqbərəsini, Cavad xan və İmamzadə türbələrini, Xan bağında görkəmli şairə Nigar Rəfibəylinin abidəsini ziyarət ediblər.

* * *

Regional idarənin Qubadlı rayon nümayəndəliyində təşkil olunan tədbirdə Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti haqqında məruzə dinlənilib, videoçarx nümayiş etdirilib. Regional idarənin Xalq çalğı alətləri orkestri və Xor kollektivi konsert proqramı ilə çıxış edib. Orkestr və xorun növbəti konserti Masazır qəsəbəsi ərazisində Zəngilan rayonundan olan məcburi köçkünlər üçün salınmış yaşayış massivində baş tutub. Gənc ifaçıların çıxışları alqışlarla qarşılanıb.

* * *

Şuşa şəhər Niyazi adına İncəsənət məktəbi "Azərbaycan - yurdum mənim" adlı tədbir keçirib. Tədbirdə məktəb xorunun ifasında mahnılar, "Nazilə" rəqsi, "Azərbaycan ritmləri", J.Bizenin "Karmen" operasından süita, Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından Əsgərin mahnısı, "Cəngi", "Leyli və Məcnun" operasından rəqs və digər əsərlər səsləndirilib. İfalar, vətənpərvərlik şeirləri, xalq Cümhuriyyətinə həsr olunmuş videoçarx və "Azərbaycan diyarı" adlı kompozisiya alqışlarla qarşılanıb.




Abşeron rayon Xırdalan şəhər 11 illik Musiqi məktəbinin kollektivi Mədəniyyət Nazirliyinin dəstəyi ilə Tbilisidə Azərbaycan Xalq Cümhuriyyəti və Gürcüstan Respublikasının yaranmasının 100 illik yubileylərinə həsr olunmuş tədbirlərdə konsert proqramları ilə çıxış edib. Ümummilli lider Heydər Əliyevin adını daşıyan parkda təşkil olunan konsert proqramı maraqla qarşılanıb. Məktəbin kollektivi İstanbulda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi və xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə bağlı təşkil olunmuş tədbirlərdə də iştirak edib.

* * *

Regional idarənin Xızı rayon nümayəndəliyinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Cümhuriyyətin yaranması və fəaliyyətinə həsr olunmuş sənədli film nümayiş etdirilib. Sonra idarənin F.Əmirov adına uşaq Musiqi məktəbinin müəllimlərdən ibarət "Buta" qızlar ansamblı konsert proqramı ilə çıxış edib. Azərbaycan xalq və bəstəkar mahnıları, instrumental musiqilərdən ibarət konsert rayon ictimaiyyəti tərəfindən alqışlarla qarşılanıb.



# Yurdun dörd bir yanında “Cümhuriyyət ili”: *tarixə ehtiram, gələcəyə inam*

**Şəki** Regional Mədəniyyət İdarəsi

Şəki şəhər Mirzə Fətəli Axundzadə adına Mədəniyyət mərkəzində “Tarixdən boylanan gün” adlı ədəbi-bədii tədbir keçirilib. Çıxış edənlər Cümhuriyyətin xalqımızın dövlətçilik ənənələrində şanlı bir səhifə olduğunu vurğulayıblar. Cümhuriyyətin qısa müddət ərzində mövcud olmasına baxmayaraq, demokratik ənənələrə sadiqliyi,






insan hüquqlarının qorunmasına verdiyi dəyər xüsusi qeyd olunub. Çıxışlardan sonra Mədəniyyət mərkəzinin “Zurnaçılar” ansamblının ifasında musiqilər, Uşaq incəsənət məktəbi rəqs ansamblının çıxışı tamaşaçılara bayram əhvalı yaşadıb.

Şəki uşaq İncəsənət məktəbində Cümhuriyyətin 100 illiyi münasibətilə konsert proqramı təşkil edilib. Məktəbin direktoru Eldar Rəcəblinin təşəbbüsü ilə bərpa edilmiş XII-XIV əsrlərə aid musiqi alətlərindən ibarət folklor qrupunun ifasında mahnı və rəqs musiqiləri təqdim olunub.

Şəhərdəki İ.S.Nakam adına Mərkəzi kitabxanada “Can Azərbaycan” adlı ədəbi-bədii kompozisiya təqdim olunub. Tədbirdə müsəlman Şərqində ilk demokratik respublikanın fəaliyyətini əks etdirən nəşrlərdən ibarət sərgi təşkil edilib.

Bideyiz kənd folklor evində təqdim edilən “Bir kərə yüksələn bayraq bir daha enməz” adlı bədii kompozisiya, Səməd Vurğun adına şəhər folklor evindəki ədəbi-bədii axşam,






Şorsu folklor klubunda “Mənim Azərbaycanım” adlı mühazirə, Şəki rayon Turan qəsəbə folklor klubunda “İstiqbalımız, istiqlalımız olan Cümhuriyyətimiz” mövzusunda tədbirlər də yaddaqalan olub.

Şəki şəhər 2, 3, 4 nömrəli uşaq musiqi məktəblərində Cümhuriyyətin 100 illiyinə həsr olunmuş konsert proqramları təşkil olunub.

Tarix-diyarşünaslıq muzeyində keçirilən tədbirdə Xalq tətbiqi sənət muzeyi, Rəşid bəy Əfəndiyevin, M.F.Axundzadənin, Sabit Rəhmanın və Bəxtiyar Vahabzadənin ev-muzeyləri iştirak ediblər. Tədbirin sonunda iştirakçılar Şəki Dövlət Rəsm Qalereyasının təşkil etdiyi “Cümhuriyyət - 100” adlı sərgi ilə tanış olublar.

* * *

Mədəniyyət Nazirliyi, Şəki Şəhər İcra Hakimiyyəti və Azərbaycan Teatr Xadimləri İttifaqının birgə təşkilatçılığı ilə 12-19 may tarixində reallaşan “Sərhədsiz teatr” III Şəki Beynəlxalq Teatr Festivalı Azərbaycan milli peşəkar teatrının 145 illiyi, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə yanaşı  Cümhuriyyətin 100 illiyinə də sənət ərməğanı olub.

* * *

Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzində Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə əlaqədar konfrans keçirilib. Mərkəzin həyətində Cümhuriyyətin yubileyinə həsr olunmuş sərgi təşkil olunub.

Konfransda Xalq Cümhuriyyətinə həsr olunmuş sənədli film nümayiş etdirilib. Sonra məruzələr dinlənilib. Çıxış edənlər 1918-ci ilin 28 may tarixini xalqımızın milli azadlıq mübarizəsi salnaməsinə qızıl hərflərlə yazılmış gün kimi dəyərləndiriblər. Azərbaycan xalqının məhz həmin tarixi gündə əsrlər boyu həsrətində olduğu milli azadlığa qovuşduğunu, müstəmləkə əsarətindən qurtulduğunu və dövlət müstəqilliyini qazandığını diqqətə çatdırıblar. Tədbir geniş konsert proqramı və atəşfəşanlıqla başa çatıb.

* * *

Balakən rayon Mədəniyyət mərkəzində keçirilən tədbirdə Xalq Cümhuriyyətinin tarixindən söz açılıb. Vurğulanıb ki, Azərbaycan xalqı 100 il əvvəl Cümhuriyyəti qurmaqla müstəqil yaşamağa, öz dövlətçilik ənənələrini bərpa etməyə qadir olduğunu nümayiş etdirib.

Sonra isə Mədəniyyət mərkəzinin üzvlərinin iştirakı ilə repressiya qurbanları ədiblərin, Cümhuriyyət fədailərinin əsərlərindən ibarət ədəbi-bədii kompozisiya nümayiş olunub, mahnılar, şeirlər səslənib.

* * *

Oğuz rayon Mədəniyyət mərkəzində Mərkəzi kitabxananın Uşaq şöbəsi və H.Babayev adına şəhər 1 saylı orta məktəbin birlikdə hazırladığı “Azərbaycan Şərqdə doğan sönməyən günəş” başlıqlı ədəbi-bədii kompozisiya təqdim olunub.

Tədbirdə “Şərqdə ilk demokratik respublika” başlıqlı məruzə dinlənilib, Cümhuriyyətin tarixindən danışılıb. 1 saylı tam orta məktəbin şagirdlərinin təqdim etdiyi kompozisiya maraqla qarşılanıb.

# Yurdun dörd bir yanında "Cümhuriyyət ili": *tarixə ehtiram, gələcəyə inam*

Xaçmaz Regional Mədəniyyət İdarəsi

**Xaçmaz Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi şəhər və rayonlarda Cümhuriyyətin 100 illiyi münasibətilə keçirilən tədbirlər də rəngarəngliyi ilə seçilib.**




Xaçmaz rayon Mərkəzi kitabxanasının oxu zalında "Müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" adlı elmi-praktik konfrans keçirilib. Çıxışlarda vurğulanıb ki, yüz il öncə Cümhuriyyətin yaradılması xalqımızın müstəqillik arzusunun gerçəkləşməsi idi. İlk respublikamız cəmi 23 ay yaşamasına baxmayaraq, gördüyü böyük işlərlə Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaradıb. Xalq Cümhuriyyətinin yaranması və fəaliyyətində Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib




bəy Yusifbəyli və başqalarının böyük xidmətləri qeyd edilib. Çıxışlardan sonra Cümhuriyyətə həsr olunmuş sənədli film nümayiş etdirilib.

Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyində "Azadlıq elçiləri" adlı tədbir keçirilib. Tədbirdə Xalq Cümhuriyyətinin tarixi, həyata keçirdiyi islahatlar, qanunvericilik sistemi və s. məqamlara toxunulub. Qeyd olunub ki, müasir müstəqil Azərbaycan məhz Cümhuriyyətin varisidir və eyni ideyalara malikdir. 8, 6, 3 saylı məktəblərin şagirdlərinin ifasında şeirlər və mahnılar səslən-dirilib.

* * *

Quba Rayon İcra Hakimiyyəti və Xaçmaz Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə Cümhuriyyətin 100 illik yubileyi münasibətilə "Regional muğam festivalı" keçirilib. Tədbir iştirakçıları festivalın əhəmiyyətindən, ölkəmizdə muğam sənətinə göstərilən dövlət qayğısından danışıblar.

Konsert proqramında tanınmış muğam ustaları və yerli ifaçıların çıxışları dinlənilib. Tədbir çərçivəsində dekorativ-tətbiqi sənət növləri ilə məşğul olan region sənətkarlarının əl işlərinin sərgisinə də baxış keçirilib.

Quba rayon MKS-nin Mərkəzi kitabxanasının oxu zalında "Milli istiqlalımızın bəyanı" adlı tədbir keçirilib. Tədbirdə 1918-ci ilin 28 mayında Azərbaycan Milli Şurası tərəfindən qəbul olunan "İstiqlal Bəyannaməsi" haqqında ətraflı məlumat verilib. Qeyd olunub ki, cəmi 23 ay yaşayan Xalq Cümhuriyyətini quranlar ölkəmizə bəşəri dəyərlər gətiriblər. Azərbaycan tarixinin parlaq səhifələrindən olan Xalq Cümhuriyyətinin qısa müddət yaşamasına baxmayaraq, Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edilib, ölkənin sərhədləri müəyyənləşdirilib, dövlət dilimiz, dövlət rəmzlərimiz haqqında mühüm qərarlar qəbul olunub.

Sonda "Azərbaycan Xalq Cümhuriyyəti - 100" adlı sərgiyə baxış keçirilib.

* * *

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi Şabran rayon MKS-nin filiallarında da qeyd olunub. MKS-nin Sarvan kənd kitabxanasında "Heydər Əliyev və Azərbaycan Xalq Cümhuriyyəti" adlı məruzə, 3 saylı şəhər kitabxanasında "Müasir Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisidir" adlı dəyirmi masa və Ağbaş kənd kitabxanasında "Çağdaş Azərbaycan tarixi" adlı tədbir təşkil olunub.

* * *

Qusar Dövlət Rəsm Qalereyasında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rayon məktəblilərinin əl işlərindən ibarət sərgi keçirilib. Sərgidə şagirdlərin 40-dan çox rəsmi təqdim olunub.

Qusar şəhərindəki Nəriman Nərimanov adına mərkəzi parkda isə ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş kitab bayramı keçirilib. Parkda müxtəlif mövzularda kitab stendləri ilə yanaşı, tədris müəssisələri kollektivlərinin əl işləri də nümayiş etdirilib.

* * *

Siyəzən şəhərindəki Heydər Əliyev Mərkəzi və şəhər peşə məktəbinin birgə təşkilatçılığı ilə "Azərbaycan Xalq Cümhuriyyəti - Şərqdə ilk parlamentli respublika" adlı musiqili tədbir və sərgi təşkil edilib.

Çıxışlarda Xalq Cümhuriyyəti haqqında məlumat verilib. Vurğulanıb ki, Cümhuriyyətin 100 illik yubileyinin təntənə ilə qeyd edilməsi hər bir soydaşımız tərəfindən böyük rəğbətlə qarşılanır.

Daha sonra tədbir gənclərin və məktəblilərin hazırladığı kompozisiyalarla davam etdirilib.



# Yurdun dörd bir yanında "Cümhuriyyət ili": tarixə ehtiram, gələcəyə inam

**Biləsuvar** Regional Mədəniyyət İdarəsi




**Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi və "Cümhuriyyət ili" Biləsuvar Regional Mədəniyyət İdarəsinin müəssisələrində də geniş şəkildə qeyd olunur. Bu qəbildən tədbirlər ilin sonunadək davam edəcək. Cümhuriyyət ideologiyasının banisi Əli bəy Hüseynzadənin (1864-1940) vətəni Salyan şəhəri də bir sıra tədbirlərə ev sahibliyi edib. Salyan Rayon Tarix-Diyarşünaslıq Muzeyində görkəmli mütəfəkkir, ədib, rəssam, ictimai xadim, üçrəngli bayrağımızın ideya müəllifi Əli bəy Hüseynzadəyə həsr edilən "İstiqlal aşiqi" adlı dəyirmi masa da bu silsilədəndir.**




Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası və rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə gerçəkləşən mərasimin iştirakçıları əvvəlcə Əli bəy Hüseynzadənin abidəsini ziyarət edib, böyük mütəfəkkir və Cümhuriyyətin qurucuları haqqında kitablardan ibarət sərgi ilə tanış olublar.

Dəyirmi masada mədəniyyət naziri Əbülfəs Qarayev, rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, Milli Məclisin deputatları Nizami Cəfərov, Fəzail Ağamalı, Əliağa Hüseynov, Təfəkkür Universitetinin rektoru Rahib Hüseynov, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan çıxış ediblər.

Nazir Əbülfəs Qarayev bildirib ki, 1920-ci ildə ölkəmiz işğal olunduğu üçün Azərbaycan Xalq Cümhuriyyəti qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilməyib. Bununla belə, xalqımız müstəqillik ruhunu yaşadaraq 1991-ci ildə öz istiqlalına yenidən qovuşub. Müstəqil Azərbaycan Respublikası Cümhuriyyətin varisi kimi öz inkişaf yolunu seçib. Ümummilli lider Heydər Əliyevin ölkəmizdə uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirib.

Digər çıxışlarda müsəlman Şərqində ilk demokratik və parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən, o dövrdə həyata keçirilən islahatlardan danışılıb. Həmçinin Əli bəy Hüseynzadənin həyat və yaradıcılığından, mübarizə yolundan geniş söz açılıb.

Əli bəy Hüseynzadəyə məxsus əşyaların, sənədlərin ötən il ədibin qızı Feyzavər Alpsar tərəfindən ölkəmizə hədiyyə edildiyini diqqətə çatdıran nazir görkəmli mütəfəkkirin müəllifi olduğu rəsm əsərini rayon Tarix-diyarşünaslıq muzeyinə təqdim edib.

* * *

Biləsuvar Regional Mədəniyyət İdarəsinin digər tabe müəssisələrində də Cümhuriyyətin yaradılmasının 100-cü ildönümü münasibətilə çoxsaylı tədbirlər keçirilib. Heydər Əliyev mərkəzlərində, tarix-diyarşünaslıq muzeylərində, rəsm qalereyalarında, kitabxanalarda və klub müəssisələrində sərgi, fləşmob və s. təşkil olunub, Azərbaycan Xalq Cümhuriyyətinə həsr olunmuş guşələr yaradılıb, tarixi mövzuda mühazirələr və dəyirmi masalar keçirilib.

Biləsuvar rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan Xalq Cümhuriyyəti" mövzusunda tədbirdə Cümhuriyyətin tarixi haqqında geniş məlumat verilib. Həmçinin ölkəmizin XX əsrdə ikinci dəfə müstəqillik qazanması, müstəqilliyin möhkəmləndirilməsindən danışılıb. Bildirilib ki, müstəqil Azərbaycanın dinamik inkişafının təmin olunmasında ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri olub.

Cümhuriyyətin 100 illiyi ilə bağlı daha bir tədbir Biləsuvar rayon 1 saylı şəhər klubunda keçirilib. Tədbirdə Xalq Cümhuriyyətinin keçdiyi qısa, lakin şərəfli tarixi yola nəzər salınıb. Klubun musiqiçiləri və məktəblilərin ifasında musiqilər səsləndirilib. Şagirdlər vətənpərvərlik mövzulu şeirlər söyləyiblər.

* * *

Neftçala rayon Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə rəsm əsərlərindən ibarət sərgi açılıb. Sərgi Heydər Əliyev Mərkəzi, mərkəzdə yerləşən 3 saylı kitabxana filialı, Tarix-diyarşünaslıq muzeyi və Rəsm qalereyasının birgə təşkilatçılığı ilə hazırlanıb. Tədbirdə nümayiş etdirilən əsərlər Neftçala rəssamları və Rəsm qalereyasında fəaliyyət göstərən dərnək üzvlərinin rəsmlərindən ibarət olub.

* * *

Salyan rayon Mədəniyyət mərkəzində "Xalq Cümhuriyyəti və Heydər Əliyev ideyaları" mövzusunda tədbir keçirilib. Çıxışlarda bildirilib ki, 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan Respublikası özünü Cümhuriyyətin varisi elan edib. Müstəqilliyin ilk illərində ölkəmizdə yaranmış ağır ictimai-siyasi şəraitdə Azərbaycan dövləti dağılmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir şəraitdə, 1993-cü ilin iyununda xalqımızın çağırışı ilə hakimiyyətə qayıdan görkəmli siyasətçi Heydər Əliyev Azərbaycanı parçalanmaqdan xilas edib. Sonda məktəblilər və "Murad" Əlillər İctimai Birliyinin üzvləri Azərbaycana həsr olunan şeirlər söyləyiblər.

* * *

Regional idarənin Biləsuvar, Salyan, Neftçala və Cəbrayıl rayonları üzrə mədəniyyət mərkəzləri və kitabxanalarda da Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə əlaqədar konsert proqramları təşkil olunub. Mədəniyyət mərkəzləri tərəfindən keçirilən "Yaşa, azad Azərbaycan!" adlı şeir müsabiqəsində yüzlərlə məktəbli və gənc iştirak edib.



# Cümhuriyyətin elanı

## dövlətçilik tariximizin şanlı səhifəsi



**Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dövrün tarixi-siyasi proseslərinin nəticəsi olduğu kimi, onun qısa ömrü və süqutu da real proseslərdən ayrılıqda təsəvvür edilə bilməz.**

1917-ci ilin 27 fevralında (yeni təqvimlə 12 mart) Rusiyada burjua-demokratik inqilabı başlandı. Martın 2-də Romanovlar mütləqiyyətinin sonuncusu - çar II Nikolay taxt-tacdan əl çəkməyə məcbur oldu. Monarxiyanın devrilməsindən sonra Müvəqqəti hökumət quruldu.

İnqilabın qələbəsindən sonra Dövlət Dumasında Zaqafqaziyadan olan deputatların təşəbbüsü və Müvəqqəti hökumətin qərarı ilə Xüsusi Zaqafqaziya Komitəsi yaradılmışdı. Müvəqqəti hökumət ölkənin gələcəyini müəyyən etmək üçün yeni nümayəndəli orqana - Müəssislər Məclisinə birbaşa seçkilər elan etdi. Monarxiyanın süqutu nəhəng imperiyanın bütün milli bölgələrində istiqlal arzularını gündəmə gətirdi. Müvəqqəti hökumətin elan etdiyi Müəssislər Məclisində təmsilçilik bu istiqamətdə ilk mərhələ idi. Lakin 17 sentyabra nəzərdə tutulan seçkilər 12 noyabra ertələndi.

Bu müddətdə isə növbəti inqilab baş verdi. 1917-ci ilin 25 oktyabrında (7 noyabr) Petroqradda hakimiyyəti ələ keçirən bolşeviklər Rusiya Sovet Federativ Sosialist Respublikasını elan etdilər. Bolşeviklərin Petroqraddakı çevrilişi Zaqafqaziyada rəğbətlə qarşılanmadı.

1917-ci il noyabrın 26-28-də Qafqaz üzrə Rusiya Müəssislər Məclisinə seçkilər keçirilir. Lakin Müəssislər Məclisində azlıqda qalan bolşeviklər onun fəaliyyətinə imkan vermirlər və 1918-ci ilin yanvarında Müəssislər Məclisinin buraxıldığını elan edirlər. Yerli hökumət strukturu kimi Zaqafqaziya Diyar Soveti yaradılır.

Zaqafqaziyadan Rusiya Müəssislər Məclisinə seçilmiş deputatlar isə fevralın 14-də Tiflisdə Cənubi Qafqazın ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini (parlamentini) yaratdılar. Zaqafqaziya Seymində Müsəlman fraksiyası (Müsəlman şurası) 44 deputatdan ibarət idi. “Müsavat” və ona qoşulan demokratik bitərəflər qrupu, "Müsəlman sosialist bloku", "Rusiyada müsəlmanlıq" ("İttihad") və "Hümmət" (menşevik) partiyaların təmsilçiləri, Məhəmməd Əmin Rəsulzadənin rəhbərlik etdiyi fraksiya faktiki olaraq Zaqafqaziya Müsəlman Parlamenti funksiyasını yerinə yetirirdi.

1918-ci ilin 9 (22) aprelində Zaqafaziya Seyminin azərbaycanlı, erməni və gürcü deputatları paytaxt Tiflis olmaqla Zaqafqaziya Demokratik Federativ Respublikasının yarandığını elan etdilər. Gürcü A.Çxengelinin başçılıq etdiyi hökumətə Azərbaycandan F.Xoyski, K.Məlikaslanov, N.Usubbəyov, M.Hacınski və M.Heydərov daxil idilər.

Lakin kəskin milli mənafe ziddiyyətləri, xüsusilə ermənilərin həm gürcü, həm də Azərbaycan heyəti ilə ixtilafı və hər iki tərəfə ərazi iddiaları, Seymin Osmanlı dövlətinə müharibə elan etmək qərarına “Müsavat” qrupunun qarşı çıxması və digər fikir ayrılıqları Zaqafqaziya Seyminin konkret addımlar atmasına imkan vermədi. 1918-ci il mayın 25-də gürcü heyəti Zaqafqaziyanı vahid dövlətdə birləşdirməyin qeyri-mümkün olduğunu bildirərək federasiyadan çıxdılar və mayın 26-da Gürcüstanın müstəqilliyini elan etdilər. Azərbaycan (müsəlman) fraksiyası buna etiraz etmədi və Seymin buraxılması, Zaqafqaziya Federativ Respublikasının ləğvi barədə qərar qəbul olundu.

Zaqafqaziya Seyminin süqutundan sonra mayın 27-də azərbaycanlı deputatlar Tiflisdə fövqəladə iclas keçirdilər. Zaqafqaziya Müsəlman Şurası özünü Azərbaycan Milli Şurası elan etdi. İclasda 44 nəfərlik Azərbaycan Milli Şurasının Rəyasət heyəti formalaşdı. Məhəmməd Əmin Rəsulzadə Milli Şuranın sədri, Həsən bəy Ağayev müavin seçildi.

Mayın 28-də Tiflisdə keçmiş Qafqaz Canişinliyi sarayında Həsən bəy Ağayevin sədrliyi ilə (Rəsulzadə Batumda Osmanlı ilə danışıqlarda idi) ilə Azərbaycan Milli Şurasının tarixi iclası keçirildi. İclasda İstiqlal Bəyannaməsi qəbul olundu və müsəlman dünyasında ilk dəfə olaraq parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı elan edildi. Beləliklə, Azərbaycanın şimal torpaqlarında dövlətçilik ənənələrimiz parlamentli respublika formasında dirçəldi.

İstiqlal Bəyannaməsi faktiki olaraq Azərbaycanın dövlətçilik tarixində ilk konstitusiya aktı idi.

### İSTİQLAL BƏYANNAMƏSİ

*1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyətə malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tamhüquqlu müstəqil bir dövlətdir.*
*2. Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyətidir.*
*3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir.*
*4. Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir.*
*5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır.*
*6. Müəssislər Məclisi toplaşana qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şurası və Milli Şura qarşısında məsuliyyət daşıyan müvəqqəti hökumət durur.*




**27 fevral 1917** - Rusiyada Fevral burjua-demokratik inqilabının baş verməsi. Monarxiyanın (çar II Nikolay) devrilməsi, Müvəqqəti hökumətin qurulması.
**3 mart 1917** - Yelizavetpolda (Gəncə) Türk Ədəmi-Mərkəziyyət Partiyasının təşkili.
**3 mart 1917** - Cənubi Qafqazda mülki hakimiyyətin yeni yaradılmış Xüsusi Zaqafqaziya Komitəsinə - OZAKOM-a verilməsi.
**5 mart 1917** - Bakı şəhəri ictimai təşkilatlarının İcraiyyə Komitəsinin təşkili.
**6-7 mart 1917** - Bakı əsgər, fəhlə və zabit deputatları Sovetlərinin təşkili.
**9 mart 1917** - Müvəqqəti hökumət tərəfindən Qafqaz Canişinliyinin ləğvi və Xüsusi Zaqafqaziya Komitəsinin təşkili.
**27 mart 1917** - Müsəlman ictimai təşkilatları Şurası və onun Müvəqqəti Komitəsinin təşkili.
**15-20 aprel 1917** - Bakıda Qafqaz müsəlmanları qurultayı.
**1-8 may 1917** - Moskvada I Ümumrusiya müsəlman qurultayı keçirilib.
**20 iyun 1917** - "Müsavat" və "Türk Ədəmi-Mərkəziyyət" partiyalarının Türk Ədəmi-Mərkəziyyət "Müsavat" Partiyası adı altında birləşməsi.
**22 oktyabr 1917** - Bakı Fəhlə və Əsgər Deputatları Sovetinə seçkilər keçirilib. "Müsavat" partiyası birinci (40 faiz), eserlər - "inqilabçı sosialistlər" ikinci (30 faiz) yeri tutublar. Üçüncü (15-16 faiz) olan bolşeviklər seçkinin nəticəsini tanımayıb.
**25-31 oktyabr 1917** - Türk Ədəmi-Mərkəziyyət "Müsavat" Partiyasının I qurultayı. Azərbaycanın müstəqilliyi uğrunda mübarizə partiyanın əsas məramı elan edilib. Məhəmməd Əmin Rəsulzadə partiyanın sədri seçilib.
**25 oktyabr 1917** - Petroqradda bolşevik çevrilişi (Oktyabr sosialist inqilabı) baş verib. Müvəqqəti hökumət devrilib.

# Milli Şura və Cümhuriyyət Parlamenti

***1918-ci ilin fevral-may aylarında Tiflisdə Zaqafqaziya Seyminin tərkibində fəaliyyət göstərən azərbaycanlı (müsəlman) deputatlar fraksiyası Seymin dağılmasından sonra həmin ilin 27 may tarixində Azərbaycan Milli Şurasına çevrildi. 44 nəfərlik Milli Şura faktiki olaraq Azərbaycanın dövlətçilik tarixində ilk parlament təsisatı oldu. Məhəmməd Əmin Rəsulzadənin rəhbərlik etdiyi Milli Şurada dörd qrup var idi: "Müsavat" partiyası və ona qoşulan demokratik bitərəflər qrupu, "Müsəlman sosialist bloku", "Rusiyada müsəlmanlıq" ("İttihad"), "Hümmət" (menşevik) partiyaları.***






**27 oktyabr 1917** - Bakı Fəhlə və Əsgər Deputatları Sovetinin hakimiyyət məsələsinə həsr edilmiş fövqəladə iclası. Petroqraddakı üsyandan ruhlanan Bakı bolşeviklərinin İcraiyyə Komitəsində (hökumət) yerlərin çoxunu zorla ələ keçirmək cəhdi.

**31 oktyabr 1917** - Bakı Fəhlə və Əsgər Deputatları Sovetinin yeganə qanunverici, inqilabi və yerli orqan elan edilməsi.

**2 noyabr 1917** - Bolşeviklərin Bakı Soveti İcraiyyə Komitəsi rəhbərliyini ələ keçirməsi. "Müsavat"ın buna etiraz olaraq Bakı Sovetinə girməkdən imtina etməsi.

**15 noyabr 1917** - Zaqafqaziya Komissarlığının təşkili.

**22 noyabr 1917** - Bakı şəhəri ictimai təşkilatlarının İcraiyyə Komitəsinin ləğv edilməsi.

**26 noyabr 1917** - Azərbaycanda və bütün Cənubi Qafqazda Ümumrusiya Müəssislər Məclisinə seçkilər keçirilməsi.

**5 dekabr 1917** - Osmanlı ordusu ilə Qafqaz cəbhəsi komandanlığı arasında Ərzincanda barışıq imzalanması.

**12-13 dekabr 1917** - Bakı Fəhlə və Əsgər Deputatları Sovetinə yeni seçkilərin keçirilməsi, bolşeviklərin yerlərin əksəriyyətini əldə etməsi.

**17 dekabr 1917** - Zaqafqaziya Komissarlığı tərəfindən "Torpaq haqqında dekret"in qəbul olunması.

**18 dekabr 1917** - V.İ.Lenin tərəfindən S.Şaumyanın Qafqazın fövqəladə komissarı təyin edilməsi.

**Yanvar 1918** - "Rusiyada müsəlmanlıq" Partiyası ilə Gəncədəki "İttihad cəmiyyəti"nin qovuşması nəticəsində vahid "İttihadi-İslam Rusiyada müsəlmanlıq" Partiyasının yaradılması.

**5 yanvar 1918** - Ümumrusiya Müəssislər Məclisinin dağıdılması.

**7-9 yanvar 1918** - Qafqaz cəbhəsindən çıxarılan Rusiya ordusu hissələri ilə Zaqafqaziya hərbi hissələri arasında Şamxor (Şəmkir) və Dəllər stansiyasında toqquşma.

Milli Şura və Cümhuriyyətin ilk hökuməti 1918-ci il iyunun 16-dək Tiflisdə fəaliyyət göstərmiş, həmin tarixdən Gəncəyə köçmüşdü. İyunun 17-də Milli Şuranın iclasında ölkədəki ağır vəziyyət (Bakının daşnak-bolşeviklərin nəzarətində olması, "Bakı Soveti"nin milli hökumətə qarşı savaşa başlaması) nəzərə alınaraq Milli Şuranın fəaliyyətinin dayandırılması, qanunverici və icra hakimiyyətinin yeni yaradılacaq (müvəqqəti) hökumətə verilməsi haqqında iki qətnamə qəbul edildi. Qərara əsasən, 6 aydan gec olmayaraq yeni parlament formalaşmalı idi. 23 iyunda hökumət ölkədə hərbi vəziyyətin elan edilməsi haqqında qərar qəbul etdi.

Sentyabrda Bakının azad edilməsi, hökumətin Gəncədən paytaxta köçməsindən sonra müvafiq dövlət təsisatlarının, o cümlədən Parlamentin təşkili ilə bağlı zəruri addımlar atıldı. 1918-ci il noyabrın 16-da Azərbaycan Milli Şurası Bakıda yenidən toplandı.

Milli Şuranın noyabrın 19-da keçirilən iclasında Cümhuriyyətin Parlamentinin - Müəssislər Məclisinin çağırılması barədə qərar qəbul edildi. Parlamentin ölkə üzrə hər 24 min nəfərdən bir nümayəndə hesabı ilə 120 nəfərdən ibarət olması qərara alınır. Azərbaycan Parlamenti milli və dini tolerantlıq baxımından hətta Qərb ölkələri üçün bir model idi. Yerlər aşağıdakı kimi bölüşdürülmüşdü: türk-müsəlman əhali - 80; ermənilər - 21; ruslar - 10; alman, yəhudi, gürcü və polyak icması - hərəsi 1; Bakı həmkarlar ittifaqı - 3; Bakı neft sənayeçiləri Şurası və Ticarət-sənaye ittifaqı - 2. Türk-müsəlman deputatların 44-ü keçmiş Milli Şura üzvləri idi, qalan 36 nəfər ayrı-ayrı şəhər və qəzalar üzrə əlavə göndərilən nümayəndələr idi.

Cümhuriyyət Parlamentinin çağırılması ilə əlaqədar Milli Şura adından Rəsulzadənin imzası ilə 1918-ci il noyabrın 29-da Azərbaycan və rus dillərində "Bütün Azərbaycan əhalisinə!" müraciətnaməsi dərc edilir və bununla Milli Şura fəaliyyətini başa vurur.

* * *

1918-ci il dekabrın 7-də gündüz saat 1-də Hacı Zeynalabdin Tağıyevin keçmiş Qızlar məktəbinin binasında (indiki Əlyazmalar İnstitutunun binası) Azərbaycan Cümhuriyyəti Parlamentinin ilk iclası açılır. Rəsulzadə açılışda parlaq nitq söyləyir: "...müstəqil Azərbaycanı təmsil edən o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtidari-əhrarinəsini təmsil edən bu üç boyalı bayraq daima başlarımızın üstündə ehtizaz edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir". Bu sözlərdən sonra bütün zal ayağa qalxmış, gur alqışlar uzun müddət davam etmişdi.

"Müsavat" fraksiyasının təklifi ilə Əlimərdan bəy Topçubaşov parlamentin sədri, Həsən bəy Ağayev və Məmmədyusif Cəfərov sədrin müavinləri seçilirlər. Topçubaşov İstanbulda olduğu üçün ilk iclasa Həsən bəy Ağayev sədrlik edir. 1918-ci il dekabrın 28-də hökumət üzvlərinin iştirakı ilə keçirilən növbəti iclasda Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Parisə (Azərbaycanın müstəqilliyinin tanıdılması üçün) xüsusi nümayəndə heyətinin göndərilməsi barədə qərar qəbul edilir.

Parlamentdə 11 fraksiya və qrup fəaliyyət göstərirdi. "Müsavat" və bitərəflər fraksiyası 38 nəfərdən ibarət idi. "İttihad" və "Sosialistlər" hərəyə 13, qalanları daha az sayda yerə sahib idi. Ümumilikdə 31 yer ayrılan erməni və rus nümayəndələri açılışda və sonrakı iclaslarda iştirak etməmişdilər. Ruslar 1919-cu il yanvarın 31-dən, ermənilər isə həmin ilin fevralından, onlara ayrılmış tam kvotada olmasa da, iclaslara qatılmışdılar.

* * *

Parlamentin iclasları Azərbaycan dilində aparılırdı. Ancaq başqa millətlərin nümayəndələri rus dilində danışa bilərdilər. 17 aylıq fəaliyyəti dövründə 145 iclas keçirilmiş, yetərsay olmadığı üçün iclaslardan 15-i baş tutmamışdı. Bu müddətdə müzakirəyə 270-dən çox qanun layihəsi çıxarılmış, onlardan 230-u qəbul olunmuşdu.

Son iclas 1920-ci il aprelin 27-də keçirildi. Bolşevik Rusiyasının XI Qızıl ordusu artıq Bakının girişində dayanmışdı. Hakimiyyətin təhvil verilməsi barədə bolşeviklərin irəli sürdüyü ultimatumla bağlı qızğın müzakirələr saat 23-dək davam etdi... Parlament və onunla bərabər Cümhuriyyət süqut etdi.

## AZƏRBAYCAN MİLLİ ŞURASININ TƏRKİBİ

***"Müsavat" və demokratik bitərəflər qrupu***

Məmmədyusif Cəfərov
Əlimərdan bəy Topçubaşov
Məhəmməd Əmin Rəsulzadə
Nəsib bəy Yusifbəyli
Həsən bəy Ağayev
Xosrov Paşa bəy Sultanov
Məmmədhəsən Hacınski
Mir Hidayət Seyidov
Fətəli xan Xoyski
Xəlil bəy Xasməmmədov
Qazı Əhməd Məhəmmədbəyov
Aslan bəy Qardaşov
Şəfi bəy Rüstəmbəyli
Cavad bəy Məlik-Yeqanov
Mustafa Mahmudov
Mehdi bəy Hacıbababəyov
Hacı Molla Səlim Axundzadə
Mehdi bəy Hacınski
Xudadat bəy Məlikaslanov
Müseyib Əxicanov
Lütfəli bəy Behbudov
Firidun bəy Köçərli
İbrahim ağa Vəkilov
Həmid bəy Şahtaxtinski
Rəhim Vəkilov
Ələsgər Mahmudbəyov
Yusif Əfəndizadə
Mirzə Cəlal Yusifzadə
Məmmədrza ağa Vəkilov
İslam bəy Qəbulov

***Müsəlman sosialist bloku***

İbrahim bəy Heydərov
Əlixan Qantəmir
Aslan bəy Səfikürdski
Əhməd Cövdət Pepinov
Bağır Rzayev
Camo Hacınski
Məhəmməd Məhərrəmov

***"Rusiyada müsəlmanlıq" ("İttihad")***

Sultanməcid Qənizadə
Mir Yaqub Mehdiyev
Heybətqulu Məmmədbəyov

***Müsəlman sosial-demokrat menşevik partiyası ("Hümmət")***

Cəfər Axundov
İbrahim Əbilov
Əkbər ağa Şeyxülislamov
Səmədağa Ağamalıoğlu

# 26 iyunda başlanan yol...

**Milli Ordunun yaranması Azərbaycan xalqının milli dövlətçilik və milli özünütəsdiq tarixinin ən önəmli mərhələlərindən biri idi. Məhz güclü, nizami ordu istiqlalın bütün ölkə ərazisində qələbə çalmasını təmin edə bilərdi. Bu qələbədə Azərbaycana ən böyük dəstəyi isə qardaş Türkiyə verdi.**



İyunun əvvəlində Şaumyanın başçılıq etdiyi Bakı Komissarları Soveti əksəriyyəti ermənilərdən ibarət olan 20 minə yaxın döyüşçü ilə Cümhuriyyətə qarşı savaşa başlamışdı. Məqsəd milli hökumətin Tiflisdən Gəncəyə köçməsinə mane olmaq idi. Lakin buna nail olmadılar. Osmanlının beşinci diviziyası (Qafqaz diviziyası) Mürsəl paşanın rəhbərliyi ilə Gümrü-Dilican-Ağstafa yolunu döyüşlə keçərək Gəncəyə gəlib çıxdı, hökumətin şəhərə gəlməsini təmin etdi. İyunun 16-da milli hökumət Gəncəyə köçdü.

Cümhuriyyətin ilk hökumət kabinetində Hərbi Nazirlik də nəzərdə tutulmuş və Xosrov bəy Sultanov hərbi nazir təsdiq edilmişdi. İyunun 17-də yenidən təşkil edilən hökumətdə bu vəzifə yer almadı və faktiki müharibə vəziyyəti nəzərə alınaraq keçid dövrü üçün hərbi sahəyə rəhbərlik Qafqaz İslam Ordusunun komandanı Nuru paşaya həvalə olundu. Hökumət strukturunda isə Qafqaz İslam Ordusu komandanlığı ilə əlaqələri nizamlayacaq hərbi işlər üzrə baş müvəkkil vəzifəsi (İsmayıl xan Ziyadxanov) təsdiq edildi.



İyunun 26-da Nazirlər Şurası ilk hərbi korpusun (diviziya statusunda) yaradılması barədə qərar qəbul etdi. Keçmiş çar ordusunda general Əliağa Şıxlinskinin başçılıq etdiyi müsəlman korpusu əsasında Milli Ordunun təməli qoyuldu.

* * *

Azərbaycan milli korpusunun və Osmanlının beşinci diviziyasının birləşmiş qüvvələri (Qafqaz İslam Ordusu) Nuru paşanın komandanlığı altında Gəncədən Bakıya zəfər yürüşünə başladı. Orduya türklərdən və azərbaycanlılardan ibarət 18 min əsgər və zabit daxil idi. İki həftə davam edən qanlı döyüşlər Azərbaycan və Osmanlı qoşunlarının qələbəsi ilə nəticələndi. Göyçay və Şamaxı ətrafında Bakı Soveti qoşunlarına ağır zərbə vuruldu.

Avqustun 11-də hökumət ümumi hərbi səfərbərlik elan etdi və 1894-1899-cu il təvəllüdlü bütün vətəndaşlar hərbi xidmətə çağırıldı. Sentyabrın 15-də Bakıya həlledici hücum başlandı, şəhər azad edildi. Bu döyüşlərdə Azərbaycan və Osmanlı qoşunları ümumilikdə 4 min şəhid (o cümlədən türk hərbçilər 1130 nəfər) vermişdi.

Lakin türk əsgərləri tezliklə Azərbaycanı tərk etməyə məcbur oldu. 1918-ci il oktyabrın 30-da imzalanan Mudros müqaviləsinə görə I Dünya müharibəsində məğlub sayılan Osmanlı qoşunları Bakını tərk etməli, şəhərə qalib Antantanı təmsil edən ingilis qoşunları daxil olmalı idi. Milli hökumətin bu qərarı qəbul etməkdən başqa çarəsi yox idi. Noyabrın 17-də general Tomsonun hərbi dəstələri Bakıya daxil oldu. Bu arada Cümhuriyyətin Hərbi Nazirliyi fəaliyyətə başladı. Keçmiş çar Rusiyası ordusunun generallarından Səməd bəy Mehmandarov hərbi nazir, Əliağa Şıxlinski hərbi nazirin müavini, general Süleyman Sulkeviç Baş Qərargah rəisi təyin edildilər.

* * *

1919-cu il milli ordu quruculuğunda həlledici mərhələ oldu. Ordunun yaradılması prosesi 1920-ci ilin yanvarında əsasən başa çatdırıldı. 40 min nəfərlik nizami ordunun 30 mini piyada, 10 mini isə süvari qoşun hissələrindən ibarət idi. 1919-cu ilin yayında isə, yenə I Dünya müharibəsinin nəticələrinə əsasən, ingilislər Bakını tərk etməli oldular. Şəhərin idarəçiliyi Azərbaycan hökumətinə təhvil verildi. Cümhuriyyətin ordu quruculuğunda təcrübəli general və zabitlər - İbrahim ağa Usubov, Həmid Qaytabaşı, Kazım Qacar, Cavad bəy Şıxlinski, Həbib bəy Səlimov və digərlərinin böyük əməyi olmuşdu.

Lakin 1919-cu ilin sonundan Azərbaycana şimaldan hərbi təhdidlər atmağa başlamışdı. "Vahid Rusiya"nı bərpa etmək iddiasında olan general Denikinin qoşunları Cənubi Qafqaza yaxınlaşırdı. Denikinlə müharibə aparan rus bolşeviklərinin də gözü Azərbaycanda idi. Bu arada daşnak hökuməti Moskvada gizli danışıqlar apararaq Azərbaycandan qoparılacaq ərazi güzəştləri müqabilində Cümhuriyyət hökumətini devirməyə yardımçı olacağını bolşeviklərə vəd etdi.

Odur ki, 1920-ci ilin əvvəlindən Azərbaycan Ordusunun, demək olar ki, bütün qüvvələri Qarabağ, Zəngəzur və Gəncə istiqamətində ermənilərlə savaşda idi, ölkənin şimal sərhədləri isə müdafiəsiz qalmışdı. Bakıda isə hökumət daxilində və parlamentdə böhran dərinləşirdi. 1920-ci ilin aprelində bolşevik Rusiyasının XI ordusu Azərbaycan sərhədlərinə yaxınlaşdı və A.Mikoyan başda olmaqla Bakı bolşevikləri "Azərbaycan xalqı adından" rus ordusunu Bakıya çağırdılar. Aprelin 27-də Bakı buxtasına yan alan XI ordunun hərbi gəmiləri artıq toplarını parlament binasına tuşlamışdı...

Gəncəbasarda və Qarabağda Cümhuriyyətin ordu hissələri ilə rus qoşunları arasında toqquşmalar iyunun ortasınadək sürdü. Amma qüvvələr bərabər deyildi. Bolşevik hökuməti 1920-ci il mayın 7-də Azərbaycanda ordu və donanmanın yenidən təşkil edilməsi barədə dekret verdi. Milli Ordunun ləğvindən sonra 21 generaldan 15-i güllələndi, komandirlərin böyük hissəsi repressiyaya məruz qaldı...




**23 fevral 1918** - Tiflisdə Zaqafqaziya Seyminin (sədr - gürcü sosial-demokratı (menşevik) Nikolay Çxeidze) açılması, Yevgeni Gegeçkorinin başçılığı ilə Zaqafqaziya hökumətinin təşkili.
**7 mart 1918** - Zaqafqaziya Seymi tərəfindən torpaq haqqında qanunun qəbulu.
**14-20 mart 1918** - Zaqafqaziya Seymi və Türkiyə (Osmanlı) arasında Trabzon konfransının keçirilməsi.
**Mart-aprel 1918** - Bolşevik-daşnak qüvvələri tərəfindən azərbaycanlılara qarşı soyqırımı.
**Martın ortaları 1918** - Cavad qəzasında azərbaycanlıların soyqırımı.
**27-29 mart 1918** - Şamaxı qəzasında azərbaycanlıların soyqırımı.
**30 mart - 1 aprel 1918** - Bakı şəhərində azərbaycanlıların soyqırımı.
**13 aprel 1918** - Zaqafqaziya Seymi tərəfindən Türkiyəyə müharibə elan edilməsi.
**22 aprel 1918** - Zaqafqaziya Seymi tərəfindən Zaqafqaziyanın müstəqilliyinin elan edilməsi.
**25 aprel 1918** - Bakı Soveti hökumətinin - Xalq Komissarları Şurasının (sədr S.Şaumyan) təşkili.
**26 aprel 1918** - Zaqafqaziya Seymi tərəfindən Akaki Çxenkelinin başçılığı ilə yeni Zaqafqaziya hökumətinin təsdiqi.
**30 aprel 1918** - Bakı Şəhər Dumasının İnqilabi Müdafiə Komitəsi tərəfindən ləğvi.
**1 may 1918** - Qubanın Bakı Soveti qoşunları tərəfindən tutulması. Quba soyqırımının başlanması.
**11 may 1918** - Zaqafqaziya Seymi və Osmanlı arasında Batum sülh konfransının başlanması.
**25 may 1918** - Tiflisdə Zaqafqaziya Seyminin son iclası. Gürcü heyəti federasiyadan çıxdıqlarını elan edib. Azərbaycanlı deputatlar buna etiraz etməyib, Seymin buraxılması, Zaqafqaziya Federativ Respublikasının ləğvi barədə qərar qəbul olunub.
**26 may 1918** - Bakı qəzası kənd deputatları sovetlərinin qurultayı.
**27 may 1918** - Tiflisdə Azərbaycan Milli Şurasının təşkili.

# Cümhuriyyətin

## Hökumət kabinetlərinin beş dəfə qurulub dağılması dövrün siyasi mənzərəsinin göstəricisi idi

**Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq ömrünün nə qədər mürəkkəb və ağır bir şəraitdə keçdiyini bu müddətdə beş (hər biri də koalisiya şəklində) hökumət kabinetinin bir-birini əvəz etməsi faktında da görmək mümkündür. Bununla belə, o qədər gərginlik və ixtilaflar içində belə hökumət siyasi, iqtisadi, hərbi, sosial, mədəni-maarif və digər sahələrdə çox mühüm qərarlar qəbul və icra etmişdi.**
**1918-ci ilin 28 mayında Tiflisdə Cümhuriyyətin elanından sonra qurulan ilk (müvəqqəti) hökumətin tərkibi doqquz nəfərdən ibarət idi. Kabinetdə Milli Şuranın siyasi spektri ümumən əksini tapmışdı.**






**28 may 1918** - Azərbaycan Milli Şurası tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi. "İstiqlal Bəyannaməsi"nin (Əqdnamə) qəbul edilməsi.
**28 may - 17 iyun 1918** - Fətəli xan Xoyskinin başçılığı altında Cümhuriyyətin I hökumət kabinetinin fəaliyyət dövrü.
**4 iyun 1918** - Batumda Azərbaycan və Osmanlı hökumətləri arasında "Sülh və dostluq müqaviləsi"nin imzalanması.
**5 iyun 1918** - Türk ordusunun Yelizavetpola (Gəncəyə) daxil olması.
**16 iyun 1918** - Azərbaycan Cümhuriyyəti Milli Şurasının və hökumətinin Tiflisdən Gəncəyə köçməsi.
**17 iyun 1918** - Milli Şuranın fəaliyyətini müvəqqəti dayandırması. Keçid dövrü üçün qanunverici və icraedici funksiyaların hökumətə verilməsi.
**17 iyun - 7 dekabr 1918** - Fətəli xan Xoyskinin başçılığı altında II hökumət kabinetinin fəaliyyət dövrü.
**23 iyun 1918** - Azərbaycanda hərbi vəziyyətin elan edilməsi.
**26 iyun 1918** - Azərbaycan Milli Ordusunun ilk əlahiddə diviziyasının yaradılması. Milli diviziya və Osmanlının köməyə gələn Qafqaz İslam Ordusunun Nuru paşanın komandanlığı altında birləşməsi.
**26 iyun 1918** - Zaqatala quberniyasının yaradılması.
**27 iyun 1918** - Qafqaz İslam Ordusunun Göyçay yaxınlığında bolşeviklərin Bakı Soveti qoşunları üzərində qələbəsi.
**27 iyun 1918** - Azərbaycan (türk) dilinin Cümhuriyyətin dövlət dili elan edilməsi.
**10 iyul 1918** - Qafqaz İslam Ordusunun Kürdəmir və Şamaxını Bakı Soveti qoşunlarından azad etməsi.
**11 iyul 1918** - Azərbaycan hökumətinin ümumi səfərbərlik haqqında qərar qəbul etməsi.
**25 iyul 1918** - Bakı Soveti tərəfindən ingilislərin Bakıya dəvət olunması haqqında qərarın qəbul edilməsi.
**30 iyul 1918** - Çar Rusiyasının istilası zamanı Yelizavetpol adlandırılmış Gəncə şəhərinin tarixi adının bərpa edilməsi.
**31 iyul 1918** - Bakı Xalq Komissarları Şurasının süqutu.

### Cümhuriyyətin birinci hökumət kabineti

*(28 may - 17 iyun 1918)*

1. Nazirlər Şurasının sədri və daxili işlər naziri - Fətəli xan Xoyski (bitərəf).
2. Hərbi nazir - Xosrov bəy Sultanov ("Müsavat").
3. Xarici işlər naziri - Məmmədhəsən Hacınski ("Müsavat").
4. Maliyyə və xalq maarifi naziri - Nəsib bəy Yusifbəyli ("Müsavat").
5. Ədliyyə naziri - Xəlil bəy Xasməmmədov ("Müsavat").
6. Ticarət və sənaye naziri - Məmmədyusif Cəfərov (bitərəf, sonra "Müsavat").
7. Əkinçilik və əmək naziri - Əkbər ağa Şeyxülislamov ("Hümmət").
8. Yollar, poçt və teleqraf naziri - Xudadat bəy Məlikaslanov (müsəlman-sosialist bloku).
9. Dövlət nəzarəti naziri - Camo bəy Hacınski (müsəlman-sosialist bloku).

Cümhuriyyətin Nazirlər Şurası 1918-ci il mayın 30-da radioqram vasitəsilə Azərbaycanın öz istiqlaliyyətini elan etməsi barədə dünyanın əsas siyasi mərkəzlərinə rəsmi bəyanatlar göndərdi. Radioqramda yeni yaradılan hökumətin müvəqqəti iqamət yeri olaraq Yelizavetpol (Gəncə) şəhəri qeyd olunmuşdu.

Hökumət 1918-ci il iyunun 16-da Gəncəyə köçdü. İyunun 17-də Milli Şuranın iclasında Fətəli xan Xoyski Tiflisdə təşkil etdiyi hökumətin kabinetinin fəaliyyəti barədə qısa məlumat verərək kabinetin istefasını qəbul etməyi xahiş etdi.

Milli Şura həmin gün Fətəli xan Xoyskinin sədrliyi ilə ikinci (yenə müvəqqəti) hökumət kabinetinin tərkibini təsdiq etdi və öz fəaliyyətini dayandırdı. Qanunverici hakimiyyətin funksiyaları müvəqqəti olaraq hökumətə verildi.

### Cümhuriyyətin ikinci hökumət kabineti

*(17 iyun - 7 dekabr 1918)*

1. Nazirlər Şurasının sədri və ədliyyə naziri - Fətəli xan Xoyski (bitərəf).
2. Xarici işlər naziri (eyni zamanda dövlət nəzarəti naziri) - Məmmədhəsən Hacınski ("Müsavat").
3. Xalq maarifi və dini etiqad naziri - Nəsib bəy Yusifbəyli ("Müsavat").
4. Daxili işlər naziri - Behbud xan Cavanşir (bitərəf).
5. Əkinçilik naziri - Xosrov bəy Sultanov ("Müsavat").
6. Səhiyyə və sosial təminat naziri - Xudadat bəy Rəfibəyli (bitərəf).
7. Yollar naziri (eyni zamanda poçt və teleqraf naziri) - Xudadat bəy Məlikaslanov (bitərəf).
8. Ticarət və sənaye naziri - Ağa Aşurov (bitərəf).
9. Maliyyə naziri - Əbdüləli bəy Əmircanov (bitərəf).
10. Portfelsiz nazir - Əlimərdan bəy Topçubaşov (bitərəf).
11. Portfelsiz nazir - Musa bəy Rəfiyev ("Müsavat").
12. Portfelsiz nazir - Xəlil bəy Xasməmmədov ("Müsavat").

1918-ci il sentyabrın 15-də Bakı daşnak-bolşevik qüvvələrindən azad edildi. Sentyabrın 17-də hökumət Bakıya köçdü.

1918-ci il oktyabrın 6-da Fətəli xan Xoyskinin təşkil etdiyi ikinci hökumət kabinetində dəyişikliklər edildi və vəzifələr yenidən bölüşdürüldü.

### İkinci hökumət kabinetinin yenilənmiş tərkibi

1. Nazirlər Şurasının sədri - Fətəli xan Xoyski (bitərəf).
2. Ticarət, sənaye və daxili işlər naziri - Behbud xan Cavanşir (bitərəf).
3. Xarici işlər naziri - Əlimərdan bəy Topçubaşov (bitərəf).
4. Maliyyə naziri - Məmmədhəsən Hacınski ("Müsavat").
5. Xalq maarifi naziri - Nəsib bəy Yusifbəyli ("Müsavat").
6. Yollar naziri - Xudadat bəy Məlikaslanov (bitərəf).
7. Əkinçilik və dövlət əmlakı naziri - Xosrov bəy Sultanov ("Müsavat").
8. Xalq səhiyyəsi naziri - Xudadat bəy Rəfibəyli (bitərəf).
9. Poçt-teleqraf naziri - Ağa Aşurov (bitərəf).
10. Sosial təminat və dini etiqad naziri - Musa bəy Rəfiyev ("Müsavat").
11. Hərbi işlər üzrə müvəkkil - İsmayıl xan Ziyadxanov (bitərəf).
12. Dövlət nəzarəti naziri - Əbdüləli bəy Əmircanov (bitərəf).

Parlamentin - Müəssislər Məclisinin (Məclisi-Məbusan) çağırılması işinin təşkili üçün Nazirlər Şurasının sədri, daxili işlər və xalq maarifi nazirlərindən ibarət komissiya yaradıldı. Noyabrın 9-da Nazirlər Şurası Fətəli xan Xoyskinin təqdimatı ilə ölkənin üçrəngli bayrağını təsdiq etdi.

Dekabrın 7-də Cümhuriyyət Parlamentinin ilk iclasında Fətəli xan Xoyski Nazirlər Şurasının çox mürəkkəb tarixi şəraitdə görülən işlər barədə hesabat verdi, sonda kabinetin istefasını qəbul etməyi Parlamentdən xahiş etdi. Parlament üçüncü hökumət kabinetinin təşkilini yenə də ona tapşırdı.

Dekabrın 26-da Fətəli xan Xoyski üçüncü hökumət kabinetinin proqramı və tərkibi barədə Parlamentdə çıxış etdi. Hökumətdə portfel sayı 14-ə çatdırılmış, o cümlədən yeni tərkibin daha geniş etimad qazanması üçün Parlamentdəki rus fraksiyasına üç nazir postu verilmişdi.

### Cümhuriyyətin üçüncü hökumət kabineti

*(26 dekabr 1918 - 14 aprel 1919)*

1. Nazirlər Şurasının sədri və xarici işlər naziri - Fətəli xan Xoyski (bitərəf).
2. Daxili işlər naziri - Xəlil bəy Xasməmmədov ("Müsavat").
3. Maliyyə naziri - İ.Protasov (Slavyan-Rus Cəmiyyəti).
4. Yollar naziri - Xudadat bəy Məlikaslanov (bitərəf).

# hökumətləri

5. Ədliyyə naziri - Teymur bəy Makinski.
6. Maarif və dini etiqad naziri - Nəsib bəy Yusifbəyli ("Müsavat")
7. Poçt-teleqraf və əmək naziri - Aslan bəy Səfikürdski (Sosialist bloku)
8. Hərbi nazir - Səməd bəy Mehmandarov (bitərəf).
9. Sosial təminat naziri - Rüstəm xan Xoyski (bitərəf).
10. Xalq səhiyyəsi naziri - Yevsey Gindes (Slavyan-Rus Cəmiyyəti).
11. Ticarət və sənaye naziri - Mirzə Əsədullayev (bitərəf).
12. Dövlət nəzarəti naziri - Məmmədhəsən Hacınski (16.01.1919 tarixindən - Əlağa Həsənov).
13. Ərzaq naziri - Konstantin Lizqar (Slavyan-Rus Cəmiyyəti).
14. Əkinçilik və dövlət əmlakı naziri - Xosrov bəy Sultanov ("Müsavat").

Parlamentin 1919-cu ilin yanvar-fevral aylarında keçirilən iclaslarında hökumət kəskin surətdə tənqid edildi. Haqsız tənqidlərlə barışmayan Fətəli xan Xoyski Nazirlər Şurasının istefası barədə Parlamentə məktub göndərdi. Parlamentin fevralın 25-də keçirilmiş iclasında istefa qəbul olundu və yeni kabinetin təşkilinə qədər onlardan öz fəaliyyətlərini davam etdirmək xahiş olundu.



Dördüncü hökumət kabinetinin təşkili Nəsib bəy Yusifbəyliyə tapşırıldı. 1919-cu il aprelin 14-də o, yeni yaratdığı kabinetin üzvlərini Parlamentə təqdim etdi. Nəsib bəy Yusifbəyli özü Nazirlər Şurasının sədri və daxili işlər naziri vəzifələrini tutdu. Bu dəfə nazirlərin sayı 15-ə çatdırılmışdı. Həmçinin rusların və ermənilərin Cümhuriyyət əleyhinə çıxışlarını səngitmək məqsədilə onlara üç nazir postu verilmişdi.

**Cümhuriyyətin dördüncü hökumət kabineti**

*(14 aprel - 22 dekabr 1919)*

1. Nazirlər Şurasının sədri və daxili işlər naziri - Nəsib bəy Yusifbəyli (bitərəf).
2. Maliyyə naziri - Əlağa Həsənov (bitərəf).
3. Ticarət və sənaye naziri - Ağa Əminov (bitərəf).
4. Xarici işlər naziri - Məmmədyusif Cəfərov ("Müsavat").
5. Yollar naziri - Xudadat bəy Məlikaslanov (bitərəf).
6. Poçt-teleqraf naziri - Camo bəy Hacınski (Sosialist).
7. Hərbi nazir - Səməd bəy Mehmandarov (bitərəf).
8. Sosial-təminat naziri - Viktor Klenevski.
9. Səhiyyə naziri - A.Dastakov.
10. Maarif və dini etiqad naziri - Rəşid xan Qaplanov ("Əhrar").
11. Əkinçilik və dövlət əmlakı naziri - Aslan bəy Qardaşov ("Əhrar").
12. Portfelsiz nazir - X.Amaspür.
13. Dövlət nəzarəti naziri - Nəriman bəy Nərimanbəyli ("Müsavat")
14. Ədliyyə və əmək naziri - Aslan bəy Səfikürdski (Sosialist)
15. Daxili işlər naziri - Məmmədhəsən Hacınski ("Müsavat").

Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi hökumət öz fəaliyyəti dövründə xaricdən Denikin ordusu, daxildən isə bolşeviklərin Azərbaycana qarşı törətdikləri təhlükələrlə üzləşmişdi. Bununla əlaqədar olaraq 1919-cu il iyunun 9-da Nazirlər Şurasının qərarı ilə 5 nəfərdən ibarət Dövlət Müdafiə Komitəsi yaradıldı. Komitənin tərkibinə baş nazir, hərbi, yollar, xarici işlər və ədliyyə nazirləri daxil edildilər. Amma kabinetdə ixtilaf və fikir ayrılıqları davam edirdi. Siyasi fəaliyyətə "Hümmət"də (menşevik) başlayıb sonra "Müsavat"a keçən Məmmədhəsən Hacınski artıq bolşeviklərə doğru meyllənməyə başlamışdı və oktyabrın 9-da daxili işlər naziri postundan istefa verdi. Dekabrın 22-də dördüncü kabinet də ömrünü başa vurdu.

Parlament Nazirlər Şurasının yeni tərkibini formalaşdırmağı yenə Nəsib bəy Yusifbəyliyə həvalə etdi. Özünün ikinci, Cümhuriyyətin sayca beşinci hökumət kabinetini təşkil edən Nəsib bəy Yusifbəyli Nazirlər Şurasına 1920-ci il martın axırına qədər başçılıq etdi. Beşinci hökumətdə portfel sayı 12-yə enmiş, Cümhuriyyətin süqutu üçün səylərini birləşdirən ruslar və ermənilər kabinetə daxil olmaqdan imtina etmişdilər.

**Cümhuriyyətin beşinci hökumət kabineti**

*(22 dekabr 1919 - 30 mart 1920)*

1. Nazirlər Şurasının sədri - Nəsib bəy Yusifbəyli ("Müsavat").
2. Xarici işlər naziri - Fətəli xan Xoyski - (bitərəf).
3. Hərbi nazir - Səməd bəy Mehmandarov (bitərəf).
4. Daxili işlər naziri - Məmmədhəsən Hacınski ("Müsavat").
5. Ədliyyə naziri - Xəlil bəy Xasməmmədov ("Müsavat").
6. Maliyyə naziri - Rəşid xan Qaplanov ("Əhrar").
7. Maarif və dini etiqad naziri - Həmid bəy Şahtaxtinski ("İttihad").
8. Əmək və əkinçilik naziri - Əhməd bəy Pepinov (Sosialist bloku).
9. Yollar naziri (eyni zamanda müvəqqəti ticarət, sənaye və ərzaq naziri) - Xudadat bəy Məlikaslanov (bitərəf).
10. Poçt-teleqraf naziri - Camo bəy Hacınski (Sosialist).
11. İctimai təminat və səhiyyə naziri - Musa bəy Rəfiyev ("Müsavat").
12. Dövlət nəzarəti naziri - Heybətqulu bəy Məmmədbəyov ("İttihad").

1920-ci il fevralın 18-dən Mustafa bəy Vəkilov daxili işlər naziri, Məmmədhəsən Hacınski ticarət, sənaye və ərzaq naziri, martın 5-dən isə Nurməmməd Şahsuvarov xalq maarifi və dini etiqad naziri təyin edildilər.

Martın sonunda Sovet Rusiyası tərəfindən xarici təhlükənin artdığı və işğal üçün zəmin hazırlayan daxili qüvvələrin fəallaşdığı şəraitdə Nəsib bəy Yusifbəyli və kabineti istefa verməli oldu. Hökumətin yenidən təşkili Məmmədhəsən Hacınskiyə tapşırıldı. Onun fraksiyalarla apardığı danışıqlar müsbət nəticə vermədi. Əslində, o, hökuməti qurmaq fikrində deyildi. Aprelin 22-də Hacınski parlamentin müvəqqəti spikeri Məmmədyusif Cəfərova hökumətin formalaşdırılmasının mümkün olmadığı haqda məlumat verir və həmin gün "Müsavat"ı tərk edərək bolşeviklərin sırasına (Azərbaycan Kommunist Partiyasına) qoşulur. Cümhuriyyətin süqutuna beş gün qalmış baş verən bu hadisə milli hökumətdəki ixtilaf və dağınıqlığın son mənzərəsi idi.




**1 avqust 1918** - Bakıda eser, menşevik və daşnaklardan ibarət "Sentrokaspi diktaturası" hökumətinin təşkili.
**4 avqust 1918** - İlk ingilis qoşun dəstəsinin Bakıya gəlməsi.
**28 avqust 1918** - Azərbaycan dilinin tədris edilməsi haqqında Cümhuriyyət Nazirlər Şurasının qərarı.
**4 sentyabr 1918** - İngilis qoşunlarının Bakını tərk etməsi.
**15 sentyabr 1918** - Qafqaz İslam Ordusunun Bakı şəhərini azad etməsi.
**17 sentyabr 1918** - Cümhuriyyət hökumətinin Gəncədən Bakıya köçərək fəaliyyətə başlaması.
**5 oktyabr 1918** - Azərbaycan hökumətinin neft sənayesinin dövlətsizləşdirilməsi haqqında qərarı.
**18 oktyabr 1918** - Bakı şəhərində "Türk Ocağı" cəmiyyətinin yaranması.
**30 oktyabr 1918** - Osmanlı dövlətinin I Dünya müharibəsinin qalibi sayılan Antanta ölkələri (Britaniya, Fransa, ABŞ) ilə Mudros sülh sazişini imzalayaraq qoşunlarını Cənubi Qafqazdan çıxarmaq barədə öhdəlik götürməsi.
**1 noyabr 1918** - Hərbi Nazirliyin təsis edilməsi.
**9 noyabr 1918** - Cümhuriyyətin Dövlət bayrağı haqqında qanununun qəbul edilməsi.
**16 noyabr 1918** - Azərbaycan Milli Şurasının fəaliyyətinin bərpası.
**16 noyabr 1918** - Qori seminariyasının Azərbaycan bölməsinin Qazaxa köçürülməsi.
**17 noyabr 1918** - Cənubi Qafqazda müttəfiq (Antanta) qoşunlarının komandanı general Tomsonun başçılıq etdiyi ingilis qoşunlarının Mudros müqaviləsinə əsasən Azərbaycana daxil olması.
**20 noyabr 1918** - Azərbaycan Cümhuriyyəti Parlamenti haqqında qanunun qəbulu.
**22 noyabr 1918** - Müttəfiq dövlətlərin Bakıdakı hərbi qüvvələri komandanlığının tələbi ilə Hərbi Nazirliyin Gəncəyə köçürülməsi.
**29 noyabr 1918** - Xəzər donanması ticarət gəmilərinin ingilis komandanlığının ixtiyarına keçməsi. "İngilis dəniz nəqliyyatı"nın yaranması.

# 1918-ci ilin 15 sentyabrı

**Azərbaycanın tarixində 1918-ci ilin 15 sentyabrının müstəsna yeri var. Bu, təkcə milli dövlətçiliyimizin - Azərbaycan Xalq Cümhuriyyətinin özünün paytaxtına qovuşduğu gün deyil, daha geniş kontekstdə götürdükdə, Azərbaycan və Türkiyə qardaşlığının tarix durduqca yaşayacaq möhtəşəm bir xatirəsidir...**

## "Başla bədənin birləşdiyi gün..."

1918-ci il mayın 28-də Tiflisdə İstiqlal Bəyannaməsi qəbul olunduqdan sonra müvəqqəti olaraq Gəncədə yerləşən milli hökumətin qarşısında duran başlıca məqsəd Bakını erməni-bolşevik işğalından (Şaumyanın başçılıq etdiyi Bakı Soveti) azad etmək idi. Belə bir ağır zamanda Azərbaycan xalqına qardaş yardımı Osmanlı dövlətindən gəldi.

1918-ci il iyunun 4-də Xalq Cümhuriyyəti ilə Osmanlı dövləti arasında "daimi sülh və dostluq münasibətləri" haqqında saziş imzalandı. Özünün ağır hərbi və iqtisadi vəziyyətdə olmasına rəğmən Osmanlı dövləti ilk gündən Cümhuriyyətə bacardığı yardımı göstərməyə başladı. Azərbaycan hökumətinin xahişinə cavab olaraq, Osmanlı hökumətinin hərbi naziri Ənvər paşa ilk yardım kimi Azərbaycana 2 milyon türk lirəsi həcmində kredit ayırdı. Eyni



zamanda, milli hakimiyyəti bütün ölkə ərazisində bərqərar etmək üçün qardaş Türkiyənin bilavasitə əsgəri yardımı zəruri idi. İlk növbədə isə Bakı azad olunmalı və milli hökumət paytaxta köçməli idi.

Türkiyənin hərbi naziri Ənvər paşa öz qardaşı Nuru paşanı komandanı olduğu ordu ilə Azərbaycana köməyə göndərdi. Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu Azərbaycanın yeni təşkil olunan (26 iyun) Milli Ordusu ilə birgə Göyçay yaxınlığında bolşevik-daşnak silahlılarını məğlub edərək Bakıya doğru istiqamət aldı. Ordu birləşmələri Şamaxı, Kürdəmir və digər yaşayış məntəqələrindən keçərək bu zəfər yürüşünü dayandırmaq istəyən Bakı Soveti qoşunlarına zərbələr endirdi. Sentyabrın 15-də isə qardaş qoşun birləşmələri Bakıya daxil oldular.

Xilaskar Qafqaz-İslam Ordusu Bakını Cümhuriyyətə, Cümhuriyyəti isə bütün Azərbaycan millətinə qovuşdurdu. Sentyabrın 17-də milli hökumət Bakıya köçdü, Cümhuriyyətimizin paytaxtı adını və mahiyyətini özünə qaytardı.

Bakının azad edilməsi təkcə Azərbaycanda deyil, Türkiyədə də böyük sevincə səbəb olmuşdu. Ənvər paşa Nuru paşaya göndərdiyi teleqramda yazırdı: "Türk və İslam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözündən öpür, şəhidlərimizə fatihələr ithaf edirəm".

Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadə isə bu tarixi günü belə dəyərləndirirdi: "15 sentyabr Azərbaycan xalqının tarixində 28 may qədər böyük dəyərə malikdir. Əgər 28 mayda Cümhuriyyətin istiqlalı bütün dünyaya elan edilmişdisə, 15 sentyabrda bu istiqlal real bir təməl üzərində qurulmuş oldu. 15 sentyabrda Qafqaz İslam Ordusu tərəfindən Bakının azad edilməsi ilə başla bədən birləşmiş oldu. Bakı baş, bədən isə Azərbaycandır".




**7 dekabr 1918** - Azərbaycan Cümhuriyyəti Parlamentinin açılışı.
**15 dekabr 1918** - Bakı Fəhlə Konfransı təşkilatının bərpası.
**24-26 dekabr 1918** - Bakı Fəhlə Konfransının başçılığı ilə ümumi tətil keçirilməsi.
**26 dekabr 1918** - Fətəli xan Xoyskinin başçılığı ilə III hökumət kabinetinin təşkili; Gürcüstan və Azərbaycan arasında tranzit müqaviləsinin bağlanması.
**28 dekabr 1918** - Azərbaycan Cümhuriyyəti hökumətinin tanınması haqqında Bakı general-qubernatoru Tomsonun deklarasiyası.
**15 yanvar 1919** - Qarabağ general-qubernatorluğunun yaradılması; Azərbaycan Cümhuriyyəti Silahlı Qüvvələri Baş Qərargahının təşkili.
**4 fevral 1919** - Parlamentin aqrar komissiyasının təşkili.
**6 fevral 1919** - "İttihad"ın lideri Qara bəy Qarabəyovun hökumətə etimadsızlıq votumu ilə çıxışı.
**25 fevral 1919** - Fətəli xan Xoyskinin III hökumət kabinetinin istefası.
**19 mart 1919** - Fəhlə məsələsi üzrə xüsusi müşavirə haqqında qanunun Parlament tərəfindən təsdiqi.
**5 aprel 1919** - Hərbi Nazirliyin Bakıya köçürülməsi.
**14 aprel 1919** - Cümhuriyyət Parlamentinin Nəsib bəy Yusifbəyli başda olmaqla IV hökumət kabinetini təsdiq etməsi.
**24 aprel 1919** - Cənubi Qafqazda müttəfiq qoşunlarının baş komandanı general Tomsonun general Şatervortla əvəz edilməsi.
**6-13 may 1919** - Bakı Fəhlə Konfransının keçirdiyi ümumi tətil.
**28 may 1919** - Azərbaycan nümayəndə heyətinin Paris Sülh Konfransında ABŞ prezidenti Vudro Vilsonla görüşü.
**29 may 1919** - Cənubi Qafqaz respublikalarının Tiflis konfransının keçirilməsi.
**31 may 1919** - Arbitraj orqanının yaradılması haqqında hökumətin qərar qəbul etməsi.
**11 iyun 1919** - Hökumətin Dövlət Müdafiə Komitəsinin təşkili haqqında qərar qəbul etməsi; Dövlət Müdafiə Komitəsi tərəfindən Cümhuriyyət ərazisində hərbi vəziyyət elan edilməsi.

# İstiqlalımızın zəfər yürüşünün şəhidləri

**Qafqaz İslam Ordusu Bakının azad olunması üçün həyata keçirdiyi hərbi əməliyyatlarda xeyli sayda şəhid verdi. Həmin döyüşlərdə azərbaycanlılarla çiyin-çiyinə döyüşən türk əsgərlərindən 1130 nəfər şəhidlik zirvəsinə yüksəldi. Döyüşlərin getdiyi ərazilərdə həlak olan qəhrəman əsgərlər elə həmin məntəqələrdə də dəfn edilirdi.**



Ölkəmiz 1991-ci ildə yenidən azadlığına qovuşduqdan sonra həmin türk şəhidlikləri abadlaşdırıldı. Bu gün Şamaxı, Göyçay, Kürdəmir, Hacıqabul, Qobustan və döyüşlərin getdiyi digər ərazilərdə şəhidlərin xatirəsi əbədiləşdirilib. 70 illik müstəmləkə dövrü, sovet siyasi-ideoloji rejimi də həmin qəhrəmanları unutdura bilmədi. Xalqımız öz qəhrəmanları qarşısında vəfa borcunu yerinə yetirdi. Bu gün həmin şəhidlərin şərəfinə Azərbaycanın müxtəlif bölgələrində ucaldılan şəhidliklər müqəddəs məkan olaraq ziyarət edilir.

Türk şəhidlərinin şərəfinə ucaldılmış daha bir möhtəşəm abidə paytaxt Bakıda - şəhərin ən hündür məkanı olan Dağüstü park ətrafında yerləşir. Bakının azad edilməsi zamanı həlak olmuş Azərbaycan və Osmanlı əsgərlərinin şərəfinə ucaldılacaq abidə kompleksinin layihəsi hələ 1918-ci ildə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə hazırlanmışdı. Şəhərin Qafqaz İslam Ordusu tərəfindən azad olunmasının ildönümü münasibətilə 1919-cu il sentyabrın 15-də Azərbaycan Parlamentinin xüsusi iclası keçirilir, hökumət və parlament üzvləri paytaxtın Çəmbərəkənd qəbiristanlığına (indiki Şəhidlər xiyabanı) gedərək xatirə abidəsinin özülünü qoyurlar. Təəssüf ki, 1920-ci il aprelin 28-də bolşevik Rusiyasının işğalı üzündən bu iş yarımçıq qaldı...

Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonra Qafqaz İslam Ordusunun xilaskarlıq yürüşləri ilə bağlı tədqiqatlar aparıldı. Qardaş ordunun tarixi xidmətləri nəzərə alınaraq Şəhidlər xiyabanında möhtəşəm abidə ucaldıldı. Abidənin açılış mərasimi 2000-ci il aprelin 9-da Azərbaycan Prezidenti Heydər Əliyev və Türkiyə Prezidenti Süleyman Dəmirəlin iştirakı ilə gerçəkləşdi.

Təkcə bu abidə deyil, ölkəmizdə olan bütün Türk şəhidlikləri Anadolu türkləri ilə Azərbaycan türklərinin tarixən bir-birlərinə dəstək olduqlarının simvoluna çevrilib.

# Cümhuriyyətin ərazisi və əhalisi

Son dərəcə mürəkkəb beynəlxalq və daxili vəziyyətə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti ərazi və sərhəd məsələlərinə həyati əhəmiyyət verirdi. 1919-cu ildə Paris Sülh Konfransına göndərilən Azərbaycan nümayəndə heyətinin təqdim etdiyi memorandumda dövlətin ərazisi aşağıdakı kimi göstərilmişdi:

Bakı quberniyası - Bakı dairəsi ilə birlikdə Bakı qəzası, Cavad qəzası, Göyçay qəzası, Şamaxı qəzası, Quba qəzası, Lənkəran qəzası;

Yelizavetpol (Gəncə) quberniyası - Gəncə qəzası, Cavanşir qəzası, Nuxa qəzası, Ərəş qəzası, Şuşa qəzası, Qaryagin (Cəbrayıl) qəzası, Zəngəzur qəzası, Qazax qəzası (bu ərazinin üçdə birini təşkil edən dağlıq hissəsi Ermənistanla Azərbaycan arasında mübahisəli idi);

İrəvan quberniyası - Naxçıvan qəzası, Şərur-Dərələyəz qəzası, Sürməli qəzası, Yeni Bəyazid qəzası, Eçmiədzin və Aleksandropol (Gümrü) qəzalarının bir hissəsi;

Tiflis quberniyasının Borçalı qəzası, Tiflis və Sığnax qəzalarının bir hissəsi; Zaqatala dairəsi;

Dağıstan vilayətinin Kürə və Samur nahiyələrini əhatə edən ərazisinin, Dərbənd şəhəri daxil olmaqla Qaytaq-Tabasaran qəzasının bir hissəsi.

Cümhuriyyətin ərazisi 113,9 min kvadrat kilometr olaraq qeyd edilmişdi. Bunun 97,3 min kvadrat kilometri mübahisəsiz, 16,6 min kvadrat kilometri mübahisəli idi.




Bu dövrdə bütün Cənubi Qafqazda 8 milyon 82 minə yaxın əhali yaşayırdı. Onun 4 milyon 618 mini Azərbaycanda idi. Azərbaycan əhalisinin 75,4 faizini (3 milyon 482 min) azərbaycanlılar təşkil edirdi.

# Xarici siyasət və diplomatik əlaqələr



**Hökumətin xarici siyasətinin başlıca məqsədi yeni yaradılmış dövləti tanıtmaq idi. İlk olaraq 1918-ci il iyunun 4-də Batumda Osmanlı ilə dostluq müqaviləsi bağlandı. “Dördlər İttifaqı” (Almaniya, Avstriya-Macarıstan, Osmanlı, Bolqarıstan bloku I Dünya müharibəsində Antantaya (Britaniya, Fransa, Rusiya) qarşı savaşırdı) ilə Cənubi Qafqaz respublikaları arasında keçirilməsi nəzərdə tutulan İstanbul konfransına Məhəmməd Əmin Rəsulzadə və Aslan Səfikürdski göndərilmişdi. Əlimərdan bəy Topçubaşov da Avropa ölkələri ilə əlaqələr qurmaq üçün İstanbula ezam edilmişdi.**

Almaniya və müttəfiqləri müharibədə məğlub olduqdan, bolşevik Rusiyası Almaniya ilə separat sülh (Brest sülhü) bağlayaraq müharibədən çıxandan sonra 1918-ci ilin payızında beynəlxalq arenada əsas söz sahibi Britaniya, Fransa və bir il əvvəl Antanta tərəfində müharibəyə qoşulmuş ABŞ idi. 1918-ci ilin noyabrında qalib dövlətlərin mandatı ilə Bakıya gələn ingilis generalı Tomson, erməni, rus milli şuralarının Cümhuriyyət əleyhinə fəaliyyətinə baxmayaraq, Azərbaycan hökumətini rəsmən tanıdı.

Dekabrda hökumət qalib ölkələrin Paris Sülh Konfransına göndəriləcək nümayəndə heyətini müəyyənləşdirdi. Ə.Topçubaşovun başçılıq etdiyi heyət 1919-cu ilin ilk aylarında İstanbulda bir sıra ölkələrin nümayəndələri ilə görüşlər keçirdikdən sonra Parisə getdi. Topçubaşov mayın 23-də İngiltərə nümayəndə heyətinin üzvü L.Mallet ilə, mayın 28-də ABŞ nümayəndə heyətinin üzvü H.Morgentau, daha sonra prezident V.Vilson ilə görüşdü. Aylarla sürən diplomatik çalışmalardan sonra 1920-ci il yanvarın 11-də Azərbaycanın müstəqilliyi Paris Sülh Konfransında de-fakto olaraq tanındı.

Xarici siyasətin mühüm istiqamətlərindən biri qonşu dövlətlərlə münasibətlər idi. Yeni yaradılan Ermənistan (Ararat) Respublikasının paytaxtı olmadığından Azərbaycan sülhün bərqərar edilməsi, erməni tərəfin digər ərazilərə əsassız iddialar irəli sürməyəcəyi şərtilə İrəvanı paytaxt olaraq güzəştə getdi. Lakin bununla kifayətlənməyən ermənilər Azərbaycana qarşı ərazi iddialarını genişləndirdilər.

İran Cümhuriyyəti tanımaqdan imtina edirdi, hətta dövlətin “Azərbaycan” adlandırılmasının əleyhinə idi. 1919-cu ilin dekabrında Bakıya gələn İran nümayəndə heyəti ilə aparılan uzunmüddətli danışıqlar uğurla nəticələndi. Paris Sülh Konfransının qərarı da İranı geri çəkilməyə vadar etmişdi. 1920-ci il martın 20-də iki ölkə arasında dostluq haqqında saziş imzalandı.

1918-1920-ci illərdə Cümhuriyyətin Ermənistanda (Məhəmməd bəy Təkinski, Teymur bəy Makinski), Gürcüstanda (Məmmədyusif Cəfərov, Faris bəy Vəkilov), Türkiyədə (Əlimərdan bəy Topçubaşov, Yusif Vəzir Çəmənzəminli), İranda (Adil xan Ziyadxanov), Dağlı Xalqları Respublikasında (Əbdürrəhim bəy Haqverdiyev) və Türküstanda (Əkbər ağa Sadıqov), Ukraynada (Yusif Vəzir Çəmənzəminli) diplomatik nümayəndələri fəaliyyət göstərmişdi.

Bakıda Böyük Britaniya, Ermənistan, Belçika, Gürcüstan, İtaliya, Litva, İran, Polşa, ABŞ, Ukrayna, Finlandiya, Fransa və başqa ölkələrin nümayəndəlikləri vardı.

Azərbaycanın müstəqilliyi Antanta Ali Şurası tərəfindən tanındıqdan sonra 1920-ci il aprelin 1-dən etibarən Avropanın 10-dək ölkəsində Cümhuriyyətin diplomatik nümayəndəlikləri təsis olunmalı idi. Lakin 28 aprel işğalı buna imkan vermədi, sovetləşmədən sonra Azərbaycanın beynəlxalq münasibətlər sistemində təmsil olunmasına son qoyuldu.




**13 iyun 1919** - Paris Sülh Konfransında Kolçakın Rusiya ərazisində ali hakimiyyətinin tanınması haqqında sənədin qəbul edilməsi. Azərbaycan, Gürcüstan, Ukrayna və digər nümayəndə heyətlərinin buna etiraz etməsi.

**13 iyun 1919** - İngilislərə qarşı Bakıda nümayişlərin keçirilməsi.

**16 iyun 1919** - Azərbaycan-Gürcüstan arasında hərbi müdafiə aktının imzalanması.

**27 iyun 1919** - Ərazi bütövlüyünü birgə qorumaq haqqında Azərbaycan-Gürcüstan müqaviləsini Parlamentin təsdiq etməsi.

**6 avqust 1919** - General Tomsonun Xəzər hərbi donanmasını Denikinin "Könüllülər ordusu"na vermək barədə sərəncam imzalaması.

**11 avqust 1919** - Cümhuriyyət Parlamentinin Azərbaycan vətəndaşlığı haqqında qanunu qəbul etməsi.

**19 avqust 1919** - İngiltərə-İran müqaviləsinə görə, İranın Azərbaycana olan ərazi iddialarından əl çəkdiyini bəyan etməsi.

**24 avqust 1919** - İngilislərin Bakını tərk etməyə başlaması.

**28 avqust 1919** - Azərbaycan Dövlət Bankının yaradılması haqqında qanun qəbul edilməsi.

**1 sentyabr 1919** - Bakı Dövlət Universitetinin açılması haqqında qanunun qəbul edilməsi.

**13 sentyabr 1919** - Baş nazir Nəsib bəy Yusifbəylinin IV hökumətin sədri vəzifəsindən istefası.

**25 sentyabr 1919** - Qazax qəzası kəndlilərinin I qurultayının açılışı.

**23 oktyabr 1919** - Müttəfiqlər ordusu Ali Baş komandanı Vilyam Haskelin "Naxçıvan general-qubernatorluğu yaradılması və Edmund D.Deklinin ona general-qubernator təyin edilməsi haqqında" əmr verməsi.

**25 oktyabr 1919** - Azərbaycan Dövlət Bankının açılışı.

**23 noyabr 1919** - Tiflisdə Azərbaycan və Ermənistan arasında baş verən bütün münaqişələrə son qoyulmasını və sərhəd məsələsinin sülh yolu ilə həll edilməsini nəzərdə tutan müqavilənin imzalanması.

**Milli dövlətçilik tariximizin ən şanlı səhifələrindən olan Birinci Respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin ömrü tam 23 ay sürdü. 1920-ci ilin 28 aprelinə keçən gecə bolşevik Rusiyasının XI ordusunun və yerli bolşeviklərin əlbir səyi ilə milli dövlət süquta uğradıldı...**

# 28 maydan sonra gələn aprel...

## Cümhuriyyət quruluşunun 23-cü ayının tamamında, 1920-ci ilin 28 aprelində süqut etdi

Azərbaycanda bolşevik təbliğatı və sovetləşmənin təşviqi Cümhuriyyətin ilk günlərindən aparılsa da, 1919-cu ilin sonuna doğru özünü daha aşkar şəkildə büruzə verməyə başlamışdı.




**2-11 dekabr 1919** - Türk Ədəmi-Mərkəziyyət "Müsavat" Partiyasının II qurultayı.
**22 dekabr 1919** - Parlamentin Nəsib bəy Yusifbəylinin başçılığı ilə V hökumət kabinetinin tərkibini təsdiq etməsi.
**2 yanvar 1920** - Sovet Rusiyasının Denikinə qarşı birgə mübarizə aparmaq təklifi haqqında Azərbaycan Cümhuriyyətinə birinci dəfə nota verməsi.
**11 yanvar 1920** - Paris Sülh Konfransında Antanta Ali Şurasının Azərbaycanın müstəqilliyini de-fakto tanıması.
**14 yanvar 1920** - Fətəli xan Xoyskinin Rusiyanın Denikinlə mübarizəsinin onun daxili işi olması haqqında G.Çiçerinə cavab notası verməsi.
**Yanvar 1920** - Paris Sülh Konfransının Azərbaycan Cümhuriyyətinə kömək göstərilməsi haqqında qərar qəbul etməsi.
**23 yanvar 1920** - Azərbaycan hökumətinə ikinci notanın verilməsi.
**11-12 fevral 1920** - Fətəli xan Xoyskinin G.Çiçerinə Azərbaycanın suverenliyinin tanınması haqqında cavab notası.
**18 fevral 1920** - Məmmədhəsən Hacınskinin daxili işlər naziri vəzifəsindən istefa verməsi.
**20 mart 1920** - Azərbaycan-İran müqaviləsinin bağlanması. Bu müqaviləyə əsasən Azərbaycanın İran tərəfindən de-yure tanınması.
**23 mart 1920** - Əkin və əkinçilik naziri Əhməd Pepinovun istefa verməsi. Azərbaycan və Gürcüstan arasında ticarət müqaviləsinin imzalanması.
**9 aprel 1920** - Poçt və teleqraf naziri sosialist Camo bəy Hacınskinin istefa verməsi.
**15 aprel 1920** - Aslan bəy Qardaşovun "Əhrar" Partiyasının hökumət kabinetindən çıxması; F.Xoyskinin G.Çiçerinə Rusiya qoşun hissələrinin Azərbaycan sərhədlərində cəmləşməsi ilə bağlı Azərbaycan dövlətinin narahatlığını ifadə edən notası.
**27 aprel 1920** - XI Qızıl Ordunun Azərbaycan Xalq Cümhuriyyəti ərazisinə daxil olması; Cümhuriyyət Parlamentində Azərbaycan İnqilab Komitəsinin hakimiyyətin təhvil verilməsi haqqında ultimatumunun qəbul edilməsi.
**28 aprel 1920** - Cümhuriyyətin süqutu. Azərbaycanda sovet hakimiyyətinin qurulması.

Başlıca səbəb dövrün beynəlxalq-geosiyasi mənzərəsi idi: üzücü dünya müharibəsindən çıxan Qərbin böyük dövlətləri çar Rusiyasının ərazisində meydana gələn milli dövlətlərə dəstək verəcək halda və maraqda deyildilər. Belə bir dəstək olmadan zəif milli dövlətlərin bolşeviklərin populist şüarları (kəndliyə torpaq, fəhləyə zavod, xalqlara sülh) ilə maskalanmış ilhaq siyasətinə müqavimət göstərməsi mümkünsüz idi.

Digər mühüm səbəb milli dövlətlərin daxili vəziyyəti ilə bağlı idi. Keçmiş imperiyanın hər yerində səfalət hökm sürürdü. Kütlə üçün isə bir qarın çörək hər şeydən - o cümlədən üfüqdə güclə sezilən milli dövlətçiliyin rifah vədindən üstün idi. Hələ 1918-ci ilin dekabrında bolşeviklər Bakıda ümumi siyasi tətil keçirməyə nail olmuşdular. 1919-cu ilin aprelində isə Azərbaycanın cənub bölgəsində bolşeviklər tərəfindən qızışdırılan rus əhalisinin milli hökumətə qarşı qiyamı başlandı. Qiyamçılar bölgəni "Muğan Sovet Respublikası" elan etdilər. Avqustun əvvəlində qiyam hökumət qüvvələri tərəfindən yatırıldı. Milli hökumətin torpaq islahatını yubatmasından da bolşeviklər məharətlə istifadə edirdilər. 1919-cu ildə bir sıra qəzalarda bolşeviklərin rəhbərliyi ilə kəndli çıxışları oldu.

Bakı uğrunda mübarizəni təkcə Rusiyanın "qırmızı" (bolşevik) hökuməti deyil, həm də "ağlar" aparırdı. General Denikinin qoşunları 1919-cu ilin yazında Dağıstanı işğal etmişdi. Bolşeviklər Denikinlə müharibədə Azərbaycanı özlərinə müttəfiq etmək istəyirdilər. 1920-ci ilin yanvarında sovet Rusiyasının xarici işlər komissarı G.Çiçerin Azərbaycan hökumətinə göndərdiyi notada Denikin əleyhinə hərbi ittifaq bağlamağı təklif edirdi. Cümhuriyyətin xarici işlər naziri Fətəli xan Xoyski cavab notasında bildirdi ki, Denikinlə mübarizə sovet Rusiyasının daxili işidir. Öz növbəsində milli hökumət bolşevik Rusiyasının Cümhuriyyəti tanımasını istəyirdi. Bakı ilə getdikcə daha sərt tonda danışan Moskva isə bu niyyətdə deyildi. Sovet Rusiyasının Azərbaycana gerçək münasibətini Leninin 1920-ci il martın 17-də Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurasının üzvləri Smilqa və Orconikidzeyə göndərdiyi teleqram



aydın əks etdirirdi: "Bakını zəbt etmək bizə olduqca və olduqca zəruridir, bütün səylərinizi buna verin".

Bolşeviklərin ölkə daxilində təxribatçılıq fəaliyyəti gündən-günə genişlənirdi. 1920-ci ilin 11-12 fevralında Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının təsis qurultayında qəbul olunan proqramda milli hökuməti yıxmaq üçün silahlı üsyan xətti irəli sürüldü. AK(b)P-nin faktiki rəhbəri isə erməni millətçisi Anastas Mikoyan idi.

Böhranı kəskinləşdirən amillərdən biri də Azərbaycandakı Türkiyə kommunistlərinin xalq arasında nüfuzlarından istifadə edərək, rus ordusunun gələcək yürüşü xeyrinə təbliğat aparmaları idi. Onlar iddia edirdilər ki, sovet Rusiyasının ordu hissələri Türkiyəyə, Mustafa Kamal hərəkatına köməyə tələsir.

Sovet Rusiyası Ermənistanın Azərbaycana qarşı düşmənçiliyindən də istifadə edirdi. 1920-ci ilin əvvəllərində erməni nümayəndələri Moskvaya gedərək Azərbaycandan qoparacaqları ərazilər müqabilində Cümhuriyyəti devirmək planlarını bolşeviklərə təklif etdilər. Qarabağda və Gəncəbasarda erməni əhalisinin qiyamı bu planın tərkib hissəsi idi. Milli Ordu hissələri 1920-ci ilin martında Qarabağda erməni qiyamçılarına qarşı vuruşurdu.

Aprelin ortalarında Denikinin qoşunlarını məğlub edən XI ordu Azərbaycanın sərhədlərinə yaxınlaşdı. Bakı bolşevikləri xalq adından rus ordusunu Azərbaycana dəvət etdilər. Plana görə, XI ordu Bakıda bolşevik qiyamının başlanmasından 1-2 gün sonra Azərbaycana soxulmalı idi. Bununla rəy yaradılacaqdı ki, milli hökumət xarici hərbi müdaxilənin deyil, daxili qiyamın qurbanı olub. Lakin Bakıda qiyam başlanmamış - aprelin 27-nə keçən gecə XI ordu hissələri Azərbaycan ərazisinə daxil olaraq Bakıya doğru irəliləməyə başladı.

Aprelin 27-də gündüz saat 12-də AK(b)P MK və RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu adından hakimiyyəti təhvil vermək haqqında Azərbaycan Parlamentinə ultimatum verildi.

Parlament gecəyə yaxın aşağıdakı şərtlərlə hakimiyyətin kommunistlərə verilməsi barədə qərar qəbul etdi:

1. Bolşevik Rusiyasının qoşunları Bakıya daxil olmadan dəmir yolu ilə birbaşa Türkiyəyə gedəcək;
2. Azərbaycan istiqlalı və ərazi bütövlüyü hər cür təcavüz və ilhaqdan qorunacaq;
3. Azərbaycanın Milli Ordusu olduğu kimi saxlanacaq;
4. Azərbaycanın siyasi partiyaları üçün fəaliyyət azadlığı təmin olunacaq;
5. Keçmiş dövlət xadimləri, hökumət üzvləri və millət vəkilləri təqib olunmayacaq, dövlət idarələri qulluqçularının iş yerləri saxlanacaq, yalnız rəhbər vəzifəli şəxslər dəyişdiriləcək;
6. Azad şəraitdə toplaşacaq şuralar hakimiyyətin idarəçilik formalarını təyin edəcək.

Aprelin 28-də Azərbaycan Parlamentinin bu qərarı bolşeviklər üçün adi kağız parçası dəyərində idi. Milli hökumətin yerlərdəki qüvvələri "qırmızı ordu"ya silahlı müqavimət göstərməyə çalışsa da, artıq gec idi. Mayın ilk günlərində XI ordu Gəncə, Qazax, Şamaxı, Şəki, Zaqatala və Balakəni ələ keçirdi. Mayın 3-də bolşevik Rusiyasının hərbi-dəniz donanması Lənkəran və Astaraya desant çıxardı. İyunda bolşeviklər Qarabağda ermənilərlə döyüşən Milli Ordunun son hissələrini də tərksilah etdi. Azərbaycan sovetləşdi və 71 il sürəcək bir tarix başlandı...

# Yurdun dörd bir yanında "Cümhuriyyət ili": *tarixə ehtiram, gələcəyə inam*

**İsmayıllı** Regional Mədəniyyət İdarəsi

**Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə İsmayıllı Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən İsmayıllı, Şamaxı, Ağsu, Qəbələ və Qobustan rayonları üzrə mədəniyyət müəssisələrində silsilə tədbirlər təşkil olunub.**



İsmayıllı rayon Heydər Əliyev adına Mədəniyyət mərkəzində Cümhuriyyətin 100 illiyinə həsr edilən flaşmob nümayiş olunub.

İsmayıllı Dövlət Rəsm Qalereyası rayon mərkəzindəki "Sənətkarlıq bazarı"nda sərgi təşkil edib. Mədəniyyət mərkəzinin nəzdində fəaliyyət göstərən "Niyal" instrumental ansamblı, F.Əzimov adına İncəsənət məktəbi rəngarəng konsert proqramı ilə çıxış edib.

* * *

Ağsu rayonunda MKS tərəfindən təşkil olunan ənənəvi kitab bayramında Azərbaycan Xalq Cümhuriyyəti haqqında nəşrlərə də geniş yer verilib.




Tədbirdən öncə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb, xatirəsi ehtiramla yad edilib. Tədbirdə müxtəlif məzmunda 200-ə yaxın kitab, rayonunun "Birlik" qəzetinin nüsxələri və Cümhuriyyət haqqında iki sənədli ekran əsəri elektron variantda iştirakçılara paylanılıb.

Rayon Musiqi məktəbinin Xalq Cümhuriyyətinin 100-cü ildönümünə həsr olunan konserti böyük maraqla qarşılanıb. Konsert proqramında əvvəlcə Cümhuriyyətin 100 illiyi ilə bağlı "ASAN Xidmət" tərəfindən hazırlanan videoçarx nümayiş olunub. Tədbir iştirakçılarda bayram əhval-ruhiyyəsi yaradıb.

* * *

Qəbələ rayon Heydər Əliyev Mərkəzində də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi ilə bağlı təntənəli mərasim keçirilib. Tədbirdə çıxış edənlər XX əsrin Azərbaycan xalqının həyatında böyük mübarizələr dövrü olduğunu diqqətə çatdırıblar. Bildirilib ki, uzun illər çar Rusiyasının əsarəti altında zülm çəkən Azərbaycan xalqının qabaqcıl oğulları 1918-ci ildə müsəlman Şərqində ilk demokratik respublikanı qurmağa nail olublar. Cəmi 23 ay çox mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərən Xalq Cümhuriyyəti 1920-ci il aprelin 28-də bolşevik Rusiyası tərəfindən süquta uğradılıb. Cümhuriyyət qurucularının idealları yarımçıq qalsa da, 1991-ci ildə müstəqilliyini bərpa edən xalqımız yenidən Cümhuriyyət ideyalarına sahib çıxıb. Müasir Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisidir və bu gün ilk demokratik respublikamızın dəyərləri yaşadılır. Tədbirdə Cümhuriyyət qurucularının fəaliyyətinə nəzər salınıb, onların tarixi xidmətləri minnətdarlıqla xatırlanıb.




Çıxışlardan sonra tədbir Zarağan 2 nömrəli orta məktəbi şagirdlərinin, Qəbələ Uşaq və ailələrə dəstək mərkəzi üzvlərinin və uşaq İncəsənət məktəbinin özfəaliyyət qrupunun hazırladığı bədii proqramla davam edib. Təqdim olunan musiqi nömrələri iştirakçılara xoş ovqat yaşadıb.

* * *

Qobustan rayonunda 28 May - Respublika Günü və Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Mərasim çərçivəsində Qobustan şəhər Rəşid Behbudov adına İncəsənət məktəbi şagirdlərinin hazırladıqları rəsm və rayon Mərkəzi kitabxanasının təşkil etdiyi kitab sərgiləri nümayiş olunub.

Milli dövlətçiliyin bərqərar olması işıqlı ziyalıların tarixi əməlləri ilə yanaşı, vətən övladlarının, eləcə də Cümhuriyyətə köməyə gəlmiş qardaş türk hərbçilərinin qanı bahasına mümkün olub. 1918-ci ilin yayında qanlı döyüşlərin getdiyi yerlərdən biri də indiki Qobustan rayonu ərazisi olub. Buradakı naməlum türk əsgərinin məzarı tariximizin bu şanlı səhifəsini yaşadan məkanlardandır. Cümhuriyyətin 100 illiyi ərəfəsində məzarın ətrafı abadlaşdırılıb. AMEA Mərkəzi Elmi Kitabxanasının əməkdaşları burada şam ağacları əkiblər. Acıdərə ərazisindəki Türk şəhidliyində keçirilən aksiyada da kitabxananın əməkdaşları tərəfindən ağaclar əkilib.



# Yurdun dörd bir yanında "Cümhuriyyət ili":
## tarixə ehtiram, gələcəyə inam

**Kürdəmir Regional Mədəniyyət İdarəsi**





Kürdəmir Regional Mədəniyyət İdarəsi rayon İcra Hakimiyyəti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan tədbir təşkil edib. Tədbirdə çıxış edənlər Cümhuriyyətin qurulması, tarixi haqqında geniş söhbət açıb, sənədli film nümayiş etdirilib.

Kürdəmir rayon Mərkəzi kitabxanası AMEA-nın Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran regional şöbəsi ilə birlikdə "Şərqdə ilk demokratik cümhuriyyət" adlı oxucu konfransı keçirib. Tədbirdə məktəblilərin ifasında vətənpərvərlik mövzulu şeirlər, musiqi nömrələri təqdim olunub, mövzuya dair kitab sərgisinə baxış keçirilib.

Rayondakı Heydər Əliyev Mərkəzində Cümhuriyyətin 100 illiyi ilə bağlı dəyirmi masa keçirilib. Çıxışlardan sonra mərkəzdə fəaliyyət göstərən dərnəyin üzvlərinin əl işlərindən ibarət "Azərbaycanım - doğma yurdum" adlı sərgiyə baxış olub.

* * *

Regional idarənin Füzuli rayon Horadiz şəhər Musiqi məktəbində mədəniyyət müəssisələrinin iştirakı ilə "Müstəqil Azərbaycanımız" adlı tədbir keçirilib. Çıxış edənlər Cümhuriyyətin yaranmasını xalqımızın müstəqillik ideyalarının reallaşması kimi dəyərləndiriblər. Məktəblilər mahnı və rəqslər ifa edib, vətənsevərlik ruhlu şeirlər söyləyiblər. Şagirdlərin təqdim etdiyi "Ordumuzun gücü" adlı kompozisiya maraqla qarşılanıb.

Rayon Tarix-diyarşünaslıq muzeyində Mollaməhərrəmli kənd tam orta məktəbinin müəllim və şagirdlərinə "Azadlığın təməli" adlı mühazirə oxunub. Ziyarətçilər muzeyin ekspozisiyası ilə tanış olublar.

* * *

Beyləqan rayon Mədəniyyət mərkəzində təşkil olunan tədbirdə ümumtəhsil məktəblərinin müəllim və şagirdləri, N saylı hərbi hissənin əsgər və zabitləri iştirak edib. Çıxışlarda Cümhuriyyətin 23 aylıq fəaliyyəti barədə məlumat verilib.

Rayondakı Heydər Əliyev Mərkəzində "İstiqlalımızın şərəfli yolu" adlı ədəbi-bədii gecə keçirilib. Bildirilib ki, müasir Azərbaycan Respublikası bu gün Xalq Cümhuriyyətinin demokratik dəyərləri əsasında dövlətçilik yolunu davam etdirir. Tədbirdə məktəblilərin ifasında şeirlər və mahnılar səsləndirilib, sənədli film nümayiş olunub.

Tarix-diyarşünaslıq muzeyi şəhər 2 saylı tam orta məktəb ilə birgə Cümhuriyyət dövrünü əks etdirən fotolardan, kitab və bukletlərdən ibarət sərgi təşkil edib.

Rayon Gənclər mərkəzində isə "Tariximizi unutmayaq" mövzusunda tədbir keçirilib. Mərasimdə Azərbaycanın bugünkü müstəqil dövlətçiliyinin əsasının Cümhuriyyət dövründə qoyulduğu vurğulanıb. Tədbir "Müstəqilliyimiz əbədi və dönməzdir" adlı ədəbi-bədii kompozisiya ilə davam etdirilib.

N saylı hərbi hissədə rayon Mədəniyyət mərkəzinin kollektivi və "Mil" instrumental ansamblının iştirakı ilə "Əbədiyaşar respublikam" adlı tədbir keçirilib. Tədbirdə "Yaşa, Azərbaycanım" adlı rəsm müsabiqəsi təşkil olunub, sonra konsert proqramı təqdim edilib.

* * *

Regional idarənin İmişli rayon mədəniyyət müəssisələrində də müxtəlif tədbirlər - "Çiçəklənən respublikam", "Cümhuriyyət - 100", "Biz Vətənimizi çox sevirik" adlı fotosərgilər təşkil olunub, dəyirmi masalar keçirilib.

Rayon Dövlət Rəsm Qalereyasında "İstiqlalımız - 100" adlı sərgi Heydər Əliyev Mərkəzində Cümhuriyyətin tarixinə həsr olunan sənədli film nümayiş etdirilib. Tarix-diyarşünaslıq muzeyində "Gündən-günə çiçəklənən Azərbaycan" adlı tədbir, məktəblilərin ifasında ədəbi-bədii kompozisiyalar, konsert proqramları təqdim edilib.

Mədəniyyət mərkəzində musiqi və incəsənət məktəblərinin birgə hazırladığı "İstiqlal - Vətənin köksündə yüksələn Ay" adlı tədbir keçirilib. Mərasimdə vətənpərvərlik haqqında mahnılar, Məhəmməd Əmin Rəsulzadənin "Əsrimizin Şəyavuşu" əsərindən parçalar səsləndirilib.

* * *

Xocavənd rayonunun mədəniyyət müəssisələrində "Xalqın ən böyük uğuru onun müstəqilliyidir", "Müstəqilliyin əbədiyaşar ideyaları", "Azərbaycan - ana yurdum" və s. mövzularda sərgilər, dəyirmi masa təşkil olunub.



# Yurdun dörd bir yanında “Cümhuriyyət ili”: *tarixə ehtiram, gələcəyə inam*

**Lənkəran Regional Mədəniyyət İdarəsi**

Lənkəran şəhər Mədəniyyət mərkəzində Cümhuriyyətin 100 illiyinə həsr olunmuş “28 May Günəşinin əbədi şöləsi” adlı konsert təşkil edilib. Şəhər ictimaiyyəti nümayəndələrinin iştirak etdiyi konsertdə əvvəlcə dövlət himni səsləndirilib.

Çıxışlarda qeyd olunub ki, 100 il bundan öncə Cümhuriyyət tərəfindən qaldırılan üçrəngli bayrağımız ötən əsrin sonlarında bir daha xalqımızın başı üzərində dalğalanmağa başlayıb. Bildirilib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin gələcək müstəqilliyi üçün möhkəm bünövrə







təşkil edib.

Daha sonra Cümhuriyyətə həsr olunmuş videoçarx nümayiş olunub. Mədəniyyət mərkəzinin “Çölləmə” rəqs qrupunun ifasında rəqslər, “Vaqif” bədii qiraət dərnəyi üzvlərinin ifasında Vətənə həsr olunmuş şeirlər, eləcə də mahnı və rəqslər tamaşaçıların alqışları ilə qarşılanıb.

H.Rzayeva adına Lənkəran şəhər 2 saylı uşaq Musiqi məktəbində keçirilən tədbirdə məktəbin kollektivi tərəfindən hazırlanan konsert proqramı təqdim olunub. İfa olunan şeirlər, rəqslər tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Sonda fərqlənən bir qrup müəllim və şagird fəxri fərmanlarla təltif edilib.

C.Cabbarlı adına Lənkəran şəhər 1 saylı uşaq Musiqi məktəbində də Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi qeyd olunub. Tədbir məktəbin şagirdlərindən ibarət xor kollektivinin ifasında dövlət himninin oxunması ilə başlayıb. Sonra məktəbin xalq çalğı alətləri orkestrinin, nağara, qarmon, kanon ifaçılarının çıxışları təqdim olunub. Tədbirdə səslənən rəngarəng ifalar, şeirlər, eləcə də rəqs nömrələri tamaşaçıların könlünü oxşayıb.




* * *

Astara rayon Mərkəzi kitabxanasının Uşaq şöbəsində Mirzə Ələkbər Sabir adına şəhər 1 saylı orta məktəbin V sinif şagirdlərinin iştirakı ilə Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar “Azərbaycanın tarixi haqqında nə bilirsiniz?” mövzusunda inşa müsabiqəsi keçirilib.

Çıxış edənlər Xalq Cümhuriyyətinin tarixindən söz açıblar. Bildirilib ki, Cümhuriyyətin yaratdığı demokratik əsaslı dövlətçilik dəyərləri müasir müstəqil Azərbaycan Respublikası tərəfindən uğurla davam etdirilir. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dinamik inkişaf edən ölkəyə çevrilib.

Sonra inşa müsabiqəsi haqqında məlumat verilib. Müsabiqədə 20 məktəbli iştirak edib. Qaliblər rayon Mərkəzləşdirilmiş kitabxana sisteminin fəxri fərmanı ilə təltif olunub, onlara hədiyyələr təqdim edilib.

* * *

Lerik Rayon Dövlət Rəsm Qalereyasında 28 May - Respublika Gününə həsr olunmuş sərgi keçirilib. Rayon Mədəniyyət mərkəzi, uşaq Musiqi məktəbi, Uzunömürlülər muzeyi, Diyarşünaslıq muzeyi və rayon Mərkəzləşdirilmiş kitabxana sisteminin birgə təşkilatçılığı ilə hazırlanıb. Sərgi əvvəlcə qalereyanın sərgi salonunda, Mədəniyyət mərkəzinin foyesində, sonra isə ümumrayon tədbirində açıq səma altında nümayiş olunub. Uşaqların əl işlərindən ibarət rəsm sərgisində Azərbaycan Xalq Cümhuriyyətinə həsr olunmuş rəsm əsərləri təqdim edilib.

Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə daha bir sərgi Lerikin Uzunömürlülər muzeyində təşkil olunub. Muzeyə gələn qonaqlara Cümhuriyyətin qurucuları, eləcə də ötən əsrin sonlarında xalqımızın azadlıq mübarizəsi haqqında məlumat verilib, sənədli film nümayiş etdirilib.

Tarix-diyarşünaslıq muzeyində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı keçirilən tədbirdə rayon rəhbərliyi, ziyalılar və məktəblilər iştirak ediblər. Çıxışlarda vurğulanıb ki, Azərbaycan Respublikası Cümhuriyyətin varisi olduğunu onun ideallarını yaşadıb inkişaf etdirməklə sübut edib. Tədbirdə səsləndirilən mahnılar iştirakçılarda bayram əhval-ruhiyyəsi yaradıb.

Hamarat kənd kitabxanasında Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunan tədbirdə iştirakçılar öncə Cümhuriyyətin tarixi ilə bağlı kitab və dövri nəşrlərdən, şəkillərdən ibarət sərgiyə baxıblar. Çıxışlardan sonra məktəblilərin hazırladığı “Sənə min bir məhəbbət sinəmdə tutmuş məkan” adlı ədəbi-bədii kompozisiya böyük maraqla qarşılanıb.

Masallı
Regional
Mədəniyyət
İdarəsi

# Yurdun dörd bir yanında "Cümhuriyyət ili":
## tarixə ehtiram, gələcəyə inam



**Masallı rayon mərkəzindəki Heydər Əliyev parkında 28 May - Respublika Gününə həsr olunmuş konsert keçirilib. Konsertdə Masallı Regional Mədəniyyət İdarəsinin musiqi kollektivləri, ifaçılar, "Halay" folklor qrupu, "Masallı" rəqs qrupu rəngarəng musiqi nömrələri ilə rayon sakinlərinə bayram əhval-ruhiyyəsi yaşadıblar.**

Şəhərdəki Heydər Əliyev Mərkəzində isə Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar elmi-praktik konfrans keçirilib. Tədbirdə Cümhuriyyətin fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub. Çıxışlarda vurğulanıb ki, XX əsr Azərbaycanın tarixində taleyüklü hadisələrlə zəngin olub. Bu hadisələrin ən yüksək zirvəsi 1918-ci il mayın 28-də Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsidir. Qeyd olunub ki, ümummilli lider Heydər Əliyev Cümhuriyyətin yaradılmasını dövlətçilik tariximizdə parlaq səhifə kimi dəyərləndirib. Cümhuriyyətin tarixi ənənələri bu gün uğurla inkişaf etdirilir.

Konfransda BDU-nun professoru, tarix elmləri doktoru Anar İsgəndərovun mövzu ilə bağlı məruzəsi dinlənilib. Məruzə ətrafında çıxış edənlər Cümhuriyyətin xalqımıza irs qoyduğu dövlətçilik ənənələrindən, müstəqil Azərbaycan Respublikasının qazandığı uğurlardan danışıblar.

R.Tağıyev adına Masallı Tarix-Diyarşünaslıq Muzeyində rayon məktəbliləri üçün "Tarixin tarixləşən anı" mövzusunda dərs təşkil olunub. Həmçinin Tarix-diyarşünaslıq muzeyi və rayon Mərkəzləşdirilmiş kitabxana sisteminin birgə təşkilatçılığı ilə "Azərbaycan Xalq Cümhuriyyəti və mədəniyyət" mövzusunda tədbir keçirilib. Çıxış edənlər bildiriblər ki, cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, Cümhuriyyət hökuməti digər sahələrdə olduğu kimi, mədəni-maarif sahəsinin də inkişafına diqqət yetirib, bir sıra zəruri addımlar atılıb.




Masallı rayon Mərkəzi kitabxanasında da tədbir keçirilib. Çıxış edənlər Xalq Cümhuriyyətinin tarixindən ətraflı söz açıblar. Bildirilib ki, 1918-ci ildə Cümhuriyyətin qurulması ilə Azərbaycan müsəlman Şərqində demokratik idarəçilik modelinə keçən ilk ölkə olub.

* * *

Cəlilabad rayon Heydər Əliyev Mərkəzinin qarşısında Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi, ümummilli liderin anadan olmasının 95-ci ildönümü münasibətilə bayram konserti təqdim olunub. Tədbirdə rayon rəhbərliyi, təhsil, səhiyyə, idarə və müəssisələrin əməkdaşları, rayon sakinləri iştirak ediblər. Tədbirə dəvət olunan müğənnilərin və yerli ifaçıların təqdim etdiyi musiqi nömrələri maraqla qarşılanıb.

Cəlilabad rayon Mərkəzi kitabxanasının Uşaq şöbəsi şəhər 8 saylı orta məktəbin şagirdləri üçün "Yaşa, yaşa, Azərbaycan!" adlı tədbir təşkil edib. Tədbirdə Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti haqqında ətraflı məlumat verilib.

* * *

Yardımlı rayonunda "Azərbaycan Xalq Cümhuriyyəti və Heydər Əliyev ideyaları" mövzusunda tədbir keçirilib. Tədbirdə bildirilib ki, Xalq Cümhuriyyəti 1920-ci il aprel işğalı ilə fəaliyyətini dayandırsa da, xalqımızın müstəqillik ideyaları yaşayıb, Azərbaycan 1991-ci ildə yenidən öz müstəqilliyinə qovuşub. Vurğulanıb ki, dövlət müstəqilliyimizin qorumasında, inkişaf etməsində məhz ulu öndər Heydər Əliyevə borcluyuq.

Tədbirdə Yardımlı rayon Mədəniyyət mərkəzi tərəfindən hazırlanmış konsert proqramı təqdim edilib, rayon idmançılarının nümunəvi çıxışları olub. Masallı rayonundan dəvət olunmuş "Halay" xalq kollektivi və oğlanlardan ibarət rəqs qrupunun ifası da izləyicilərə bayram əhvalı yaşadıb.

Cümhuriyyətin yubileyi münasibətilə daha bir konsert proqramı Yardımlı rayon mərkəzindəki Heydər Əliyev parkında təşkil olunub. Konsertdə bəstəkar və xalq mahnıları səsləndirilib.

Yardımlı rayon Mərkəzi kitabxanasında təşkil olunan sərgidə isə Cümhuriyyətin dövlətçilik simvolları və ilk demokratik respublikamızın yaradılmasında əməyi olan şəxsiyyətlərin fotoşəkilləri və onların fəaliyyəti haqqında nəşrlər nümayiş olunub. Həmçinin kitabxananın oxu zalında dəyirmi masa təşkil olunub. Dəyirmi masada ölkəmizin zəngin dövlətçilik tarixindən söhbət açılıb. Sonda tədbir iştirakçıları sərgi ilə tanış olublar.



**Cümhuriyyətin 100 illik yubileyi Sabirabad Regional Mədəniyyət İdarəsinin tabe müəssisələrində də bayram əhvalında qeyd olunub.**

# Yurdun dörd bir yanında "Cümhuriyyət ili": *tarixə ehtiram, gələcəyə inam*

**Sabirabad** Regional Mədəniyyət İdarəsi



Sabirabad rayon Mədəniyyət mərkəzində təşkil olunan tədbirin iştirakçıları əvvəlcə mərkəzin foyesində Tarix-diyarşünaslıq muzeyi ilə birgə yaradılmış guşəyə və ümumtəhsil məktəbləri şagirdlərinin əl işlərindən ibarət sərgilərə baxıblar.

Çıxış edənlər Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə mühüm yerindən söz açıb, Cümhuriyyətin varisi olan Azərbaycan Respublikasının bu gün dünya birliyində özünə layiqli yer tutduğunu vurğulayıblar. Bildirilib ki, Birinci Respublikanın ömrü qısa olsa da, onun dəyərlər sistemi xalqımızın yaddaşında əbədi iz qoyub, milli dövlətçilik ənənələrinin XX əsrin sonunda yenidən bərpa edilməsində əhəmiyyətli rol oynayıb.

Tədbir konsert proqramı ilə davam edib. Sabirabad rayon Mədəniyyət mərkəzinin nəzdində fəaliyyət göstərən Q.Quliyev adına xalq çalğı alətləri ansamblının və Ü.Hacıbəyli adına Musiqi məktəbi xanəndələrinin ifasında bir-birindən rəngarəng ifalar iştirakçılar tərəfindən alqışlarla qarşılanıb.

Sabirabad rayon Heydər Əliyev Mərkəzində N.Nərimanov adına 2 saylı tam orta məktəbin müəllim və şagirdlərinin iştirakı ilə tədbir keçirilib. Cümhuriyyətin yaranması haqqında geniş məlumat verildikdən sonra məktəbin kollektivi mərkəzin 3D kinozalında rejissor Yavər Rzayevin "İlahi məxluq" tammetrajlı bədii filmini izləyiblər.

* * *

Xalq Cümhuriyyətinin 100 illik yubileyi Şirvan şəhər Heydər Əliyev Mərkəzi və Musiqi məktəbinin birgə təşkil etdiyi tədbirlə qeyd olunub. Çıxışlarda ölkəmizin dövlətçilik tarixindən bəhs olunub, mövzu ilə bağlı məruzələr dinlənilib.



Musiqi məktəbinin xoru dövlət himnini səsləndirib. Tədbir məktəbin müəllim və şagirdlərinin ifasında geniş konsert proqramı ilə davam edib.

Şirvan şəhər Mədəniyyət mərkəzinin "Energetik" klubu tərəfindən Cümhuriyyətin yubileyi münasibətilə məktəblilərin əl işlərindən ibarət sərgi təşkil olunub. Sərgidə Şirvan şəhər ümumtəhsil məktəblərində oxuyan şagirdlərin əl işləri sərgilənib. Təqdim olunan dekorativ-tətbiqi sənət nümunələri arasında müsəlman Şərqində ilk demokratik respublikanın atributlarının əks olunduğu nümunələr maraqla qarşılanıb.

* * *

Regional idarənin əhatə etdiyi Hacıqabul rayon Heydər Əliyev Mərkəzində 28 May - Respublika Günündə Cümhuriyyətin yubileyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib. İştirakçılar əvvəlcə ümummilli liderin abidəsini ziyarət ediblər.

Tədbirdə "Müsəlman Şərqində ilk demokratik respublika" adlı sənədli film nümayiş olunub. Sonra "Azərbaycanda milli dövlətçiliyin bərqərar olması", "Demokratik respublika dövründə ordu quruculuğu və ərazi bütövlüyü uğrunda mübarizə", "Azərbaycan Xalq Cümhuriyyəti dövründə maarif və mədəni quruculuq" və digər mövzularda məruzələr dinlənilib.

Heydər Əliyev Mərkəzində Cümhuriyyətin 100 illiyi ilə əlaqədar məktəblilər arasında bilik yarışması da keçirilib. Yarışmada rayonun 9 məktəbi təmsil olunub.

Müsabiqənin sualları Azərbaycan Xalq Cümhuriyyətinin tarixi və fəaliyyəti ilə bağlı olub. Şəhər 3 saylı tam orta məktəbin "Mübariz" komandası I, 1 saylı tam orta məktəbin "Müsavat" komandası II, 2 saylı tam orta məktəbin "Qarabağ" komandası isə III yerə layiq görülüb.




* * *

Saatlı şəhərində isə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi və Saatlı rayonunun təşkil edilməsinin 75 illiyi münasibətilə təntənəli tədbir keçirilib. Tədbirdə çıxış edənlər Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi və fəaliyyəti barədə ətraflı məlumat veriblər. Sonra rayonun 75 illiyi münasibətilə ictimai-mədəni həyatda fəal iştirak edən bir qrup şəxsə mükafatlar təqdim olunub. Saatlı rayon Mədəniyyət mərkəzi və Bülbül adına Musiqi məktəbinin birlikdə hazırladığı konsert proqramında şən mahnılar və rəqslər tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb.

# Yurdun dörd bir yanında “Cümhuriyyət ili”: *tarixə ehtiram, gələcəyə inam*

**Ağdaş**
Regional
Mədəniyyət
İdarəsi

**Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar Ağdaş Regional Mədəniyyət İdarəsinə daxil olan Ağdaş, Göyçay, Ucar və Zərdab rayonlarındakı mədəniyyət müəssisələrində silsilə tədbirlər keçirilib.**



Ağdaş rayon Mədəniyyət mərkəzində Mərkəzi kitabxana və Təbiət, humanitar, texniki təmayüllü gimnaziyanın birgə təşkilatçılığı ilə “Azərbaycanın müstəqilliyi dönməz və əbədidir” adlı ədəbi-bədii kompozisiya təşkil olunub. Mərkəzin foyesində “Azərbaycan Xalq Cümhuriyyəti - 100” adlı sərgi nümayiş etdirilib. Cümhuriyyətin








tarixini əks etdirən sənədlər, tariximizin bu şanlı səhifəsindən bəhs edən müxtəlif nəşr nümunələri iştirakçıların marağına səbəb olub. Gimnaziyanın 4-cü sinif şagirdlərinin ifasında ədəbi-bədii kompozisiya da maraq doğurub.

Ağdaş Rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə Heydər parkında açıq havada keçirilən tədbirdə rayon Mədəniyyət mərkəzinin musiqi və rəqs kollektivlərinin konsert proqramı təqdim edilib, məktəblilərinin hazırladığı ədəbi-bədii kompozisiya göstərilib. Tarix-diyarşünaslıq muzeyi tərəfindən hazırlanmış “Azərbaycan Xalq Cümhuriyyəti - 100” adlı sərgi nümayiş olunub.

Ağdaş rayon Mərkəzi kitabxanasının Uşaq şöbəsində isə “Azad respublika, adın mübarək!” adlı tədbir təşkil olunub. Şagirdlərin ifasında vətənpərvərlik mövzulu şeirlər səsləndirilib. Məktəblilərin əl işlərindən ibarət “Tarixin dərinliklərindən süzülüb gəlmiş Azərbaycan” adlı rəsm sərgisi iştirakçılarda dərin təəssürat yaradıb.

* * *

Habil Əliyev adına Ağdaş şəhər uşaq Musiqi məktəbində İsmayıllı Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən Şamaxı şəhər İncəsənət təhsili mərkəzi ilə birgə bayram konserti təşkil edilib.

Ağdaş Regional Mədəniyyət İdarəsinin rəisi Tahir Əliyev, Musiqi məktəbinin direktoru Rafiq İsgəndərov, Şamaxı şəhər İncəsənət təhsili mərkəzinin direktoru Namiq Rzazadə çıxış edərək iştirakçıları Cümhuriyyətin 100 illiyi münasibətilə təbrik ediblər. Hər iki incəsənət ocağının müəllim və şagirdləri tərəfindən hazırlanmış konsert proqramı tamaşaçıların könlünü oxşayıb.

* * *

Göyçay rayon Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinə həsr edilən tədbirdə 3 saylı məktəbin şagirdlərinin hazırladığı ədəbi-bədii kompozisiya təqdim edilib.

Cümhuriyyətin yubileyi ilə əlaqədar Göyçay rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində də tədbir keçirilib. Mərasimdə müsəlman Şərqində ilk demokratik respublikanın tarixi, fəaliyyəti və bolşevik Rusiyası tərəfindən süquta uğradılması haqqında ətraflı məlumat verilib.

* * *

Zərdab rayon Heydər Əliyev Mərkəzində keçirilən “Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlətçilik tariximizdə rolu - əbədi Cümhuriyyət” mövzusunda tədbirdə Gənclər və idman idarəsinin, eləcə də Uşaq və ailələrə dəstək mərkəzinin əməkdaşları və rayon 1 saylı məktəb-liseyin şagirdləri iştirak ediblər. Məktəb-liseyin şagirdlərinin təqdim etdiyi “Müstəqilliyimiz dönməzdir, əbədidir, daimidir” adlı kompozisiya alqışlarla qarşılanıb.

Zərdab rayon Mərkəzi kitabxanası və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Ucar bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə “Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında milli-mənəvi dəyərlərimizin rolu” mövzusunda tədbir təşkil olunub.

* * *

Ucar rayon Heydər Əliyev Mərkəzində rayon Mədəniyyət mərkəzinin təşkilatçılığı ilə Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş “Qoy var olsun Azərbaycan!” adlı mərasim təşkil edilib. Tədbirdə rayon İcra Hakimiyyətinin məsul əməkdaşları, təhsil, səhiyyə, mədəniyyət işçiləri, məktəblilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Çıxış edənlər Xalq Cümhuriyyətinin müsəlman Şərqində ilk demokratik dövlət olduğunu qürur hissi ilə vurğulayıblar. Rayon Mədəniyyət mərkəzinin tabeliyində fəaliyyət göstərən folklor kollektivlərinin hazırladığı ədəbi-bədii kompozisiya tədbir iştirakçılarında dərin təəssürat yaradıb.

**Ağstafa Regional Mədəniyyət İdarəsinə daxil olan rayonların mədəniyyət müəssisələri Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə müxtəlif tədbirlər təşkil ediblər.**

# Yurdun dörd bir yanında "Cümhuriyyət ili": *tarixə ehtiram, gələcəyə inam*

**Ağstafa** Regional Mədəniyyət İdarəsi



Ağstafa şəhər uşaq Musiqi məktəbinin konsert zalında "Şanlı tariximiz" adlı konsertdə rayon ictimaiyyəti və mədəniyyət nümayəndələri iştirak ediblər. Konsert proqramında Ağstafa və Şəmkir rayon Musiqi məktəbləri kollektivlərinin çıxışları maraqla qarşılanıb.

Regional idarə və Ağstafa Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə şəhər uşaq Musiqi məktəbində "Azərbaycan Xalq Cümhuriyyəti - 100" adlı bayram tədbiri keçirilib. Mərasim iştirakçıları müsəlman Şərqində yaradılmış ilk demokratik, parlamentli respublika haqqında məruzələr ediblər. O dövrün ictimai-siyasi prosesləri təhlil edilib, Cümhuriyyət hökumətinin həyata keçirdiyi islahatlardan söz açılıb. Tədbir mədəniyyət işçilərinin rəngarəng musiqi proqramı ilə davam edib.

* * *

Qazax rayon Mədəniyyət mərkəzinin kollektivi Cümhuriyyətin 100 illiyi münasibətilə N saylı hərbi hissədə konsert proqramı ilə çıxış edib. Tədbirdə çıxış edənlər Xalq Cümhuriyyətinin 23 ay müddətində keçdiyi çətin və şərəfli yoldan, onun qurucularından danışıblar. Hərbi hissənin zabitləri şəxsi heyətin vətənpərvərliyindən, müstəqil Azərbaycanda ordu quruculuğundan danışaraq, Ali Baş Komandan İlham Əliyevin torpaqlarımızı azad etmək barədə əmrinə hər an hazır olduqlarını bildiriblər.

Sonra tədbir bədii özfəaliyyət kollektivinin ifaları ilə davam etdirilib, müstəqil Azərbaycana həsr olunmuş şeirlər səsləndirilib.

* * *

Qazax rayon Mərkəzi kitabxanasının Uşaq şöbəsi Cümhuriyyətin 100 illiyinə həsr edilmiş tədbirlər çərçivəsində ilk azərbaycanlı hərbi topoqraf, general-mayor İbrahim ağa Vəkilovun (1853-1934) anadan olmasının 165 illiyi münasibətilə sərgi təşkil edib.

Açıq havada keçirilən sərgidə Cümhuriyyətin yaranmasında xüsusi rolu olan Milli Şura üzvləri haqqında, Azərbaycanın tarixini əks etdirən kitablar nümayiş olunub.

Çıxış edənlər İbrahim ağa Paşa oğlu Vəkilovun həyat və fəaliyyəti haqqında məlumat veriblər. Bildirilib ki, İ.Vəkilov Qafqazda general-mayor rütbəsinə layiq görülmüş yeganə hərbi topoqraf olub. Sərgi rayon ictimaiyyəti və məktəblilər tərəfindən maraqla qarşılanıb.



* * *





Qazax şəhərindəki Nəriman Nərimanov adına istirahət parkında Cümhuriyyət dövründə Milli Ordunun təşkilində müstəsna xidmətləri olmuş general-mayor Cavad bəy və polkovnik Rüstəm bəy Şıxlinski qardaşlarının anım mərasimi keçirilib. Tədbirdə Şıxlinski qardaşlarının general-leytenant Əliağa Şıxlinskinin qardaşı Məmmədağa Şıxlinskinin oğulları olduqları diqqətə çatdırılıb.

Vurğulanıb ki, bolşeviklər Azərbaycanı işğal etdikdən sonra Şıxlinski qardaşları silahı yerə qoymayıb, 1920-ci il mayın sonlarında baş vermiş Gəncə üsyanının təşkilində iştirak ediblər. Üsyan yatırıldıqdan sonra Rüstəm bəy Nargin adasında güllələnib, Cavad bəy isə yaralı vəziyyətdə döyüş meydanından çıxarılaraq Gürcüstana aparılıb, Türkiyəyə, oradan İrana gedib. Cavad bəy İranda da hərbçi kimi xidmətini davam etdirib, 1959-cu ildə Tehranda vəfat edib.

Çıxışlardan sonra Cavad bəy və Rüstəm bəy Şıxlinski qardaşlarının vaxtilə yaşadıqları evə baxış olub və Azərbaycan Ordusunun 100 illik yubileyi ərəfəsində həmin evə xatirə lövhəsinin vurulması qərara alınıb.

* * *

Ağstafa Regional Mədəniyyət İdarəsinin və Tovuz Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Tovuz şəhərindəki Heydər Əliyev adına mədəniyyət və istirahət parkında Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə tədbir keçirilib. Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin dövlətçilik ənənələrinə sadiq qalaraq tarixi varislik üzərində öz dövlətini yaradıb inkişaf etdirir. Bu gün müstəqil dövlətimiz tarixinin yeni inkişaf mərhələsini yaşayır. Bayram tədbiri rayon incəsənət ustalarının konsert proqramı ilə davam edib.

Bərdə Regional Mədəniyyət İdarəsi

# Yurdun dörd bir yanında "Cümhuriyyət ili":
## tarixə ehtiram, gələcəyə inam

**Bərdə Regional Mədəniyyət İdarəsinin müəssislərində Cümhuriyyətin 100 yaşı çeşidli tədbirlərlə, vətənpərvərlik coşqusu ilə qeyd olunub.**







Bərdə Dövlət Rəsm Qalereyasının Xalq Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümü münasibətilə açıq havada keçirdiyi tədbirdə xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsindən danışılıb. Şəhər 4 nömrəli uşaq İncəsənət məktəbi şairdlərinin Cümhuriyyətin 100 illiyi ilə bağlı çəkdiyi rəsmlər nümayiş olunub. Mərasim konsert proqramı ilə davam edib.






Rayondakı Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə dövlət himni oxunduqdan sonra akademik Zərifə Əliyeva adına məktəb-liseyin şagirdlərinin ifasında ədəbi-bədii kompozisiya təqdim olunub.

Bərdə şəhər Mədəniyyət sarayında keçirilən mərasimdə Cümhuriyyətin yaranması haqqında söz açılıb, Respublika Gününə həsr olunmuş videoçarx nümayiş etdirilib.

* * *

Regional idarənin Mingəçevir şəhərindəki Azər Niftəliyev adına Mədəniyyət mərkəzində "Şərqin ilk demokratik respublikası" adlı tədbir keçirilib. Çıxış edənlər Cümhuriyyətin yaranması ərəfəsində beynəlxalq aləmdə və regionda baş verən proseslərdən bəhs ediblər. Bildirilib ki, xalqımızın maarifpərvər ziyalıları milli dövlətçiliyin yaradılması və qorunması yolunda gərgin mübarizə aparıblar. Tədbir konsert proqramı ilə davam edib.

Mingəçevir şəhər Üzeyir Hacıbəyli adına 11 illik Musiqi məktəbində təşkil olunan "İstiqlaliyyətə gedən yol" mövzulu tədbirdə Cümhuriyyətin əldə etdiyi nailiyyətlərdən danışılıb. Sonda məktəbin xor kollektivinin və xalq çalğı alətləri orkestrinin ifasında Azərbaycan bəstəkarlarının əsərləri ifa olunub.

Bülbül adına 2 nömrəli Musiqi məktəbində "Müstəqil Azərbaycan" adlı ədəbi-bədii kompozisiya təqdim olunub. Tədbirdə Xalq Cümhuriyyətinin bütün Türk dünyasının, müsəlman aləminin ən parlaq səhifələrindən biri olduğu vurğulanıb.

Mingəçevir şəhər Heydər Əliyev Mərkəzində "Müstəqil Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisidir" mövzusunda konfrans təşkil olunub. Konfransda Cümhuriyyət dövründə irqi, milli, dini fərq qoyulmadan bütün vətəndaşların hüquq bərabərliyinin təmin olunmasından, qadınlara da seçki hüququ verilməsindən söz açılıb.

Mingəçevir şəhər Fəxrəddin Qasımov adına uşaq İncəsənət məktəbində də Cümhuriyyətin 100 illiyi ilə əlaqədar tədbir keçirilib.

* * *

Tərtər rayon Heydər Əliyev Mərkəzində "Cümhuriyyətin 100 ili" adlı tədbir keçirilib. Tədbir iştirakçıları Cümhuriyyət dövrünü özündə əks etdirən foto, tarixi sənədlər və kitablardan ibarət sərgi ilə tanış olublar. Məktəblilərin ifasında kompozisiya təqdim edilib.

Mədəniyyət mərkəzində təşkil olunan "Azərbaycan Xalq Cümhuriyyəti - 100" adlı tədbirdə isə mərkəzin və Musiqi məktəbi kollektivinin hazırladığı bəstəkar və xalq mahnılarından ibarət konsert proqramı maraqla qarşılanıb.

Uşaq musiqi məktəbində keçirilən mərasimdə şagirdlərin hazırladığı konsert proqramı iştirakçıların könlünü oxşayıb.

* * *

Yevlax şəhər Heydər Əliyev Mərkəzində Cümhuriyyətin yubileyi ilə bağlı rəngarəng proqram təqdim olunub. Şəhər 2 nömrəli Musiqi məktəbinin "Pöhrələr" ansamblının bir-birindən gözəl çıxışları tədbirə rəng qatıb.

Şəhər Mədəniyyət mərkəzində "Azadlığı istəmirəm zərrə-zərrə..." adlı təntənəli bayram konserti təşkil olunub. Mədəniyyət mərkəzinin "Kür" vokal instrumental ansamblı solistlərinin ifa etdikləri şən mahnılar, şəhər 1 nömrəli və Xaldan kənd musiqi məktəblərinin müəllim və şagirdlərdən ibarət xor kollektivlərinin ifaları maraqla qarşılanıb.

Mədəniyyət mərkəzi tərəfindən "Sahil bulvar" parkında təşkil edilən "Müstəqilliyimiz əbədidir" adlı təntənəli bayram konserti də yaddaqalan olub.

Xaldan kənd Musiqi məktəbinin kollektivi Yevlax Mədəniyyət mərkəzinin filialı olan şəhər Yaradıcılıq evində konsert proqramı ilə çıxış edib. Məktəbin xalq çalğı alətləri ansamblının ifasında təqdim olunan şən musiqilər qonaqların hərarətli alqışlarını qazanıb.

# Yurdun dörd bir yanında “Cümhuriyyət ili”: *tarixə ehtiram, gələcəyə inam*

**Ağcabədi Regional Mədəniyyət İdarəsi**

**Ağcabədi rayon Heydər Əliyev adına mərkəzi meydanda Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təntənəli bayram tədbiri keçirilib. Tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, N saylı hərbi hissənin əsgər və zabitləri iştirak edib. Çıxış edənlər tariximizin bu şanlı səhifəsi haqqında danışıblar. Qeyd olunub ki, gənc nəsil Azərbaycan tarixini, o cümlədən Cümhuriyyətin keçdiyi yolu dərindən öyrənməlidir.**




Tədbirin bədii hissəsində Ağcabədi şəhər uşaq Musiqi məktəbinin kollektivi şən, bayram ovqatlı konsert proqramı ilə çıxış edib. İfa olunan mahnılar, Üzeyir Hacıbəyli adına Ağcabədi şəhər uşaq İncəsənət məktəbinin birləşmiş rəqs qruplarının təqdim etdiyi rəqs nömrələri, səslənən şeirlər tamaşaçılarda böyük rəğbət doğurub.

Ağcabədi Regional Mədəniyyət İdarəsinin tabeliyində olan Hacıbədəlli kənd uşaq Musiqi məktəbi N saylı hərbi hissədə konsert proqramı təşkil edib. Konsert Xalq Cümhuriyyətinin 100 illik yubileyinə və hərbi hissənin yaranmasının 25 illiyinə həsr olunub. Kollektivin təqdim etdiyi ifalar əsgər və zabitlər tərəfindən sürəkli alqışlarla qarışlanıb.

Regional idarənin Yaqub Məmmədov adına rayon Mədəniyyət mərkəzinin tabeliyində olan mədəniyyət müəssisələri və klub filiallarında da Cümhuriyyətin yubileyi ilə əlaqədar tədbirlər planı əsasında oxucu konfransları keçirilib, dəyirmi masalar təşkil edilib. Gənc istedadların əl işlərindən ibarət sərgilər hazırlanıb, musiqili tədbirlər təşkil olunub.

* * *

Ağdam rayon Heydər Əliyev Mərkəzində “Xalqımızın dövlətçilik salnaməsinin parlaq səhifəsi” adlı tədbir keçirilib. Rayon Mərkəzi kitabxanası və Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə reallaşan mərasimdə çıxış edənlər Cümhuriyyətin qurulması, ölkəmizin müstəqillik yolunda keçdiyi keşməkeşli mərhələdən danışıblar.

Mərkəzi kitabxananın Uşaq şöbəsinin kənd kitabxana filiallarında təşkil etdiyi tədbirlərdə kitablar, uşaqların əl işləri sərgilənib, Azərbaycan Xalq Cümhuriyyətinə həsr olunmuş videoçarxlar nümayiş olunub.

Ağdam rayon Mədəniyyət evində keçirilən tədbirdə Azərbaycan Xalq Cümhuriyyətinə aid sənədli film nümayiş etdirilib. İlk demokratik respublikamızın yaranması haqqında ətraflı məlumat verilib. Ağdam rayon “Şur” ansamblının rəngarəng musiqi nömrələri tədbirə bayram əhval-ruhiyyəsi bəxş edib.








Cümhuriyyətin yubileyinə həsr olunan daha bir tədbir rayon Heydər Əliyev Mərkəzinin qarşısında açıq havada keçirilib. Regional idarənin rayon nümayəndəliyi və Mədəniyyət mərkəzinin təşkilatçılığı ilə baş tutan tədbirdə rayon ərazisində yerləşən uşaq musiqi məktəbləri kollektivlərinin iştirakı ilə təqdim olunan konsert proqramı maraqla qarşılanıb.

* * *

Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində Laçın rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə tədbir keçirilib. Əvvəlcə rayon rəhbərliyi və ictimaiyyət nümayəndələri ümummilli liderin büstü önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər. Tədbirdə çıxış edənlər bildiriblər ki, özünü Xalq Cümhuriyyətinin varisi elan edən müasir Azərbaycan dövləti ümummilli lider Heydər Əliyevin dövlətçilik strategiyası əsasında inkişaf edərək müstəqilliyinin əbədiliyini və dönməzliyini təmin edib.

Çıxışlardan sonra Laçın rayon Şamkənd kənd uşaq Musiqi məktəbinin saz müəllimi Nizami Şirinova Mədəniyyət Nazirliyinin “Fəxri mədəniyyət işçisi” döş nişanı təqdim edilib.

Laçın rayon MKS-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi və Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinə həsr edilmiş kitab bayramı keçirilib. Məktəblilərin ifasında bədii kompozisiya təqdim edilib. Sonda tədbir iştirakçıları Heydər Əliyevin həyat və fəaliyyətinə, Xalq Cümhuriyyətinə həsr edilən nəşrlərdən ibarət sərgi ilə tanış olublar.

**Şəmkir Regional Mədəniyyət İdarəsi**

# Yurdun dörd bir yanında “Cümhuriyyət ili”:
## tarixə ehtiram, gələcəyə inam

Şəmkir şəhərindəki Heydər Əliyev Mərkəzində Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib. Konfransda rayon rəhbərliyi, millət vəkilləri, tarixçi alimlər iştirak ediblər. Əvvəlcə iştirakçılar AMEA-nın Tarix İnstitutunun nəşrlərindən ibarət sərgi ilə tanış olublar.









Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov geniş məruzə ilə çıxış edərək Cümhuriyyətin yaranması, fəaliyyəti və süqutu, o dövrün tarixi reallıqları barədə ətraflı danışıb. Vurğulanıb ki, Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində və türk dünyasında ilk parlamentli respublika olmaqla, insan hüquq və azadlıqlarının bərqərar olması, etnik və dini mənsubiyyətdən asılı olmayaraq bütün vətəndaşların bərabər hüquqlarının tanınması, bir çox Avropa ölkəsindən daha əvvəl qadınlara seçki hüququnun verilməsi kimi mütərəqqi qərarları ilə tarixə düşüb.

Tədbirdə çıxış edənlər Xalq Cümhuriyyətinin tariximizdə rolundan danışıblar. Qeyd olunub ki, demokratik dəyərlərə sadiqlik nümayiş etdirən Azərbaycan Xalq Cümhuriyyəti qısa bir müddətdə - 23 ay fəaliyyət göstərsə də, xalqımızın dövlətçilik salnaməsində silinməz iz qoyub.

* * *

Göygöl şəhər Heydər Əliyev adına Mədəniyyət və istirahət parkında yerləşən Yay kinoteatrında tanınmış ifaçıların iştirakı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş bayram konserti keçirilib.

Cümhuriyyətin yubileyinə həsr edilmiş daha bir konsert parkda yerləşən Uşaq əyləncə mərkəzinin qarşısında təşkil olunub. Tədbirdə şagirdlərin ifasında musiqilər maraqla qarşılanıb.





* * *

Gədəbəy rayonunda Xalq Cümhuriyyətinin 100-cü ildönümü müxtəlif tədbirlərlə qeyd olunub. Mədəniyyət ocaqlarında, ümumtəhsil məktəblərində dəyirmi masalar, inşa yazı müsabiqələri və müxtəlif idman yarışları təşkil edilib. Yekun olaraq rayon Mədəniyyət mərkəzində geniş bayram tədbiri keçirilib.

* * *

Regional idarənin əhatə etdiyi Daşkəsən rayonunda da Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü münasibətilə tədbirlər keçirilib, rayon Mədəniyyət mərkəzində təntənəli mərasim təşkil olunub.

Rayon İncəsənət məktəbi şagirdlərinin tədris ilinin yekunu münasibətilə ənənəvi sənət hesabatı da əlamətdar yubileylərə - ümummilli lider Heydər Əliyevin anadan olmasının 95, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümünə həsr olunub.

* * *

Cümhuriyyətin 100 illiyi münasibətilə ölkəmizin dörd bir yanında gerçəkləşən silsilə tədbirlər barədə yazıları Şəmkir Regional Mədəniyyət İdarəsi ilə yekunlaşdırmağımız səbəbsiz deyil. Şəmkir böyük istiqlal şairimiz, dövlət himnimizin sözlərinin müəllifi Əhməd Cavadın vətənidir. Onun bir əsr öncə xalqımıza ərməğan etdiyi ölməz misralar dahi Üzeyir Hacıbəylinin möhtəşəm musiqisi ilə süslənərək Azərbaycanın müstəqil dövlət kimi varlığını əbədiyyətədək dünyaya bəyan edəcəkdir. Şəmkir şəhərindəki İstiqlal parkında ucaldılan “Üzeyir Hacıbəyli və Əhməd Cavad” kompozisiyası (müəllif heykəltəraş Azad Əliyev) da xalqımızın bu iki görkəmli ziyalısının xatirəsini əbədiləşdirməklə bərabər onların simasında milli istiqlal ruhumuzun sənət təcəssümüdür.

***Azərbaycan, Azərbaycan!***
***Ey qəhrəman övladın şanlı Vətəni!***
***Səndən ötrü can verməyə cümlə hazırız!***
***Səndən ötrü qan tökməyə cümlə qadiriz!***
***Üçrəngli bayrağınla məsud yaşa!***

# Musiqi mədəniyyətimiz Cümhuriyyət dövründə

**Azərbaycan xalqının mənəviyyatında hər zaman aparıcı olmuş tolerantlıq qatı, dünyaya açıqlıq, fərqli mədəniyyətlərlə ünsiyyət və dialoqa meyllilik onun mədəni zənginliyinin də mühüm göstəricisidir. Ötən əsrin əvvəllərində muğam zəngulələri ilə klassik musiqinin həmahəng olduğu bir şəhərdə Üzeyir Hacıbəylinin (1885-1948) yaratdığı ilk milli opera da Şərq və Qərb mədəniyyətlərinin dialoqu idi.**

Üzeyir bəy Avropadan klassik opera üslubunu əxz edərək müsəlman Şərqində bu musiqi janrının əsasını qoydu. Azərbaycan professional musiqisinin banisinin 1908-ci il yanvarın 12-də tamaşaya qoyulan “Leyli və Məcnun” operası musiqi mədəniyyətimizdə inqilab oldu. Bundan sonra Üzeyir bəy "Şeyx Sənan", "Əsli və Kərəm" kimi digər muğam operalarını yaratdı, həmçinin Azərbaycanda musiqili komediya janrının ("Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" operettaları) banisi oldu.

Dahi bəstəkarın zəngin ictimai-mədəni fəaliyyətinin mühüm bir mərhələsini Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) dövrü təşkil edir. O, milli istiqlal məfkurəsinin möhkəmləndirilməsində mühüm rol oynayan ziyalılarımızdandır. Üzeyir bəy Cümhuriyyət dövründə əsasən mətbuat sahəsində fəaliyyət göstərsə də, musiqi yaradıcılığını davam etdirib, musiqi mədəniyyətimizi zənginləşdirib. Bəstəkar 1919-cu ildə "Dağıstan" ("Qaytağı"), tərəkəməsayağı "Azərbaycan" adlı xoreoqrafik əsərlərini bəstələmişdi. Onu da qeyd edək ki, "Azərbaycan" əsəri professional milli baletimizin ilk nümunəsi sayılır. O dövrün mətbuatından məlum olur ki, həmin xoreoqrafik əsər səhnə üçün də hazırlanıb. Ü.Hacıbəyli teatrın, o cümlədən, musiqili teatrın xalqın maariflənməsində, bədii zövqünün inkişafında oynadığı böyük rolu nəzərə alır, bu barədə fikirlərini mətbuatda da açıqlayırdı.

Milli musiqi janrlarının yaranması yolunda Üzeyir bəylə çiyin-çiyinə çalışan böyük sənətkarlardan biri də Müslüm Maqomayev (1885-1937) idi. Teatr fəaliyyətinə orkestrin skripkaçısı kimi başlayan M.Maqomayev tezliklə orkestrin dirijoru olmuş və Azərbaycan opera sənətinin daha bir klassik əsərini - "Şah İsmayıl" operasını yaratmışdı. 1916-cı ildə yazılmış bu opera 1919-cu ildə, Cümhuriyyət dövründə ilk dəfə səhnəyə qoyulub.

Cümhuriyyət illərində mürəkkəb ictimai-siyasi vəziyyətə baxmayaraq, Azərbaycanın musiqi-konsert həyatı da getdikcə canlanırdı. Bir çox görkəmli musiqiçilər Bakıya qastrol səfərlərinə gəlir, xarici və yerli aktyorların iştirakı ilə rus və italyan bəstəkarlarının operaları



tamaşaya qoyulur, simfonik konsertlər verilirdi. Xalqın maariflənməsində, gənclərin milli ənənələr, vətənpərvərlik ruhunda tərbiyə olunmasında, milli mədəniyyətin inkişafında bütün bunların böyük əhəmiyyəti var idi. Ziyalılar milli ruhun və ideologiyanın dirçəldilməsi, tarixi və milli varislik ənənələrinin təbliği və tədqiqində önəmli rol oynayırdılar. 1918-ci ilin sonlarında Bakıda "Türk gecələri" konsertlərinin təşkili də bununla əlaqədar idi. Geniş proqramlı "Türk gecələri"ndə türk xalqlarının musiqisinə və ədəbiyyatına geniş yer verilir, "Azərbaycanın müstəqilliyi", "Türk qadınının dünyası", "Türk tipləri", "Milli birlik" və s. tamaşalar göstərilirdi. Yaradıcılıq gecələrində türk xalqlarının etnoqrafiyasına və məişətinə həsr olunmuş "Türk ocağı", "Türkmən çadrası", "Atəşgah", "Şərq salonları" kimi sərgilər nümayiş etdirilirdi. "Türk gecələri" konsertlərini dinləməyə hökumət üzvləri və digər siyasi xadimlər də gəlirdilər.

Görkəmli teatr və musiqi xadimləri Hüseynqulu Sarabski, Hüseyn Ərəblinski, Mirzağa Əliyev, Cahangir Zeynalov, Sidqi Ruhulla, Üzeyir Hacıbəyli, Zülfüqar Hacıbəyli və başqaları müxtəlif teatr-konsert tamaşaları təşkil edirdilər.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında xalq xanəndələri və el aşıqları da müstəsna rol oynayıb. Xalq içərisindən çıxmış, öz gözəl səsi və sənəti ilə nəinki Azərbaycanda, həmçinin bütün Qafqazda və Yaxın Şərqdə də məşhur olan Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, Seyid Şuşinski, Məcid Behbudov və başqaları ölkənin mədəni həyatında, bayramlarda, xeyriyyə konsertlərində və başqa el şənliklərində yaxından iştirak edirdilər. Bu illərdə eyni zamanda ustad aşıqlardan Abbasqulu, Nəcəfqulu və başqalarının iştirakı ilə "Şərq konsertləri" verilirdi.

Azərbaycanda xanəndəlik sənəti, çalğı musiqisi də inkişaf etmiş, Məşədi Cəmil Əmirov, Qurban Pirimov və başqa ustad tarzənlər yetişmiş, fitri istedada, gözəl səsə, yüksək aktyorluq məharətinə malik olan Fatma Muxtarova bir çox məşhur müğənnilərlə çıxış etmiş, böyük şöhrət qazanmışdı.

Bu dövrdə Azərbaycanın musiqi həyatında Koroğlu, Qaçaq Nəbi, Səttarxan haqqında mahnıların xalq arasında yayılması təsadüfi deyildi. Dövrün ümumi əhval-ruhiyyəsi, xalqın inqilabi fəallığı, demokratik meyllər belə mahnıların özünəməxsus melodiyalarında öz ifadəsini tapırdı. Cümhuriyyət dövrü musiqimizin ən əlamətdar hadisəsi isə, təbii ki, dövlət himninin yaradılması idi. Üzeyir bəy Hacıbəyli "Azərbaycan marşı"nı (sözləri Əhməd Cavadın) məhz həmin mahnıların təsiri altında yazmış, Cümhuriyyət dövründə xalqının qəlbində baş qaldıran vətənpərvərlik hisslərini, mütərəqqi ideyaları, milli qüruru yüksək sənətkarlıqla ifadə etməyə nail olmuşdu.

# Böyük istiqlal bəstəkarı

Üzeyir Hacıbəylinin ev-muzeyində dahi bəstəkarın Cümhuriyyət illərindəki fəaliyyətinə həsr edilmiş "O, böyük istiqlal bəstəkarı idi" adlı tədbir keçirildi.

Tədbirdə ev-muzeyin direktoru, Əməkdar incəsənət xadimi Sərdar Fərəcov, professor Solmaz Rüstəmova-Tohidi Üzeyir bəyin Cümhuriyyət dövründəki publisistik fəaliyyətindən danışdılar. Bildirildi ki, dahi bəstəkar həm də güclü qələmi ilə tanınıb. Onun redaktoru olduğu "Azərbaycan" qəzeti səhifələrində yüzdən artıq felyeton, hekayə və məqaləsi dərc olunub. Əməkdar incəsənət xadimi, bəstəkar Aydın Əzimov, filologiya üzrə fəlsəfə doktoru Firudin Qurbansoy, professor Telman Ağdamski və başqaları çıxış edərək Ü.Hacıbəylinin çoxcəhətli yaradıcılığından söz açdılar. Qeyd olundu ki, Üzeyir bəyin "Azərbaycan" qəzetində son yazısı 25 aprel 1920-ci il tarixdə dərc edilib. Bu onun Azərbaycanın istiqlalına və müstəqillik ideallarına sona qədər sadiq qaldığını göstərir.

Çıxışlardan sonra Əməkdar artist Yaqub Zurufçunun ifasında bəstəkarın "Sevgili canan" romansı və "Aytam" Uşaqların Mədəni Maariflənməsi İctimai Birliyinin üzvləri tərəfindən ədibin felyetonları səsləndirildi.





"Mətbuatın, ədəbiyyatın millətin qəlbinə milliyyət və istiqlal toxumu saçan bir əməl olduğu məlumdur... Ey millətin lisanülqeybi olan şairlər, ədiblər! Millətin əməllərini, ülvi niyyət və məqsədlərini oxşayınız, kəndisinə millət sevgisi, vətən məhəbbəti, hürriyyət eşqi təlqin ediniz". Sitat Məhəmməd Əmin Rəsulzadənin 1919-cu ildə "Azərbaycan" qəzetində dərc olunmuş yazısından götürülüb. Cümhuriyyət ideyalarını yaşatmaq naminə Azərbaycan xalqının özünüdərk, milli birlik, müstəqil dövlətçilik ideallarına səsləyən ədiblərin ziyasına ehtiyacı var idi...

# Cümhuriyyət dövrünün teatr həyatı

## 1918. Martla may arasında

Daim ədəbi prosesin vacib qolu olan dramaturgiya da Cümhuriyyət dövründə xeyli canlanmışdı. Hərçənd 1918-ci il Azərbaycan, eləcə də paytaxt Bakı üçün yaradıcılıq, xüsusən də teatr tamaşası oynamaq baxımından o qədər də rahat il olmamışdı. Əvvəlcə mart soyqırımı ziyalı təbəqəni sarsıtmış, sıravi vətəndaşları teatr kimi əyləncə və zövq məkanından uzaqlaşdırmışdı. Mart hadisələrindən sonra İrana, Türkiyəyə, Tiflisə, Orta Asiyaya, Rusiyanın Volqaboyu şəhərlərinə yollanmış teatr dəstələri yalnız bir neçə aydan sonra vətənə qayıtmışdı. Qulam Məmmədlinin tərtib etdiyi "Azərbaycan teatrının salnaməsi" ikicildliyinin 1-ci cildinin 1918-1920-ci illərə aid bölümlərini diqqətlə vərəqləmək kifayətdir ki, qəzetlərdə yerli teatra dair xəbərlərin nə qədər kasad, qastrol səfərləri barədə məlumatların isə nə qədər bol olduğunu aydın görəsən...

"Hümmət" qəzetinin 16 may tarixli sayında isə belə bir xəbər verilib: "Müsəlman aktyorları ittifaqı" Bakı hadisələrində böyük xəsarətə düçar olduğundan neçə vaxtdır ki, fəaliyyətsiz qalmışdır. İndi həmin aktyorlar ittifaqı "Şirkət" düzəldib tamaşa göstərmək üçün bu günlərdə Bakıdan Həştərxana gedəcəklər. Oradan da Volqa boyundakı şəhərlərdə tamaşa verəcəklər".

Nəhayət, oktyabr ayına aid xəbərlərdə Bakının teatr mühitinin dirçəlməsinə dair məlumata rast gəlirik: "Neçə aylardan bəri qapanmış müsəlman teatrı yavaş-yavaş açılmağa qədəm qoymuşdur. Bu gün Mikado teatrında Hacıbəyov qardaşları müdiriyyəti tərəfindən "Arşın mal alan", sabah "O olmasın, bu olsun" oynanılacaqdır".

Bu mənbələrdən vətən üçün taleyüklü 1918-ci ildə teatr aləmində necə bir ovqatın hakim kəsildiyini anlamaq olur. "İstiqlal" qəzeti isə 14 fevral 1919-cu il tarixli sayında "Müsavat" liderlərindən Mirzəbala Məmmədzadənin məqaləsində Azərbaycan teatrının "yeni" üsul-idarəyə yaxşı xidmət göstərmədiyi barədə bu fikirlər yer alıb: "Əlan xalqımızın yeganə toplanış yeri teatrdır. O da bir yenilik vermir. Onda da yeni həyata doğru bir dəvət, bir tərpəniş yoxdur...".

Olsun ki, ziyalı, fədakar insan, müstəqilliyimiz uğrunda mücahid Mirzəbala Məmmədzadə dövlət müstəqilliyi xüsusunda teatrdan daha böyük mənəvi dəstək gözləməkdə haqlı idi. Lakin unutmaq olmaz ki, milli oyanış, istiqlaliyyət, yaddaşa qayıdış məhz həmin dövrdə yaranmış, yaxud səhnəyə qoyulan dram əsərlərinin əsas mövzusu idi. O dövrdə yaranan dramaturgiyada Azərbaycan, Türk dünyası mövzularına daha çox müraciət edilirdi. Cəlil Məmmədquluzadənin "Anamın kitabı", Hüseyn Cavidin "İblis", Cəfər Cabbarlının "Ədirnə fəthi", "Trablis müharibəsi, yaxud Ulduz" pyesləri bu qəbildən idi.


Вечерній Спектакль
Залъ Мусульм. Бл. О-ва
Союзъ Мусульманск. Актеровъ
ПРОГРАММА
Въ Пятницу 16-го Марта 1918 г.
Представлено будетъ
Траблисъ Мухарибеси
Дѣйств. лица
Разбойники, войско, народъ и др
Начало въ 8 часовъ вечера
Уполномоченный: Х. Гусейновъ.
АНОНСЪ:
Въ Четвергъ 22-го Марта представлено буд.
Кровавая Мѣсть
Билеты продаются

مرامنامه
انوربگك
طرابلس محاربه‌سی

Teatr üçün Mayılov qardaşları teatrının binasının (indiki Akademik Opera və Balet Teatrının binası) alınması barədə qərar qəbul edilir. Qərara əsasən, teatr binası ədalətli qiymətlə dövlətin sərəncamına alınmalı idi. Dövlət teatrı (Türk Dövlət Teatrı) 1919-cu ilin avqust ayında təsis edilir. Qulamrza Şərifzadə (Abbas Mirzə Şərifzadənin qardaşı) direktor, Zülfüqar Hacıbəyli müavin, Məmmədəli Sidqi teatr heyətinin vəkili təyin edilir. Sentyabr-oktyabr aylarında "Azərbaycan" qəzetində teatra aktyorların işə dəvət edildiyi barədə elan verilir. Oktyabrın 22-də truppanın heyəti qəzetdə dərc edilir: Aleksandr İvanov, Abbas Mirzə Şərifzadə və Sidqi Ruhulla - rejissor; Əzim Əzimzadə - rəssam; Qəmər Topuriya, Yeva Olenskaya, Aleksandra Olenskaya, Nataliya Lizma, Məxfurə Yermakova, Panfiliya Tanailidi, Leyla xanım - aktrisa; Həsən Səbri Abdullazadə, Məhəmmədtağı Bağırov, Ələkbər Hüseynzadə, Xəlil Hüseynov, Hüseynağa Hacıbababəyov, Ağasadıq Gəraybəyli, Rza Darablı, Bağır Cabbarzadə, Əlislam Dadaşov, Möhsün Sənani, Q.Mahmudov,

## Dağınıqlıqdan birliyə doğru

Azərbaycan peşəkar milli teatrı yarandığı zamandan öz gücünə, öz xoşuna yaşayıb inkişaf etmiş, yalnız fədakar ziyalılardan və xalqını düşünən mesenatlardan qayğı görmüşdü. Bu münasibət Azərbaycan Xalq Cümhuriyyəti dövründədək davam etdi.

1918-ci il oktyabrın 18-də Cümhuriyyət hökumətinin iclasında xalq maarifi naziri Nəsib bəy Yusifbəylinin Azərbaycan Dövlət Teatrının yaradılması haqqında məruzəsi dinlənilir.

Mirabdulla Miriyev, Yunis Nərimanov, Hüseynqulu Sarabski, Sidqi Ruhulla, Mirpaşa Sadıqov, Hacıbaba Şərifzadə, Abbas Mirzə Şərifzadə - aktyor.

Nəhayət, oktyabrın 24-də rəsmi açılış törəni keçirilir. Mərasimdə Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəyli başda olmaqla bütün hökumət üzvləri iştirak edirlər. Bu mədəniyyət hadisəsi dörd gün bayram edilir. Ardıcıl olaraq İsa bəy Aşurbəyovun "Azərbay və Can", Şəmsəddin Saminin "Dəmirçi Gavə", Cəfər Cabbarlının "Bakı müharibəsi", Mirzəbala Məmmədzadənin "Bakı uğrunda müharibə" tamaşaları göstərilir.

"Azərbay və Can" hələ yanvar ayından teatrın repertuarında idi. Təəssüf ki, bu əsər barədə onun tarixi mövzuda yazıldığına dair qeyddən savayı elə bir məlumat yoxdur. C.Cabbarlının "Bakı müharibəsi" və M.Məmmədzadənin "Bakı uğrunda mübarizə" pyesləri də eyni taleyi yaşayıblar.

13 sentyabr 1919-cu il tarixli "Bəsirət" qəzetində belə bir bildiriş dərc olunur: "Azərbaycan Dövlət Teatrosunda zilhiccənin 20-si, sentyabrın 16-da Bakı türk səhnəsi aktyorlarının iştirakı ilə, artist Abbas Mirzə Şərifzadənin təhti-idarəsində Azərbaycanımızın paytaxtı Bakı şəhərində mart hadiseyi-ələmiyyəsindən sonra düşmənlər əlində qalıb, sonradan qəhrəman türk ordusu tərəfindən mühasirə edilib xilas olmasının birilliyi münasibətilə gənc şair və mühərrirlərimizdən Cəfər Cabbarzadənin yeni yazmış olduğu "Bakı müharibəsi" draması mövqeyi-tamaşaya qoyulacaqdır".

* * *

İlin sonuna kimi birləşmiş teatrda H.Bədrəddin və M.Rüfətin "Əmir Əbül Üla", M.Hacınskinin "Yezid ibn Müaviyyə", C.Cabbarlının "Trablis müharibəsi, yaxud Ulduz", J.B.Molyerin "Zorən təbib", U.Şekspirin "Otello", İ.Rüstəmbəyovun "Dövləti-bisəmər", N.Nərimanovun "Şamdan bəy", C.Məmmədquluzadənin "Ölülər" komediya və dramları, Üzeyir və Zülfüqar Hacıbəylilərin musiqili tamaşaları oynanılır.

Teatr dövlət tərəfindən təsis edilsə də, mövcud imkanlar teatrın öz işini daha səmərəli qurmasına, teatr xadimlərinin arzuladığı kimi sanballı tamaşalar hazırlanmasına yetmirdi.

Hətta Üzeyir Hacıbəyli öz narazılığını 1920-ci ildə "Azərbaycan" qəzetində yazdığı "Zurna" başlıqlı felyetonda bu cür dilə gətirmişdi: "Bakıda dövlət teatr heyəti qurulsun! deməyə fürsət olsaydı, bu iş Azərbaycan dövlətinin xəzinəsinə yarım milyon pula oturardı. Halbuki, indi o pul xəzinəmizin içində sağ və salim durubdur. Bu da ki maddi mənfəət".

Olsun ki, ədəbi və publisistik sözə böyük dəyər verən Cümhuriyyət hökuməti Üzeyir bəyin bu felyetonunda qaldırdığı məsələyə baxaraq, teatrın xeyrinə bir qərar çıxaracaqdı. Sadəcə, buna zaman yetmədi. Felyeton aprelin 20-də dərc olunmuşdu, səkkiz gündən sonra Cümhuriyyət süqut etdi...

# İstiqlal düşüncəsinin formalaşmasında milli mətbuatın rolu

**Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi qısa vaxt ərzində ölkədə bir çox sahələrin inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilmişdi. Şərqdə ilk respublikanın qurucuları xalqın ümumi tərəqqisinə, demokratik cəmiyyətin formalaşmasına çalışmışlar. Mətbuat da bu dövrdə xüsusi inkişaf yolu keçərək ölkə həyatının işıqlandırılmasına, xalqın tribunası olaraq problemlərin gündəmə gətirilməsinə töhfələr verirdi.**

Tədqiqatçıların qənaətinə görə, o dövrün mətbuatı milli mədəniyyətin mühüm tərkib hissəsi kimi Azərbaycan həyatının canlı salnaməsinə çevrilmişdi. İki il ərzində ölkədə 100-ə yaxın müxtəlif adda qəzet və jurnal nəşr olunmuşdu. Cümhuriyyət dövrü mətbuatının səciyyəvi xüsusiyyəti təkcə onun say göstəricisində deyildi, həm də ideya-məzmun zənginliyində idi. Milli mətbuatın fəaliyyəti istiqlal düşüncəsinin formalaşmasında aparıcı rol oynayırdı.



*Şəfi bəy Rüstəmbəyli*



*Səməd Mənsur*



*Xəlil İbrahim*




1918-1920-ci illər mətbuatı ideya istiqaməti baxımından bir neçə yerə bölünür: Cümhuriyyət ideyalarını təbliğ edən milli mətbuat, yeni hökumətə qarşı olan bolşevik mətbuatı, eser-menşevik mətbuatı və erməni mətbuatı, özünü bitərəf adlandıran informatik xarakterli qəzet və jurnallar. İstiqlalçılıq, dövlətçilik, cümhuriyyətçilik fikrən milli mətbuatımızda geniş təbliğ olunurdu.

Cümhuriyyətin banilərindən Məhəmməd Əmin Rəsulzadə uzun illər siyasi mübarizəsini "Şərqi-Rus", "Hümmət", "Təkamül", "Dirilik", "Açıq söz"də bəyan etmiş, milli düşüncənin inkişafına çalışmışdı. Əlimərdan bəy Topçubaşovun redaktorluğu dövründə "Kaspi" qəzetinin məzmunu və siması dəyişmişdi. Həsən bəy Ağayev Gəncədə çıxan "Yujni Kafkaz" ("Cənubi Qafqaz") qəzetinin redaktoru olmuş, maarifçilik ideyalarını yaymışdı. Xalq Cümhuriyyəti mətbuatının həqiqi sələfləri sırasında "İqbal" qəzetinin xüsusi çəkisi vardı. Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə mütləqiyyət caynağından qopan ilkin fürsətdə mətbuatımızın "ağır artilleriyası" olmuşdular.

Cümhuriyyət dövründə "Azərbaycan", "İstiqlal", "Övraqi-nəfisə", "Müsəlmanlıq", "Qurtuluş", "Gənclər yurdu", "Şeypur", "Zənbur" və s. kimi milli ruhlu qəzet və jurnallar işıq üzü görmüşdür. Bu mərhələdə milli mətbuatın qarşısında da yeni vəzifələr dururdu. Ona görə də hökumət və parlament mətbuatın və nəşriyyatın işini dövrün tələbləri səviyyəsində qurmaq üçün bir sıra qərarlar qəbul etmişdi. 1919-cu il oktyabrın 30-da parlament tərəfindən mətbuat məsələlərini tənzimləyən ayrıca sənəd - "Mətbuat haqqında nizamnamə" qəbul edilmişdi. Qanun layihəsi qızğın müzakirələr nəticəsində qəbul olunmuşdu. "Hümmət" partiyası və sosialist fraksiyası layihənin əleyhinə çıxmış və bildirmişdilər ki, mətbuatı heç bir qanunla məhdudlaşdırmaq olmaz. Maddələrin ayrı-ayrılıqda müzakirəsi zamanı mətbuata ümumi nəzarət və rəhbərlik haqqında, redaktorun təbəəliyi, təhsil, mətbəə yaradılmasına icazə verilməsi barədə maddələr geniş diskussiya doğurmuşdu.

Hökumətin həmin il aprel tarixli qərarına əsasən, nizamnamə layihəsini hazırlamaq Ədliyyə Nazirliyinə tapşırılmışdı. Lakin iyunun 20-də hökumət Daxili İşlər Nazirliyinin təqdim etdiyi qanun layihəsini bəyənmiş və onu parlamentin müzakirəsinə çıxarmışdı. Nizamnamə söz və mətbuat azadlığı prinsipinə əsaslanırdı. Sənəddə deyilirdi ki, insan fəaliyyətinin hər bir sahəsi kimi mətbuat da azadlıqla anarxiya arasında sərhədi müəyyən edən qanunlara tabe olmalıdır.

1919-cu ildə Nazirlər Şurası Azərbaycan Teleqraf Agentliyinin (indiki AZƏRTAC) yaradılması haqqında qərar qəbul etmişdi. Bu qərarın həyata keçirilməsinə 1920-ci ilin martında başlanılmışdı.

Cümhuriyyət hökuməti mətbuat azadlığını milli şüurun, milli mədəniyyətin inkişafı üçün mühüm şərtlərdən biri hesab edirdi. Məlumdur ki, Xalq Cümhuriyyəti yaranana qədər Çar Rusiyası tərkibində olan Azərbaycanda mətbuat azadlığı yox idi. Ana dilində yazıb-yaradanlar böyük maneələrlə qarşılaşır, qəzet və jurnallar ciddi senzuraya məruz qalırdı. Belə bir rejim milli şüurun, milli mədəniyyətin inkişafına ağır zərbə vururdu. Cümhuriyyət hökumətinin 1918-ci il 9 noyabr tarixli sərəncamı ilə mətbuat və kütləvi informasiya vasitələrinin məzmunu, nəşri və yayılması üzərində dövlət nəzarəti ləğv olunmuşdu.

O dövrdə əsas vəzifə Cümhuriyyəti qoruyub saxlamaqdan, daxili və xarici təhlükələrə qarşı ideoloji mübarizə aparmaqdan ibarət idi. Yeni vəzifələri həyata keçirmək üçün 1918-ci ilin 15 sentyabrında Cümhuriyyətin rəsmi orqanı olan "Azərbaycan" qəzetinin nəşrinə başlanmışdı. Qəzetin müxtəlif vaxtlarda redaktorları Ceyhun Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir Hacıbəyli və Xəlil İbrahim olmuşlar. Cümhuriyyətin ictimai-siyasi, iqtisadi və mədəni təsisatlarının tarixi mənzərəsi bu qəzetdə geniş əksini tapmışdır.

Milli siyasi birliyə çağırış Cümhuriyyət dövründə Azərbaycan mətbuatının başlıca şüarına çevrilmişdi. 1918-ci il martın 31-də Bakıda, habelə Azərbaycanın müxtəlif bölgələrində erməni-daşnak və rus-bolşevik qaragüruhçuları tərəfindən türk-müsəlman əhaliyə qarşı törədilmiş soyqırımları da milli mətbuatın başlıca mövzusu idi. Həmin vaxtlarda "Açıq söz" qəzeti yazırdı: "Dəhşətli saat gəlir, birlik gərəkdir". Qəzet Azərbaycan xalqının siyasi partiyalarını xarici irticaya qarşı birliyə çağırırdı. Milli mətbuatın şüurları oyatmaq fəaliyyəti, apardığı maarifçilik təbliğatı yaxınlaşmaqda olan düşmən təxribatının ifşasında böyük rol oynayırdı.

Cümhuriyyətin həftəlik qəzeti olan "İstiqlal"ın da bu istiqamətdə fəaliyyəti xüsusi qeyd olunmalıdır. Bakıda nəşr olunan qəzetin ilk nömrəsi 1919-cu il fevralın 4-də, son nömrəsi 1920-ci il aprelin 23-də (cəmi 42 nömrə) çıxmışdı.

1919-cu il martın 11-də nəşrə başlayan "Övraqi-nəfisə" jurnalı ədəbiyyat və incəsənətdən bəhs edən ilk dövri mətbuat orqanı idi. Həmin ilin avqustuna qədər Bakıda cəmi 6 nömrəsi işıq üzü görən jurnalın redaktoru Əliabbas Müznib, naşiri bəstəkar Zülfüqar Hacıbəyli, rəssamı Əzim Əzimzadə idi. Jurnalda Firidun bəy Köçərli, Abdulla Şaiq, Əmin Abid (Gültəkin), Məhəmməd Hadi və başqaları çıxış edirdilər.

Cümhuriyyət dövründə Azərbaycanda milli ideyalı "Şeypur" jurnalı da nəşr olunmuşdu. İlk nömrəsi 1918-ci il oktyabrın 5-də çıxmış jurnalın naşiri tanınmış şair Səməd Mənsur, redaktoru Məmmədəli Sidqi idi. 1920-ci ilin əvvəlində nəşrə başlamış "Qurtuluş" jurnalı da ədəbi-mədəni sahədə xeyli iş görmüş, Azərbaycan xalqının milli mədəniyyətinin təbliğində mühüm rol oynamışdı.

Milli mətbuatımız ilk istiqlalımızın təkcə yol yoldaşı olmamış, həm də Cümhuriyyətin tarixi salnaməsini yaratmışdı. Çağdaş mətbuatımız bu məktəbin yetirməsidir. Ötən əsrin əvvəlində olduğu kimi, əsrin sonunda istiqlalımızın bərpası zamanı Azərbaycan milli mətbuatının uğurları istiqlal düşüncəsi, müstəqillik ideyaları ilə bağlı idi.

# Cümhuriyyət dövründə kitabxana və muzey işi

**Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyəti dövründə mədəni quruculuq istiqamətində də mühüm işlər həyata keçirilib. Hökumətin çox mürəkkəb iqtisadi-siyasi şəraitdə gerçəkləşdirdiyi islahatlar içərisində kitabxana və muzey işi ilə bağlı addımlar xüsusi əhəmiyyətə malikdir.**

Çar hökumətindən Xalq Cümhuriyyətinə mütəşəkkil kitabxana şəbəkəsi və muzeylər miras qalmamışdı. Çünki imperiyanın ucqarlarında dövlət kitabxanaları yaratmaq və onları maliyyələşdirmək müstəmləkəçilik ruhuna uyğun deyildi. Yerlərdə milli kitabxanaların təşkilinə asanlıqla icazə almaq da mümkün olmurdu.

XX əsrin əvvəllərində Bakı şəhərində və bölgələrdə müxtəlif cəmiyyətlərin və ayrı-ayrı şəxslərin yaratdığı kitabxanaları sonradan 1917-1918-ci illərdə baş verən ictimai-siyasi qarışıqlıq vəziyyətində fəaliyyətini dayandırmışdı.

Cümhuriyyət ilk günlərdən maarif və mədəniyyətin inkişafını diqqət mərkəzində saxlayırdı. Bu sahələrə rəhbərlik Xalq Maarifi Nazirliyinə həvalə olunmuşdu. Nazirliyin həyata keçirdiyi tədbirlər içərisində kitabxanaların qeydiyyatının aparılması, onların kitablarla təmin edilməsi mühüm yer tuturdu.

### İlk dövlət muzeyi

Xalq Cümhuriyyətinin mədəniyyət tariximizə bəxş etdiyi töhfələrdən biri də ilk dövlət muzeyi - "İstiqlal" muzeyinin yaradılmasıdır. Onun təşkilində dövrün tanınmış maarif xadimi, sənətşünas Hüseyn Mirzəcamalovun mühüm xidmətləri olub. Muzey 7 dekabr 1919-cu ildə Azərbaycan Parlamentinin yaradılmasının ildönümü münasibətilə fəaliyyətə başlayıb.

Genişprofilli mədəniyyət müəssisəsi kimi nəzərdə tutulan muzey parlamentin binasında yerləşirdi. "Azərbaycan" qəzeti əhalinin tarixi və etnoqrafik dəyərə malik materialları muzeyə təhvil verməsindən bəhs edərək 1919-cu il 9 dekabr nömrəsində yazırdı: "Tezliklə tarixi və etnoqrafik dəyərlərə malik əşyaların əhali tərəfindən muzeyə verilməsinə başlanıldı. Bu eksponatlar respublikanın müxtəlif guşələrindən gətirilir".

Təhvil-təslim aktı formasında "Həmişəlik Azərbaycan Parlamanı ixtiyarında olaraq hələlik parlaman imarətində təsis edilən "Müze İstiqlal" adına müəssislər tərəfindən toplanmış olan şeylərin Birinci Parlaman Divani-Rəyasətinə təhvil verilməsi haqqında Şərait" adlı sənəd tərtib edilir. Sənədi muzeyin yaradıcıları - Hüseyn Mirzəcamalov, Məhəmməd Ağayev və Azərbaycan Parlamenti sədrinin müavinləri Həsən bəy Ağayev, Sultanməcid Qənizadə imzalayır.

Bu, Azərbaycanda muzey işinin təşkili və muzey fəaliyyətini tənzimləyən ilk hüquqi sənəddir. Sənəddə göstərilirdi ki, muzeyə verilən hər bir əşya milli sərvətdir.

Milli hökumət tərəfindən tarixi-mədəni irsin qorunması üçün səylər göstərilsə də, yerlərdə mədəni sərvətlərin müxtəlif yollarla xaricə aparılmasının qarşısını tam almaq mümkün deyildi. 1919-cu ildə Azərbaycanın tarixi irsini toplamaq və qorumaq üçün


S.Qənizadə


H.Mirzəcamalov

yerli diyarşünaslar və şərqşünaslar "Şərqin arxeologiyası və tarixinin həvəskarları dərnəyi"ni təşkil etdilər. Dekabrda dərnək üzvləri yeni açılan Bakı Dövlət Universiteti nəzdində "Müsəlman Şərqini öyrənən cəmiyyət" yaratdılar.

"İstiqlal" muzeyi isə beş aya yaxın - Cümhuriyyətin süqutunadək fəaliyyət göstərib. Bununla belə, o, müstəqil Azərbaycan dövlətinin yaratdığı mədəniyyət müəssisəsi kimi tarixdə qalıb. Sovet hakimiyyəti qurulduqdan sonra "İstiqlal" muzeyi ləğv olunsa da, bir mədəniyyət ocağı kimi yeni və gələcəkdə yaradılacaq muzeylərin təşkilində təməl rolunu oynayıb.

Sovetləşmədən sonra, 1920-ci il iyunun 15-də "İstiqlal" muzeyinin fondu əsasında Azərbaycan SSR Xalq Maarif Komissarlığının nəzdində "Doğma diyarın tədris muzeyi" yaradılır və sonra o, indiki Milli Azərbaycan Tarixi Muzeyinə çevrilir.

Onu da qeyd edək ki, 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa edəndən sonra İstiqlal Muzeyi də yenidən fəaliyyətə başlayıb.

# Milli əsaslar üzərində qabaqcıl təhsil sisteminin qurulması

**Xalq Cümhuriyyəti fəaliyyətinin ilk günlərindən təhsilin milli əsaslar üzərində qurulması və inkişaf etdirilməsini diqqət mərkəzində saxlayırdı. Hökumət hələ Gəncədə fəaliyyət göstərərkən 1918-ci il 30 iyun tarixli qərarla Xalq Maarifi Nazirliyinin ştat tərkibi təsdiqlənmiş, nazirliyin ali və orta ixtisas, xalq və peşə təhsilləri işləri üzrə şöbələri yaradılmışdı.**

Hökumətin 1918-ci il 27 iyun tarixli qərarı ilə Azərbaycan-türk dili dövlət dili elan edildi. Buna uyğun olaraq məktəblərdə tədrisin Azərbaycan dilində aparılması üçün müvafiq tədbirlərin həyata keçirilməsinə başlanıldı. Hökumətin 1918-ci il 28 avqust tarixli qərarı bir vəzifə olaraq qarşıya qoyurdu ki, bütün ibtidai məktəblərdə təhsil şagirdlərin ana dilində aparılmalı və dövlət dilinin tədrisi icbari surətdə həyata keçirilməlidir. Tədrisi dövlət dilində olmayan məktəblərin yuxarı siniflərində Azərbaycan dili həftədə 4 saatdan az olmamaqla tədris edilməli idi. Hökumət ölkədə yaşayan digər xalqların övladlarının öz dillərində təhsil almasına da müvafiq şərait yaradırdı.

Müəllim kadrlarına olan tələbatın ödənilməsi də diqqət mərkəzində idi. Gəncədə seminariya fəaliyyət göstərirdi, Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin Qazaxa köçürülməsi də bu işə töhfə oldu.



1919-cu ilin əvvəllərində ölkədə dövlət hesabına təhsil verən ibtidai məktəblərin sayı 637-yə, orta (ixtisas) məktəblərin sayı isə 23-ə çatmışdı: 6 kişi və 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 qız məktəbi, politexnik məktəb və kommersiya məktəbi. 1919-1920-ci dərs ilinin ilk yarısında, müəllim seminariyaları istisna olunmaqla, digər məktəblərdə 9611 nəfər təhsil alırdı ki, onlardan 3115 nəfəri azərbaycanlı idi. 1919-cu ilin yayında məktəblərin aşağı siniflərində dərs keçmək üçün qısamüddətli pedaqoji kurslarda müəllim hazırlığına başlanılmışdı. Bakı, Gəncə və Nuxa (Şəki) şəhərlərində kişi və qadın, Şuşa, Qazax, Qusar, Salyan və Zaqatalada kişi pedaqoji kursları açılmışdı. Ehtiyac nəzərə alınaraq Türkiyədən 50 nəfər müəllim dəvət edilmişdi.

Yaşlı əhalinin təhsilə cəlb olunması, savadsızlığın ləğv edilməsi üçün addımlar atılmışdı. 1919-cu ildə Bakı, Gəncə, Şuşa, Şəki, Zaqatala və Qazaxda yaşlı əhali üçün Azərbaycan dili üzrə axşam kursları açılmışdı.

Parlamentin üzvü, tanınmış maarif xadimi Abdulla bəy Əfəndizadənin rəhbərliyi ilə Bakıda ibtidai məktəb müəllimləri üçün xüsusi kurslar təşkil edilmişdi. Məktəblərin tələbatını ödəmək üçün 1919-cu ildə "Türk əlifbası", "Təzə elmi-hesab", "Rəhbər cəbr", "Tarixi-təbii", "İkinci il", "Yeni məktəb", "Ədəbiyyat dərsləri", "Müntəxəbat", "Türk çələngi", "Milli qiraət" kimi dərsliklər nəşr olunmuşdu.

Azərbaycanda ali məktəb yaradılması sahəsində də ilk addım Cümhuriyyət dövründə atılmışdı. Parlamentin qərarına əsasən, 1919-cu il sentyabrın 1-dən Bakıda ali məktəblər təşkil edilməsi haqqında 10 maddəli qanun hazırlanmışdı. Azərbaycan hökuməti başlanğıc mərhələdə üç ali məktəbin açılmasını nəzərdə tuturdu: Bakı Dövlət Universiteti, Kənd Təsərrüfatı İnstitutu və Dövlət Konservatoriyası. Lakin sosial-iqtisadi çətinliklər üzündən yalnız Bakı Dövlət Universitetinin yaradılması reallaşdı.

Gənc müstəqil dövlətin inkişafı üçün yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasının vacibliyi nəzərə alınaraq Cümhuriyyət hökuməti 1919-1920-ci tədris ilində yüz nəfər azərbaycanlı gəncin müxtəlif ixtisaslar üzrə dövlət hesabına xaricə oxumağa göndərilməsi barədə qərar qəbul etmişdi. Onlar ali təhsili başa vurduqdan sonra ən azı dörd il Azərbaycan hökumətinin göndərdiyi təyinat yerində çalışmalı idilər. 45 nəfər Fransaya, 23 nəfər İtaliyaya, 10 nəfər İngiltərəyə, 9 nəfər isə Türkiyəyə göndərilmişdi. 13 nəfər Rusiyada ali təhsil almaq üçün seçilsə də, ölkədəki vətəndaş müharibəsinə görə oraya tələbə göndərişi baş tutmamışdı.

# Qürbətdə yazılan məktublar...

## Altmış üç ildən sonra Vətənə yetişdi



**Bu gün əl ilə məktub yazmaq dəb deyil. Çünki bütün dünyada məktublar elektron variantda yazılır. Amma zamanında elə şəxsiyyətlərin əl yazısı ilə qələmə aldığı məktublar olub ki, həmin kağız parçalarına ürəyin hərarətini, canın yanğısını köçürüb. Altmış üç ildən sonra gerçək ünvanına yetişən məktublar kimi...**



Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin o zaman Türkiyədə Azərbaycan mühacirətinin görkəmli simalarından olmuş Süleyman Təkinərə yazdığı məktubların Milli Azərbaycan Tarixi Muzeyinə təqdimat mərasimi keçirildi.

Muzeyin elmi katibi, tarix üzrə fəlsəfə doktoru Fərhad Cabbarov məlumat verdi ki, Rəsulzadə ilə Süleyman Təkinər arasında yazışma 1950-ci ilin fevralından Rəsulzadənin vəfatına qədər - 1955-ci ilin əvvəllərinədək davam edib.

Aralarındakı yaş fərqinə (30 il) baxmayaraq, onları dostlaşdıran Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq yanğısı, Azərbaycanın bir daha müstəqil olması naminə yorulmadan çabalar göstərmək istəyi olub. Ankaradan İstanbula, İstanbuldan Ankaraya qanadlanan həmin məktublar onların arasında ata-övlad münasibəti yaratsa da, Rəsulzadə yazdığı məktubları "Əzizim Süleyman bəy" xitabı ilə başlayar, hətta sonluqda ürək sızladan "Can Bakıdan salamlar" yazardı.

Fərhad müəllim bu qiymətli yazışmalarda indiyədək tarixçilərə məlum olmayan faktların, məsələn, Rəsulzadənin 1953-cü ildə "Amerikanın səsi" radiosuna məlum müsahibəsindən öncə də, 1952-ci ildə də belə bir müsahibə verdiyi barədə faktın yer aldığından danışdı. Həmin yazışmalarda Rəsulzadə "Yeni bir 28 Mayısa qovuşa bilməyimiz üçün" cavan silahdaşına məsləhətlər, hətta 28 aprel tarixi ilə bağlı başsağlığı da verir.

Muzeyin direktoru, akademik Nailə Vəlixanlı Rəsulzadə ilə Təkinər arasında yazışmaları Cümhuriyyət dövrünün araşdırmaçıları üçün qiymətli tapıntı kimi dəyərləndirərək, həmin məktubları muzeyə təqdim edən Süleyman bəyin qohumlarına xüsusi təşəkkürünü bildirdi.

Mərasimdə iştirak etmək üçün Almaniyadan Bakıya gəlmiş Süleyman Təkinərin qızı Leyla-Firəngiz Deqnar atasının Azərbaycan həsrətindən danışdı, onun Rəsulzadə ilə tanışlığı, görüşləri barədə ailəsində etdiyi söhbətləri xatırladı. Atasının dövlət müstəqilliyimizin bərpasına şahid olduğunu, ötən əsrin 90-cı illərində Vətənə gəlişindən könül rahatlığı tapdığını yada saldı.

Cümhuriyyət dövrünün yorulmaz araşdırmaçısı Ədalət Tahirzadə muzeyə təqdim edilən sənədlərin Azərbaycan tarixinə dair tədqiqatlar üçün maraqlı və qiymətli mənbə olaraq əhəmiyyətindən danışdı.

Tədbirdə Süleyman Təkinərin ailə üzvlərinə Milli Azərbaycan Tarixi Muzeyinin xatirə medalı və muzeyin nəşrləri, ailə üzvləri tərəfindən də bu işdə əməyi keçən muzey işçilərinə xatirə hədiyyələri təqdim edildi.

# Qərib məzarlar

## Cümhuriyyət qurucularının Vətəndən uzaqdakı əbədi məkanları

**Azərbaycan Xalq Cümhuriyyəti qurucularının bir çoxunun taleyinə faciəli ölüm, qəriblik və ömrü vətən nisgili ilə başa vurmaq düşdü.**

Cümhuriyyətin ilk baş naziri Fətəli xan Xoyski və Cümhuriyyət Parlamenti sədrinin müavini Həsən bəy Ağayev 1920-ci ilin iyulunda müvəqqəti sığınacaq tapdıqları Tiflisdə erməni terrorçuları tərəfindən qətlə yetirildilər. Məzarları Tiflisdədir. Parlamentin sədri Əlimərdan bəy Topçubaşov milli dövlətimizin beynəlxalq birlik tərəfindən tanınması üçün Azərbaycan heyətinin rəhbəri kimi 1919-cu ildə Parisə getmişdi. 1934-cü ildə orada vəfat etdi. Sen-Klu məzarlığında dəfn olunub. Ceyhun Hacıbəylinin məzarı da buradadır. Paris yaxınlığındakı Bobinyi qəbiristanlığında Əkbər ağa Şeyxülislamın, Mirzə və Nadir Əsədullayevlərin, Monparnas qəbiristanlığında Məmməd Məhərrəmovun məzarları var.



*Ə.Topçubaşovun məzarı (Paris)*




*M.Ə.Rəsulzadənin qəbri (Ankara)*




*Feriköy məzarlığı (İstanbul)*

Cümhuriyyətin qurucusu Məhəmməd Əmin Rəsulzadə mühacirətdəki ömrünün sonunadək Azərbaycanın istiqlal davasını davam etdirdi, 1955-ci ildə Ankarada vəfat etdi. Əsri məzarlığında dəfn olunub.

Cümhuriyyətin bir çox başqa tanınmış simalarının da əbədi məkanları Azərbaycandan kənardadır. Amma onlar dövlətimiz tərəfindən unudulmayıb. Qəbirüstü abidələri ucaldılıb, məzarları abadlaşdırılıb, daim ziyarət olunur, xatirələri yad edilir.

Bu günlərdə İstanbulun Feriköy məzarlığında Cümhuriyyət qurucularının xatirəsinə abidə ucaldılıb. Abidə Prezident İlham Əliyevin Cümhuriyyətin 100 illiyi ilə bağlı sərəncamına əsasən ölkəmizin İstanbuldakı baş konsulluğunun təşəbbüsü və SOCAR-ın dəstəyi ilə qoyulub.

Üzərində Azərbaycanın və Türkiyənin dövlət bayraqlarının rəsmi, ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" ifadəsi həkk olunan abidədə Feriköy məzarlığında uyuyan Əhməd bəy Ağaoğlu, Əbdüləli bəy Əmircanlı, Baba bəy Behbud, Xəlil bəy Xasməmmədov, Hüseynqulu xan Xoyski, Miryaqub bəy Mirmehdiyev, Aran Məmmədsadiq, Kərim bəy Odər, Səlim Rəfiq bəy Rəfioğlu, Şəfi bəy Rüstəmbəyli, Xosrov bəy Sultanzadə, Nağı bəy Şeyxzamanlı, Qulamrza bəy Şərifzadənin adları yazılıb.

# İlk istiqlal dövrümüzün ədəbi salnaməsi

**Müstəmləkə zülmü görən, vətəni uzunmüddətli işğala məruz qalan xalqların ədəbiyyatında hürriyyət qayəli bədii nümunələrə tez-tez rast gəlinir. Müstəmləkəçiliyin məhrumiyyətlərini çox yaşamış Azərbaycan xalqı da azadlığı hava kimi, məlhəm kimi arzulayıb.**



XIX əsrin ikinci yarısı və XX yüzilliyin əvvəllərində, xüsusilə də çar Rusiyasının sütunları laxlamağa başlayanda Azərbaycan mətbuatı və ədəbi mühitində müstəqillik ab-havalı bədii və mətbu nümunələrin sayı çoxalırdı. Həmin dövrdə ədib və ziyalıların yaradıcılığına və ictimai fəaliyyətinə nəzər salanda aydın olur ki, xalqımızın azadlıq istəyi heç vaxt səngiməyib. Mirzə Fətəli Axundzadə və Həsən bəy Zərdabidən başlayaraq Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq, Yusif Vəzir Çəmənzəminli, Firidun bəy Köçərli və başqalarının əsərlərində müstəqillik düşüncəsinin işartılarını bu və ya digər səviyyədə görmək mümkündür.

Məsələn, yazıçı-dramaturq Cəlil Məmmədquluzadə 1917-ci ildə qələmə aldığı "Cümhuriyyət" məqaləsi ilə xalqımızın müstəqilliyə necə yaxın olduğunu göstərməklə yanaşı, müasir respublika quruluşunun ideya-siyasi əsaslarını da ortaya qoymuşdu. Bu məqalənin əhəmiyyətini yüksək qiymətləndirən akademik İsa Həbibbəyli "Cümhuriyyət"i C.Məmmədquluzadə demokratizminin, milli-demokratik dövlət quruculuğunun nizamnaməsi kimi xarakterizə edir. Bildirir ki, ilk dəfə 1917-ci ildə Tiflisdə Müsəlman Milli Komitəsinin yığıncağında səsləndirilmiş bu məqalə "Cümhuriyyətin vacib əsasları"ndan yoğurulmuş proqramdır.

İstiqlaliyyət uğrunda mübarizədən geri çəkilməyən vətənsevərlər azərbaycançılıq məfkurəsini məzmun və keyfiyyətcə yeni mərhələyə daşıdılar. Bu proses Xalq Cümhuriyyətinin qurulması ilə yüksək zirvəyə çatdı...

## Xalqın hüzn və ağrılarına Cümhuriyyət məlhəmi

Cümhuriyyət elə bir vaxtda quruldu ki, 1918-ci ilin mart-aprelində erməni-bolşevik qatil dəstələrinin Azərbaycanın əksər bölgələrində həyata keçirdiyi soyqırımının ağrı-acısı hələ dinməmişdi. Mayın 28-də Tiflisdən gələn istiqlal müjdəsi milli matəmə qərq olan xalqımızın ağrı-acısına sanki məlhəm oldu. Bu qürur doğuran xəbərə ən çox sevinənlər isə, təbii ki, istiqlalı hamıdan artıq arzulayan yazıçı və şairlər idi.

Cümhuriyyətin elan olunması ədəbi mühitdə də böyük canlanma yaratdı. Bu dövrün ideya-bədii baxımdan rəngarəng poeziyası, nəsri, dramaturgiyası formalaşdı. Professor Vaqif Sultanlının fikrincə, qısa bir dövr ərzində böyük milli ədəbiyyatın yaranması mümkün deyildi. Cümhuriyyətçilik bir məfkurədir və buna qədər gələn bir yol, ədəbi proses var. Cümhuriyyətin üçrəngli bayrağı və gerbinin daşıdığı simvollar milli poeziyamızdan və romantik nəsr nümunələri və publisistikadan keçərək gəlib.

Mənbələrdə qeyd edilir ki, Cümhuriyyət dövrünün ədəbiyyatını ilk dəfə araşdıranlar elə bu respublikanı yaradanların özləri olublar. 1919-cu il avqustun 26-da "Yaşıl qələm" ədəbi birliyinin yığıncağının parlament binasında keçirilməsi, Rəsulzadənin orada iştirakı və çıxışı Cümhuriyyət rəhbərlərinin milli ədəbiyyatın inkişafında maraqlı olmasının göstəricisidir.

## "Millətin ülvi niyyət və məqsədlərini oxşayınız..."

Dövrün tanınmış ədib və ziyalıları ədəbiyyatın, mətbuatın əsas inkişaf istiqamətlərini müəyyənləşdirən yazılarla çıxış edir, gənc ədəbi qüvvələri milli ruhlu əsərlər yaratmağa səsləyirdilər. Yazıçı və şairləri azərbaycançılıq məfkurəsini əks etdirməyə çağıran Rəsulzadə 1919-cu ildə "Azərbaycan" qəzetində yazırdı: "Mətbuatın, ədəbiyyatın millətin qəlbinə milliyyət və istiqlal toxumu saçan bir əməl olduğu məlumdur... Ey millətin lisanül-qeybi olan şairlər, ədiblər! Millətin əməllərini, ülvi niyyət və məqsədlərini oxşayınız, kəndisinə millət sevgisi, vətən məhəbbəti, hürriyyət eşqi təlqin ediniz".

Güneyli-quzeyli Azərbaycanın taleyini düşünən Mirzə Cəlil "Gəlin, əsrlərlə millətin ürəyində daş bağlayan dərdlərini açıb tökək", - deyə çağırış edirdi. Cümhuriyyətin Ukrayna və Türkiyədə səfiri olan Y.V.Çəmənzəminli "Bu gün yazıçıya nə gərəkdir" sualına belə cavab verirdi: "Dil azadlığı, qələm azadlığı".

Milli intibah, hürriyyət düşüncəsi və istiqlal ovqatı görkəmli romantik şair M.Hadinin şeirlərinin leytmotivini təşkil edir. O, Cümhuriyyətin qurulmasını ruh yüksəkliyi ilə qarşılamış, xalqımızın tarixinə qızıl hərflərlə həkk olunan bu hadisəyə şeirlər həsr etmişdi. Müəllif "Məfkureyi-aliyyəmiz" şeirində xalqın milli istiqlal ruhunu və əzmini ifadə edərək yazırdı:

***Çıxsın dilərsə, qarşımıza həp məzarımız,***
***Dönməz məzaridən bu dili-əzmkarımız...***
***Vicdani-millətə yazılıbdır bu ayəmiz,***
***Ən şanlı, ən şərəfli həyat iştə qayəmiz...***

Şair "Şühədayi-hürriyyətimizin ərvahına ithaf" şeirində "Sizinlə buldu bu millət şərəfli istiqlal", - deyərək müstəqillik uğrunda mübarizədə şəhid olmuş vətən övladlarının xatirəsinə ehtiramını ifadə edirdi. O, "Əsgərlərimizə, könüllülərimizə" silsilə şeirlərində isə xalqı istiqlalımızı qorumağa çağırırdı.

Şair-dramaturq Hüseyn Cavid o zaman "Yaşıl qələm" ədəbi birliyində təmsil olunurdu. 1919-cu ildə Abdulla Şaiqlə birgə ədəbiyyat nəzəriyyəsinə dair "Qəvaidi-ədəbiyyat" ("Ədəbiyyat dərsləri") adlı dərslik nəşr etdirmişdi. A.Şaiq "Türk çələngi" (1919) dərsliyinə Cavidin tərcümeyi-halını, "Bakıda" ("Məsud və Şəfiqə"), "Kiçik sərsəri", "Öksüz Ənvər", "İlk bahar", "Qız məktəbində", "Çiçək sevgisi" şeirlərini də daxil etmişdi.

İstiqlalımıza könül verən A.Şaiq "İntizar qarşısında", "Arazdan Turana", "Yeni ay doğarkən", "Vətənin yanıq səsi", "Türk ədəmi-mərkəziyyət firqəsi" və s. şeirləri qələmə almışdı. "Birləşəlim, türk oğlu, bu yol millət yoludur!" - deyən şair hər kəsi milli birliyə kökləyir, vətənin istiqlalı naminə əzmkarlığa səsləyirdi:

***"Ölüm" deyə, "Vətən" deyə coşarız.***
***Bu torpaqlar qanımızla boyansa,***
***Nəfəsimiz qalınca öc alarız...***

Şeirlərində müstəqil Azərbaycan, türkçülük, turançılıq ideyalarını tərənnüm edən Cəfər Cabbarlı "Yaşıl donlu, al yanaqlı, mavi gözlü sevdiyim" dediyi bayrağımızın tarixi simvolikasını belə açırdı:

***Bu göy boya göy moğoldan qalmış bir türk nişanı,***
***bir türk oğlu olmalı.***
***Yaşıl boya islamlığın sarsılmayan inamı,***
***ürəklərə dolmalı.***
***Al boya da azadlığın, təməddünün gümanı,***
***mədəniyyət bulmalı...***

Müəllifin "Sevdiyim", "Sevimli ölkəm", "Salam" şeirlərində istiqlalımızdan doğan sevinc və qürur hakimdir.

Cümhuriyyətin ilk qadın şairi Ümmügülsüm istiqlalımıza əl uzatmaq istəyənlərə meydan verməməyi tövsiyə edirdi:

***Ey buzlu şimaldan qopan ruzigar,***
***Toxunma qəlbimə, atəşi parlar.***
***Saqın, gəlmə, səni nəfəsim boğar,***
***Dəf ol, vətənimdə görəməm səni...***

Davamı səh. 45-də

Əvvəli səh. 44-də

## "Üçrəngli bayrağınla məsud yaşa!"

Bu dövr poeziyasında himnimizin sözlərinin müəllifi, "Cümhuriyyət şairi" Əhməd Cavadın istiqlalımızı tərənnüm edən şeirləri xüsusi yer tuturdu. Onun yaradıcılığının ən parlaq dövrü Cümhuriyyət illərinə təsadüf edir. Ə.Cavadın bu dövr şeirlərinin əsas atributları 28 May - istiqlal günü, milli ordu, türk birliyi, üçrəngli, səkkizguşəli ay-ulduzlu bayraqdan ibarətdir. Şairin işıq üzü görən ikinci şeirlər kitabı "Dalğa"da (1919) istiqlal ruhlu ("Azərbaycan bayrağına", "Gəlmə" və s.) bədii nümunələr yer alıb.

Yeni qurulan Cümhuriyyət üçün ən böyük təhlükənin şimaldan gəlməsindən ehtiyatlanan müəllif (təəssüf ki, bu ehtimal qısa zamanda gerçək oldu) xalqın iradəsinə qarşı gələn düşmənə qəzəbini ifadə edirdi:

***Könüllər bir dəniz, coşdurma onu,***
***Coşqun könüllərin fırtına sonu.***
***Sən ey şimal yeli, gəl etmə bunu,***
***Yox isə əmrinə uyanlar, gəlmə!***

Milli istiqlalın bərqərar olmasından doğan duyğuların ifadəsi Əliabbas Müznib, Balaqardaş Mürşid, Əli Şövqi, Ümid Gəncəli, Əli Yusif və başqalarının yaradıcılığında da özünü göstərirdi.

Şair, ədəbiyyatşünas Ə.Müznib Cümhuriyyətin himni üçün elan olunan müsabiqəyə təqdim etdiyi və "Övraqi-nəfisə" jurnalında (1919) işıq üzü görən "Azərbaycan" şeirində "Məbudumuz üç boyalı bayrağı, Kəbəmizdir hər bir ovuc torpağı" deyərək vətənin necə müqəddəs bir yerə sahib olduğunu vurğulayırdı.

* * *

İstiqlaliyyət illərində poeziya nümunələri ilə yanaşı, dövrün mürəkkəb ictimai-siyasi prosesləri bədii nəsrdə də öz əksini tapırdı. Mirzə Cəlilin bu dövrdə qələmə aldığı "Konsulun arvadı", "Qəssab", "Xanın təsbehi", "Nigarançılıq", "Rus qızı" və s. hekayələrində ənənəvi ailə-məişət mövzuları ilə yanaşı, vətənin, millətin taleyi məsələlərinə də toxunulurdu.

Əbdürrəhim bəy Haqverdiyevin "Şair" hekayəsində milli dövlət quruculuğu dövründə ziyalı problemi diqqət mərkəzinə çəkilirdi.

A.Şaiqin "Əsrimizin qəhrəmanları" romanında Azərbaycan gənclərinin həyatı, arzu və amalları, dünyabaxışı və əməlləri ön planda təqdim olunurdu.

Yazıçı Ağababa Yusifzadənin romantik ruhlu "Sınıq qanad" romanı ənənəvi məhəbbət mövzusunda olsa da, əsərdə ictimai məsələlərə eyham vurulurdu. Müəllifin fikrincə, millətin müstəqilliyi və xoşbəxtliyi hamının birliyindən, bir-birinə yardımından asılıdır.

Bu mənada yazıçı, tənqidçi Seyid Hüseynin "Həzin bir xatirə. İsmailiyyə" hekayəsi diqqətəlayiq nümunələrdəndir. Yazıçı xalqı erməni-bolşevik quldurlarının viran qoyduğu İsmailiyyə binasının timsalında öz taleyinə sahib çıxmağa səsləyirdi.

* * *

Ədəbi prosesin canlanmasında dramaturgiyanın da özünəməxsus yeri vardı. Qələmə alınan pyeslərdə ölkəmizin həmin dövrdəki vəziyyəti, milli azadlıq hərəkatı, müstəqil dövlətçilik məsələləri, xalqın etnik-mədəni sisteminə yeni baxış aparıcı idi. Müəlliflər Azərbaycan, Turan, Qafqaz və Türk dünyasını bədii obraz səviyyəsinə qaldırırdılar.

C.Məmmədquluzadə ("Kamança", "Anamın kitabı"), H.Cavid ("İblis"), C.Cabbarlı ("Bakı müharibəsi", "Aydın"), M.Məmmədzadə ("Bakı uğrunda mübarizə"), İsa bəy Aşurbəyli ("Azərbaycan") kimi ədiblər cəmiyyətdə baş verən hadisələrə öz münasibətlərini yüksək peşəkarlıqla ifadə edirdilər. Ümumiyyətlə, bu dövrdə qələmə alınan pyeslər ədəbi mühitə yeni nəfəs gətirməklə yanaşı, Azərbaycan səhnəsinin ideya-bədii cəhətdən maraqlı əsərlərlə zənginləşməsində də mühüm rol oynamışdı.

* * *

Cümhuriyyət dövründə ədəbiyyat tariximizin sistemli şəkildə araşdırılması da diqqətdən kənarda qalmamışdı. F.Köçərli, S.Hüseyn, S.Mümtaz və Y.V.Çəmənzəminli qədim dövrlərdən üzü bəri ədəbiyyatımızın görkəmli nümayəndələrinin fəaliyyətinə işıq tuturdular. Çəmənzəminli "Azərbaycan ədəbiyyatı tarixinə bir nəzər" kitabını yazır, S.Mümtaz klassik şairlərimizin həyat və yaradıcılığını toplayırdı. Qələmə alınan bədii nümunələrsə əsasən "Azərbaycan", "Açıq söz", "Müsavat", "Bəsirət", "İstiqlal" qəzetlərində, "Övraqi-nəfisə" və "Qurtuluş" jurnallarında dərc olunurdu. "Milli şərqilər", "Ordu marşları" kimi toplularda istiqlal ruhlu əsərlərə geniş yer verilirdi.

Xalqımızın istiqlal arzularının gerçəkləşməsi, milli və dünyəvi dəyərlərə malik respublikanın qurulması mədəniyyət və ədəbiyyatımızda da ayrıca mərhələnin yaranması ilə nəticələndi. Tariximizin bu şanlı səhifəsinin dərindən öyrənilməsi və təbliği ədəbi-tarixi yaddaşın bütövləşməsinə xidmət edəcək, gənc nəsillərin iftixar mənbəyinə çevriləcək.

*Əhməd Cavad*

## Azərbaycan, Azərbaycan!

***Dağlarının başı qarlı,***
***Sinəsi yaşıl ormanlı.***
***Dərələrin şirin barlı,***
***Azərbaycan, Azərbaycan!***

***Səhraların sünbüllüdür,***
***İl müdam üstü güllüdür.***
***Bağçaların bülbüllüdür,***
***Azərbaycan, Azərbaycan!***

***Durna gözlü bulaqların,***
***Cənnət kimi yaylaqların,***
***Geniş-geniş oymaqların,***
***Azərbaycan, Azərbaycan!***

***Ormanında maral gəzər,***
***Çöllərində ceyran süzər,***
***Göllərində qazlar üzər,***
***Azərbaycan Azərbaycan!***

***İlxında ayğır kişnəşir,***
***Naxrında buğan güləşir,***
***Süründə əmlik mələşir,***
***Azərbaycan, Azərbaycan!***

***Qayaların əlvan mərmər,***
***Belində var qızıl kəmər.***
***Bir yanında bəhri-Xəzər,***
***Azərbaycan, Azərbaycan!***

***Sinən odu şölə salır,***
***Dünya səndən işıq alır.***
***Verməyəndə zülmət qalır,***
***Azərbaycan, Azərbaycan!***

***İpək, pambıq, yunun çoxdur,***
***Arpa, buğda, düğün çoxdur,***
***Hər şeyin var, nəyin yoxdur?!***
***Azərbaycan, Azərbaycan!***

***Yer üzündə yoxdur tayın,***
***Gur-gur axar neçə çayın,***
***Bol veribdir, fələk payın,***
***Azərbaycan, Azərbaycan!***

***Laçının var, tərlanın var,***
***Çoxlu şirin dastanın var,***
***Qorxun yoxdur, düşmanın var,***
***Azərbaycan, Azərbaycan!***

*Gəncə, 1919*
*("Mahnılar" kitabından)*

*Cəfər Cabbarlı*

## Sevdiyim

*(Azərbaycanın bayrağına)*



***Altun köksün hilal-yıldız, işıqları öpüncə,***
***Zirvəsindən Şah dağının gündoğuşu dinilür.***
***Rəhm Allahi gözəlliklər tanrısı tək pək incə,***
***Bir siyaqla könüllərə hey salamlar söylüyür.***
***O yerlərdə qardaşları, dostları var, pək sevir,***
***Yaşıl donlu, mavi gözlü, al yanaqlı sevdiyim.***

***Canalıcı bir görkəmlə dağ başında durunca,***
***Oxşadıqca bahar yeli açıq-dağınıq tellərin.***
***Nazlı əlin umuzunda saçlarına vurduqca,***
***Bir-bir oxşayırsan bütün Turan ellərin.***
***Altaylardan, Altun dağdan doğma sellər bəkləyor***
***Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdiyim.***

***Rəmuz ilə dörd bir yanə işıq saçmaq istiyor,***
***Ara-sıra tərpəniyor, bu kəsik uçmaq istiyor,***
***Qollarilə türk ellərin bütün qucmaq istiyor,***
***Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdiyim.***

*Məhəmməd Hadi*

## Əsgərlərimizə, könüllülərimizə

***Payimali-düşmən olsunmu çəmənzari-vətən?!***
***Yurdumuz sizdən bu gün çox ali hümmət gözləyir.***

***Hifz üçün əğyar əlindən dilbəri-hürriyyəti,***
***Müstəqil olmuş vətən əzmü mətanət gözləyir.***

***Qoymayın olsun xəzan gülzari-istiqlalımız,***
***Sizdən istiqlalımız parlaq təravət gözləyir.***

***Millətin heysiyyətin yüksəldin, ey qeyrətvəran,***
***Millətim sizdən böyük şanü şərafət gözləyir.***

***Şanlı ölmək ölməməkdir, anlayın bu hikməti,***
***Pürşəraf kim can verərsə ani rəhmət gözləyir.***

***Millətim istər yürəkdən çox şərəfli bir həyat,***
***Anlasın, etsin bunu idrak əhli-kainat!***

*"Azərbaycan" qəzeti, 21 aprel 1919.*

# Tarixi keçmişimizə məhəbbətlə

## Xalq Cümhuriyyəti mövzusu təsviri sənətimizdə

**Yüz il əvvəl xalqımızın əldə etdiyi müstəqilliyin - Cümhuriyyətin 23 aylıq mövcudluğunun uzun illər ərzində Azərbaycan cəmiyyəti üçün qapalı, hətta yasaq mövzu olması, heç şübhəsiz, sovet rejiminin əsl xislətinin göstəricisi idi. Yalnız ötən əsrin 80-ci illərinin sonlarında geniş ictimaiyyət Cümhuriyyət və onun liderləri barəsində müəyyən informasiya əldə etməyə başladı.**



Nəticədə təsviri sənət ustalarımız da işıqlı əməlləri ilə adlarını tarixə yazdırmış görkəmli şəxsiyyətlərimizə bədii münasibət göstərmək üçün yaradıcılıq imkanı qazandılar, bu mövzuda dəyərli əsərlər ərsəyə gəldi. Rəngkarlıq sahəsində yaradılan əsərlər arasında həm süjetli kompozisiyalar, həm də portretlər çoxluq təşkil edir.

Dünyasını vaxtsız dəyişmiş gənc rəssam Ceyhun Həmzəyevin Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında diplom işi olaraq ərsəyə gətirdiyi “Cümhuriyyət” tablosu tamaşaçını xəyalən ilk respublikanın yaranmasının elan olunduğu məkana qaytarır. Yaşıl örtüklü masa ətrafında xalqımızın yeni tarixini yaradanlar, bir qədər aralıda isə bu unudulmaz ana şahidlik edən əqidə dostları təsvir olunublar. Baş verən məqamın gərginliyini inandırıcı cizgilərlə ifadə edən rəssam tarixi əhəmiyyəti birmənalı olan hadisəyə yaddaqalan bədii tutum verməyə nail olub.





Mərhum fırça ustası Arif Məmmədovun çəkdiyi “Cümhuriyyət liderlərinin Gəncədə qarşılanması” əsərində isə müstəqilliyin elan olunmasından sonra Bakıda fəaliyyət göstərməsi mümkün olmayan milli hökumətin Nizami yurduna gəlişi təsvir olunub. Qədim Gəncənin fonunda görüntüyə gətirilən Cümhuriyyət rəhbərlərinin və onları sevinclə qarşılayan yerli əhalinin görüşü rəssam tərəfindən duyulası reallıqla işlənib. Bu da tamaşaçıya adları əbədiyyətə qovuşmuş tarixi şəxsiyyətləri tanımağa imkan verir.

Tanınmış fırça ustası Faiq Abdullayevin çəkdiyi tablo da Gəncə ilə bağlıdır. Əsərdə xilaskar Qafqaz İslam Ordusunun Gəncəyə gəlişi təsvir olunub. Ordunun komandirlərindən birini - Nuru paşanı at belində qədim şəhərin küçəsində görüntüyə gətirən rəssam istiqlalımızın müdafiəsində əvəzsiz xidmətləri olan bu cəsur şəxsin və onun silahdaşlarının xatirəsinə ehtiramını ifadə edib.

Çoxfiqurlu kompozisiyadan ibarət olan digər bir tabloda - “Nuru paşa” rəngkarlıq əsərində də cəsur komandirin obrazı canlandırılıb. Bu tarixi janrlı lövhəni gənc rəssam Bəxtiyar Yusibov Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında diplom işi olaraq çəkib. Qafqaz İslam Ordusunun liderlərindən birini bəyaz at belində təsvir edən fırça ustası, onu qorxmaz əsgərlərinin təsviri ilə əhatələndirməklə, dinamikliyi cəlbedici olan yaddaqalan əsər yarada bilib.

Xalq rəssamı Oqtay Sadıqzadə, Əməkdar incəsənət xadimi Eyyub Məmmədov və Əməkdar rəssam Rais Rəsulzadənin çəkdikləri rəngkarlıq tablolarında Cümhuriyyətin qurucularından Məhəmməd Əmin Rəsulzadənin obrazı canlandırılıb. Bu portretlərdə dillər əzbəri olan “Bir kərə yüksələn bayraq bir daha enməz” çağırışının müəllifinin yüksək bədii-estetik məziyyətli surəti yaradılıb.

Tanınmış tişə ustalarının yaradıcılığında da bu obrazın forma-biçim və plastika rəngarəngliyi ilə diqqətçəkən obrazları mövcuddur. Xalq rəssamı, akademik Ömər Eldarov və Cavanşir Dadaşovun yaratdıqları kompozisiyalar bu qəbildəndir.

Mədəniyyət Nazirliyi və Rəssamlar İttifaqının təşəbbüsü ilə 2014-cü ildə keçirilən “Əsrlər-nəsillər” adlı müsabiqə-sərgi nəticəsində də şərəfli keçmişimizin yaradıcılarını tərənnüm edən maraqlı rəngkarlıq, heykəltəraşlıq, qrafika və tətbiqi sənət nümunələri ərsəyə gətirilib. Bu mənada heykəltəraşlardan xalq rəssamları Xanlar Əhmədovun, Arif Qazıyevin, Əməkdar rəssam Azad Əliyev və Nəriman Məmmədovun, qrafiklərdən Xalq rəssamı Arif Hüseynovun, Əməkdar rəssam Teymur Rzayevin, qobelen ustası Adil Şıxəliyevin və başqalarının adlarını çəkmək olar. Onların müxtəlif janrlı əsərlərində üçrəngli bayrağımızın ideya müəllifi Əli bəy Hüseynzadə, generallar Əliağa Şıxlinski və Səməd bəy Mehmandarov (tablo, heykəl və qrafika), Zivər bəy Əhmədbəyov (heykəl), Fətəli xan Xoyski (heykəl), bəstəkar Üzeyir Hacıbəyli və Əhməd Cavadın (heykəl) özünəməxsus bədii tutuma malik olan obrazları ilə qarşılaşmaq mümkündür.

Fətəli xan Xoyskinin Tiflisdə (müəllifi Azad Əliyev), Əli bəy Hüseynzadənin Salyanda (müəllifi Nəriman Məmmədov), Zivər bəy Əhmədbəyovun Bakıda (müəllifi Natiq Əliyev), Məhəmməd Əmin Rəsulzadənin Novxanıda (müəllifi Cavanşir Dadaşov) ucaldılmış abidələrində obrazların yüksək mənəvi-psixoloji keyfiyyətlərinə yaddaqalan plastik həll verildiyindən onların hər biri yerləşdikləri məkanların dominantına çevrilən estetik qaynaq kimi qəbul olunurlar.

İstedadlı tişə ustası Azad Əliyevin yaratdığı “Üzeyir Hacıbəyli və Əhməd Cavad” kompozisiyası isə forma-biçiminə və daşıdığı yüksək estetik məziyyətlərinə görə müasir Azərbaycan heykəltəraşlığında yeni söz kimi dəyərləndirilməyə layiqdir. 2010-cu ildə Şəmkirdəki İstiqlal parkında ucaldılmış ikifiqurlu abidədə - bəstəkarı royal arxasında, şairi isə ayaq üstə - şeir oxuyan vəziyyətdə təsvir edən heykəltəraş milli himnimizin müəlliflərinə layiqli abidə yaratmağa nail olmuşdur.

Təsviri sənət ustalarımız Cümhuriyyət mövzusuna müraciət etməkdədirlər. İnanırıq ki, onlar sənətsevərləri bundan sonra da yeni əsərlərlə sevindirəcəklər.

**Ziyadxan Əliyev**
*Əməkdar incəsənət xadimi*



**Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu qısa zaman ərzində milli dövlət quruculuğunun bir çox sahələrində tarixi əhəmiyyətli addımlar atılmaqla yanaşı, dövlət atributlarının, rəmzlərinin yaradılması istiqamətində də mühüm qərarlar qəbul edilmişdi...**

# Cümhuriyyətin mirası - dövlət rəmzlərimiz

## Bayraq



Müvəqqəti milli hökumətin Gəncədə fəaliyyət göstərdiyi dövrdə ilk olaraq bayraq haqqında qərar (21 iyun 1918-ci il) qəbul edildi. Ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı rəngli bayraq Cümhuriyyətin ilk dövlət rəmzi oldu. Bu, Türkiyə (Osmanlı) bayrağının demək olar ki, eynisi idi, yeganə fərq ulduzun beşguşəli deyil, səkkizguşəli olmasında idi. Hökumətin qərarı bir anlamda Azərbaycanın türk dünyasının parçası olmasının nümayişi, həmçinin tarixinin ən taleyüklü anında ona qardaş əlini uzatmış Türkiyəyə ehtiramın göstəricisi idi. Milli dövlət quruculuğunda müvəqqəti dövlət rəmzimiz olan ağ ay-ulduzlu qırmızı bayraq beş ay sonra böyük mütəfəkkir Əli bəy Hüseynzadənin irəli sürdüyü Cümhuriyyət triadasının (türkləşmək, müasirləşmək, islamlaşmaq) əksini tapdığı üçrəngli bayraqla əvəzləndi.



Cümhuriyyətin Nazirlər Şurası 1918-ci il noyabrın 9-da Azərbaycanın yeni - mavi, qırmızı, yaşıl zolaqlardan ibarət və üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan milli bayrağının təsdiq edilməsi haqqında qərar qəbul etdi. Bayraq ilk dəfə Nazirlər Şurasının yerləşdiyi binada (Azneft meydanında sonralar Azərbaycan Dövlət Neft Şirkətinin binası) qaldırıldı. Dekabrın 7-də Cümhuriyyət Parlamenti açıldı və bayraq Parlament binası (indiki Əlyazmalar İnstitutu) üzərində də dalğalanmağa başladı. Dövlət müstəqilliyimizin rəmzi Cümhuriyyətin süqutundan beş gün sonra - 1920-ci il mayın 3-də həmin binanın üzərindən endirildi...

Üçrəngli bayraq 70 il sonra, 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində ulu öndər Heydər Əliyevin sədrlik etdiyi iclasda muxtar respublikanın bayrağı kimi qəbul edildi. Ali Məclis həmçinin Azərbaycan Ali Soveti qarşısında bu bayrağın dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı. 1991-ci il fevralın 5-də Ali Sovet "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" qanun qəbul etdi və üçrəngli bayraq dövlət rəmzi kimi təsdiq edildi.

Prezident İlham Əliyevin 17 noyabr 2009-cu il tarixli sərəncamı ilə Cümhuriyyətin bayrağının qəbul edildiyi 9 noyabr tarixi Dövlət Bayrağı Günü elan olundu.

Dövlət bayrağımız bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq istəyini, yaşıl rəng - İslam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilib.

## Gerb

Dövlət gerbinin layihəsi Cümhuriyyət dövründə hazırlansa da, onun qanunvericilik səviyyəsində qəbul edilməsi mümkün olmamışdı.

Nazirlər Şurası dövlətin gerb və möhürünün təsvirinin hazırlanması ilə bağlı iki dəfə qərar qəbul etmişdi. İlk müsabiqə elanı 1919-cu il martın 23-də "Azərbaycan" qəzetində dərc olunmuş, lakin müsabiqə nəticəsiz qalmışdı. Nazirlər Şurası 1920-ci il yanvarın 30-da "Azərbaycan Respublikasının gerbi və möhürünün, milli himninin və hərbi ordenlərinin layihələrinin hazırlanması haqqında" yenidən qərar qəbul etdi. Qərarda hərbi ordenlərin yaradılması üçün müsabiqə elan edilməsi Hərbi Nazirliyə, himnin qəbulu, dövlət gerbi və möhürünün layihələrinin hazırlanması ilə bağlı müsabiqənin keçirilməsi Xalq Maarifi Nazirliyinə həvalə edilmişdi. Xalq Maarifi Nazirliyi 1920-ci il fevralın 19-da "Azərbaycan" qəzetində müsabiqə elanı verdi. Layihələr Cümhuriyyətin ikinci ildönümünədək təsdiq edilməli idi. Lakin bu tarixə bir ay qalmış milli dövlət süqut etdi.



Azərbaycan Respublikasının Milli Məclisi 1993-cü il yanvarın 19-da qəbul etdiyi qanunla 1919-1920-ci illərdə hazırlanmış dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etdi.

Gerb palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri var.

## Himn

Hələ Cümhuriyyətin yaranmasından əvvəl, 1917-ci il dekabrın 17-də "Açıq söz" qəzetində Yusif Vəzir Çəmənzəminli "Zəruri məsələlər" adlı məqaləsində Azərbaycan xalqını birliyə, Vətənin taleyi üçün mübarizəyə səsləyən milli marşların yaradılmasının vacibliyindən söz açaraq bu işdə böyük bəstəkar Üzeyir Hacıbəylinin üzərinə xüsusi məsuliyyət düşdüyünü vurğulayırdı. Üzeyir bəyin sözlərini və musiqisini yazdığı "Milli marş" həmin il dekabrın 23-də orkestr tərəfindən ifa edilmişdi.



Üzeyir Hacıbəylinin şair Əhməd Cavadın sözlərinə bəstələdiyi "Azərbaycan marşı" isə 1919-cu ildə ərsəyə gəldi. Marşın sözləri həmin il "Vətən marşı" adı ilə hökumət mətbəəsində "Milli nəğmələr" kitabında çap olunmuş, musiqisi isə ondan sonra bəstələnmişdi. Hökumətin gerb və himn barədə qərarını həyata keçirmək mümkün olmadığı üçün "Azərbaycan marşı"nın da müvafiq müsabiqədən keçərək dövlət himninə çevrilməsi reallaşmadı. Amma bu möhtəşəm musiqi Cümhuriyyətin yadigarı kimi qaldı...

"Azərbaycan marşı" 1989-cu ildə bəstəkar Aydın Əzimov tərəfindən böyük xor və simfonik orkestr üçün aranjiman edilərək lentə yazıldı, həmin ilin payızında 70 illik fasilədən sonra ilk dəfə olaraq televiziya və radioda səsləndirildi.

1992-ci il mayın 27-də Milli Məclis "Azərbaycan Respublikasının Dövlət himni haqqında" qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə Üzeyir Hacıbəyli və Əhməd Cavad tərəfindən tərtib edilmiş "Azərbaycan marşı" Azərbaycanın Dövlət himni kimi təsdiq edildi.

### Qeyd

***"Cümhuriyyət 100" xüsusi buraxılışının hazırlanmasında "Mədəniyyət" qəzetində dərc edilmiş məqalələrdən, "Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası"nın, Prezident Kitabxanasının "Azərbaycan Xalq Cümhuriyyəti" elektron toplusunun materiallarından istifadə olunub.***

***Nəşrin materiallarını hazırlayanlar: Vüqar Orxan, Fariz Yunisli, Gülcahan Mirməmməd, Lalə Azəri, Fariz Hüseynov, Savalan Fərəcov.***

CÜMHURİYYƏT 100
İYUL 2018-ci il

# Ordum varsa - yurdum var

## Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 100 illiyinə həsr olunmuş təntənəli hərbi parad



26 iyun Azərbaycan Milli Ordusunun yarandığı gündür. 1918-ci ilin həmin günündə Cümhuriyyətin Nazirlər Şurası ilk milli diviziyanın yaradılması barədə qərar qəbul edib. Prezident Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanı ilə 26 iyun Azərbaycan Silahlı Qüvvələri Günü elan edilib.

Silahlı Qüvvələrimizin yaradılmasının 100 illik yubileyi münasibətilə iyunun 26-da Bakının Azadlıq meydanında təntənəli hərbi parad keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, xarici ölkələrin səfirləri, hərbi attaşeləri, beynəlxalq təşkilatların əməkdaşları, yubiley tədbiri ilə əlaqədar ölkəmizə gələn nümayəndə heyətləri, müharibə veteranları və paytaxt sakinləri hərbi parada baxıblar.



Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Ali Baş Komandan İlham Əliyevə raport verib. Müdafiə Nazirliyinin Əlahiddə nümunəvi orkestri dövlət himnimizi ifa edib.

Ali Baş Komandan İlham Əliyev hərbi paradda nitq söyləyib. Azərbaycan Ordusunun dünyanın güclü orduları sırasında olduğunu deyən dövlət başçısı vurğulayıb ki, ordu quruculuğu əsas vəzifəmizdir. 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında ordumuzun zəfərindən bəhs edən Ali Baş Komandan işğalçılardan azad edilmiş torpaqlarda qaldırılan döyüş bayraqlarının da paradda nümayiş olunmaq üçün gətirildiyini diqqətə çatdırıb. “Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq”, - deyə dövlət başçısı vurğulayıb.

Hərbi paradda Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətlərinin, eləcə də Türkiyə Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4000 nəfərədək şəxsi heyət iştirak edib. 240-dan çox hərbi texnika, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar nümayiş olunub.

Silahlı Qüvvələrimizin 100 illiyinə həsr edilmiş möhtəşəm parad bir daha göstərdi ki, güclü ordusu olan xalqın müstəqilliyi əbədidir və bu ordunun qüdrəti onun öz xalqına və dövlətinə sədaqətində, Vətən sevgisindədir.









**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D. Dövlət Film Fondu, 5-ci mərtəbə
**Tel.:** (012) 431-57-72

"Mədəniyyət" qəzeti və "Baku Guide" MMC-nin birgə nəşri

"Renessans-A" Nəşriyyat Evində çap edilib
17 iyul 2018-ci il

**Tiraj:** 7500